RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 129 (9584) 23 iyun 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## “Biz planetin qorunması üçün müsbət mühit yaratmaq istəyirik”

### "Euronews"da Prezident İlham Əliyevin müsahibəsi yayımlanıb

**İyunun 21-də "Euronews" televiziyasında Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərindən reportaj yayımlanıb.**

AZƏRTAC xəbər verir ki, həmin reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Euronews"a müsahibəsi də yer alıb.

İndi həmin müsahibənin tam variantını təqdim edirik.

**Müxbir:** *Cənab Prezident, hər zaman Sizi burada görmək olduqca xoşdur. Bu gün Siz "Masdar" və Zati-aliləri Sultan Əhməd Əl-Cabir ilə çox mühüm xəbər verdiniz. Xahiş edirik, planlarınız barədə daha çox məlumat verərdiniz.*

**Prezident İlham Əliyev:** Bəli, həqiqətən, əla tədbirdir və o, əslində, bizim yaşıl gündəliyimizi nümayiş etdirir və eləcə də göstərir ki, Azərbaycan nəinki ənənəvi enerji mənbələrinə, o cümlədən bərpaolunan enerjiyə sərmayə yatıranlar üçün cəlbedicidir. "Masdar" bizim bərpaolunan enerji sahəsində strateji tərəfdaşımızdır. Ötən ilin oktyabrında biz 230 meqavatlıq ilk Günəş enerjisi stansiyasının açılışını etdik. Bu gün isə ümumi gücü 1 qiqavat olan üç Günəş və külək enerjisi stansiyalarının təməlqoyma mərasimini keçirdik. Bu, yalnız başlanğıcdır, çünki biz orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırırıq. Hədəfimiz belədir. Potensial var. Siz Günəşi, istəyimizi və o cümlədən küləyi görə bilərsiniz. Yaxşı sərmayə mühiti var. Bu, həqiqətən göstərir ki, ölkə ənənəvi enerjidən əldə etdiyi gəlirləri hazırda bərpaolunan enerjiyə yönəldir. COP29-a evsahibliyi edəcək ölkə kimi "yaşıl enerji"yə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir.

→ 2

## Böyük tarixdən başlanan Zəfər yolu

### 1993-cü il 24 iyun tarixi Azərbaycanın dövlətçilik salnaməsinin şərəfli səhifələrindəndir



Ulu Öndər müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi, iqtisadi əsaslarını yaratmışdır. Azərbaycan xalqının müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmişdir. Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısındakı ən mühüm xidmətlərindən biri də azərbaycançılıq düşüncəsini bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gətirməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevirməsidir.

Heydər Əliyev nəcib əməlləri ilə adını tarixə əbədi həkk etmiş, bu fenomenal şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illər mahiyyət etibarilə intibah, milli tərəqqi, oyanış, nəhayət, müstəqil dövlət quruculuğu mərhələsinə çevrilmişdir. Böyük şəxsiyyətin fəaliyyətinin xalqımıza və ümumən bəşəriyyətə bəxş etdiyi çox mühüm nəticələri, parlaq nailiyyətləri var. Bunlardan ən mühümü, təbii ki, Ümummilli Liderin qurub-yaradaraq aydın inkişaf yoluna çıxardığı, bu gün isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünə gəlib çatmış müstəqil dövlətimizdir.

Belə deyirlər ki, tarixi şansa, milli iradəyə və liderə malik olmaq - bunlar hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün üç əsas şərtdir. Keçmişə nəzər salsaq, bu üç şərtin hər birinin Ulu Öndər Heydər Əliyevin şəxsiyyəti işığında bir araya gəldiyini görürük. Azərbaycan xalqının ötən əsrin əvvəllərində Cümhuriyyətin süqutundan sonra itirdiyi müstəqillik nemətini əsrin sonunda yenidən əldə etməsi üçün tarixi şəraitin yetişməsində, milli iradənin formalaşmasında Heydər Əliyev amilinin rolu danılmazdır. Ümummilli Lider hələ sovet Azərbaycanına rəhbərliyi dövründə cəmiyyətimizdə milli şüurun oyanışına nail olmuş, misilsiz fədakarlıq hesabına gələcək siyasi, iqtisadi, mədəni müstəqillik üçün zəngin potensial formalaşdırmışdı.

→ 4

## Azərbaycanın "yaşıl enerji" potensialı böyük, hədəfləri aydındır

### Prezident İlham Əliyev bunu "Euronews"a müsahibəsində bir daha vurğulayıb

Növbədə Cəbrayıl rayonunda BP ilə tikiləcək "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməlinin qoyulmasıdır. Bu enerji obyektinin bir önəmi də ondan ibarətdir ki, işğaldan azad olunmuş ərazilərimizdə tikiləcək. Məlumdur ki, Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsindəki Zəfərdən az sonra bu əraziləri - 10 min kvadratkilometr sahəni "yaşıl enerji" zonası elan edib. Odur ki, "Şəfəq"in tikintisi həm bu məqsədin gerçəkləşməsində əhəmiyyətli rol oynayacaq, həm də ümumən Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm quruculuğun bir hissəsinə çevriləcək.

Dövlətimizin başçısı eləcə də Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji" zonası elan edib. İndi bu diyarın da həmin sahədəki potensialından səmərəli istifadə olunması üçün geniş perspektivlər açılır. Konkret olaraq Naxçıvan MR-in 5 QVt "yaşıl enerji" mənbələri potensialı ilə enerjinin bu növünün ixracatçısına çevrilməsi də hədəflənib.

Bu istiqamətdə Azərbaycan-Türkiyə Enerji Forumu möhkəm platforma təşkil edir. İlk dəfə 2021-ci ildə Bakıda təşkil olunan bu forum iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıyır. Əsasən "yaşıl enerji" konsepsiyası çərçivəsində formalaşdırılan platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini qarşıya qoyur.

→ 4

## Fransanın müstəmləkə siyasəti beynəlxalq səviyyədə ifşa olunur

### Bakı Təşəbbüs Qrupu müstəqillik istəyən xalqların mütəşəkkil mübarizə platformasına çevrilib

Özünü dünyaya "demokratik" ölkə kimi sırımaq istəyən Fransa müstəmləkə siyasətini davam etdirir, özündən minlərlə kilometr uzaqda yerləşən ərazilərin sərvətlərini talayır, insanlarını kölə yerinə qoyur, beynəlxalq hüququ ayaqlar altına ataraq azadlıq, müstəqillik tələb edən yerli xalqların istəklərini qanla boğmaqdan belə çəkinmir. Bütün dünya Makron hakimiyyətinin Kanakidə müstəqillik tələbi ilə ayağa qalxan kanaklara qarşı qəddarlıqla güc tətbiq etməsinə, etirazçıları öldürməsinə şahidlik etdi.

Müstəmləkəçi ölkə Yeni Kaledoniyada törətdiyi qanlı əməllərin xarici aləmə sızmaması üçün informasiya blokadası həyata keçirir. Amma Azərbaycan Fransanın müstəmləkəsi altında saxladığı xalqların insan hüquqlarını pozmasını, müstəqillik tələb edənləri həbs etməsini, öldürməsini beynəlxalq səviyyədə ifşa etməkdədir. Yəni Azərbaycan neokolonializmlə mübarizəyə qətiyyətlə öndərlik edir və müstəqillik uğrunda mübarizəyə qalxan yerli xalqların nümayəndələri Bakı Təşəbbüs Qrupu ətrafında birləşərək azadlıq səslərini daha gur şəkildə dünyaya çatdırırlar.

→ 8

## 5 ayın makroiqtisadi göstəriciləri ilin sonuna nikbin nəticələr vəd edir



DSK-nın hesabatına görə, ilin 5 ayında ÜDM-in 39,7 faizi sənaye, 9,6 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 6 faizi tikinti, 3,8 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 20,1 faizi digər sahələrdə istehsal olunmuşdur.

→ 2

## "COP29-a Aparan Yol..." Zəngilanda başa çatdı

### Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Yüksək Səviyyəli 29-cu Toplantısı dünyaya vacib mesajlar verdi

Hazırda ölkəmizdə COP29-a hazırlıq işləri sürətlə və yüksək səviyyədə davam edir. Bakıda iyunun 19-dan rəsmi açılış mərasimi keçirilən "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı da COP29-a hazırlıq məqsədilə təşkil olunub.

Tədbir Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə baş tutub. Moderator - Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin toplantını açdıqdan sonra Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub. Dövlət başçısının müraciətində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qısa zaman ərzində yüksək nüfuz və etimad qazanaraq dünyada aparıcı beynəlxalq təsisatlardan birinə çevrildiyi vurğulanıb. Qeyd olunub ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsləri, qlobal gündəlikdə duran aktual məsələlərin həlli istiqamətində təklif etdiyi yeni yanaşmalar beynəlxalq aləmdə təqdir edilir və yüksək dəyərləndirilir.

→ 2

# "Biz planetin qorunması üçün müsbət mühit yaratmaq istəyirik"

## "Euronews"da Prezident İlham Əliyevin müsahibəsi yayımlanıb

*Əvvəli 1-ci səh.*

**Müxbir:** *Ənənəvi enerji sektorunun olması ilə yanaşı, yeni yaşıl bərpaolunan enerjiyə keçidə gəldikdə, çətinliklər hansılardır?*

**Prezident İlham Əliyev:** Bilirsiniz, əslində, hər yeni iş qeyri-müəyyənliklərlə dolu olur. Lakin bizim böyük tərəfdaşlarımız var. Artıq qeyd etdim, "Masdar" strateji tərəfdaşdır. Həmçinin "ACWA Power" var. Daha sonra, BP sərmayədarlarımız sırasındadır və bizimlə işləməyi planlaşdıran digər ölkələrin bir çox şirkətləri var. Bir sözlə, biz neft və qaz sahəsində hər şeyi başdan-ayağa bilirik. Burada isə biz təzə başlayırıq. Çətinliklərə gəldikdə, bu, milli enerji şəbəkəsi ilə bağlıdır, çünki biz onu gücləndirməliyik ki, sərmayədarların verdiyi mümkün qədər çox enerjini qəbul edə bilsin. Digər çətinlik ötürülmə xətləri ilə bağlıdır, çünki bu halda biz öz qonşularımızla fəal çalışmalıyıq. Azərbaycanın özünə planlaşdırdığımız qədər bərpaolunan enerji lazım deyil və bu səbəbdən hədəfimiz ixracdır. Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin ki, o, əsasən indi Avropaya lazım olan qaydada nəql olunsun. Yalnız daxili gündəliyimizdən asılı olan və həll edilməli bir çox məsələlər, şübhə etmirəm ki, tam reallaşacaq. Lakin beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri biz tərəfdaşlarımızla həll etməliyik.




**Müxbir:** *Bakı Enerji Həftəsində 37-dən artıq ölkədən gəlmiş 300-dən çox iştirakçının olması digər şirkətlərin bu işə sadiqliyini və bu konfransın nəyə görə enerji sektorunda qlobal liderliyi əks etdirdiyini göstərir. Elə deyilmi?*

**Prezident İlham Əliyev:** Mən də belə düşünürəm. Tədbir artıq 30 ildir keçirilir. Birincisi, o, hələ 1994-cü ildə təşkil olunmuşdur. İkincisi, ölkələrin coğrafiyasına və şirkətlərin sayına baxsanız görərsiniz ki, iştirakçıların sayı artır. Heç də hər enerji tədbiri ABŞ Prezidentinin müraciəti şərəfinə nail olmur. Bu tədbirin bütün illəri belə olub və bu, əslində, onun unikal mahiyyətini və gücünü nümayiş etdirir. Düşünürəm ki, bütün bu amillər həmin tədbiri müxtəlif məsələləri həll edən, inkişaf yolunu göstərən, çox inkişaf etmiş və inklüziv platformaya çevirir. Birincisi, Xəzər Neft və Qaz Sərgisi oldu. Sonra biz qaz hasilatına başladıq. Tədbir artıq Xəzər Neft və Qaz Sərgisi və Konfransı adını aldı. Sonra biz bərpaolunan enerji sahəsində işə başladıq və tədbir fərqli sektorları əhatə edən Bakı Enerji Həftəsinə çevrildi. Siz qısa müddət ərzində bir ölkədə hər istiqamətdə - neft, təbii qaz və indi isə "yaşıl enerji" sahələrində uğurları görə bilərsiniz.

**Müxbir:** *Yeri gəlmişkən, Siz xüsusi sərəncamla bu ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etdiniz. Elə deyilmi?*

**Prezident İlham Əliyev:** Bəli, ev sahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər.

**Müxbir:** *Cənab Prezident, hər zaman Sizi görməkdən məmnunuq.*

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# 5 ayın makroiqtisadi göstəriciləri ilin sonuna nikbin nəticələr vəd edir

**Dövlət Statistika Komitəsi (DSK) cari ilin 5 ayı üzrə makroiqtisadi göstəriciləri açıqlayıb. Bildirilir ki, bu dövrdə ölkə üzrə 48 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 4,2 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 7,3 faiz artmış, neft-qaz sektorunda eyni səviyyədə qalmışdır.**

DSK-nın hesabatına görə, ilin 5 ayında ÜDM-in 39,7 faizi sənaye, 9,6 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 6 faizi tikinti, 3,8 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 20,1 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 4713,3 manat əlavə dəyər düşmüşdür.

Yanvar-may aylarında ölkə üzrə 26,2 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ümumilikdə bu dövr məhsul istehsalı sənayenin qeyri-neft-qaz sektorunda 7 faiz artmış, neft-qaz sektorunda 0,2 faiz azalmışdır. Sənaye məhsullarının 64,7 faizi mədənçıxarma, 29,3 faizi emal, 5,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 5,7 faiz azalmış, əmtəəlik qaz hasilatı 4,1 faiz artmışdır.

Emal sektorunda tikinti materiallarının istehsalı 38,8, kompüter, elektron və optik məhsulların istehsalı 37,5, mebel istehsalı 36,6, metallurgiya sənayesi məhsullarının istehsalı 36,5, avtomobil, qoşqu və yarımqoşqular



istehsalı 31,3, əczaçılıq məhsullarının istehsalı 29,6, rezin və plastik kütlə məmulatlarının istehsalı 25,7, elektrik avadanlıqlarının istehsalı 22,2, geyim istehsalı 21,3, tütün məmulatlarının istehsalı 18,4, içkilərin istehsalı 16, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 12, hazır metal məmulatlarının istehsalı 10,2, neft məhsullarının istehsalı 7, kimya sənayesi məhsullarının istehsalı 5,1, qida məhsullarının istehsalı 4,1, kağız və karton istehsalı 2,7 faiz artmış, ağacın emalı və ağacdan məmulatların istehsalı 7,2, toxuculuq sənayesi məhsullarının istehsalı 11,1, poliqrafiya məhsullarının istehsalı 16,6, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 17,4, sair nəqliyyat vasitələrinin istehsalı 18,4, maşın və avadanlıqların istehsalı 19,5, sair sənaye məhsullarının istehsalı 67,5 faiz azalmışdır.

Hesabatda bildirilir ki, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 4,1 faiz azalma, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 11,7 faiz artım qeydə alınmışdır.

DSK-nın açıqlamasına görə, cari ilin yanvar-may aylarında əsas kapitala 6 milyard 640,9 milyon manat vəsait yönəldilmişdir. Bu, 2023-cü ilin eyni dövründəkindən 11 faiz çoxdur. İstifadə olunmuş ümumi vəsaitin 3 milyard 623,3 milyon manatı (54,6 faizi) məhsul istehsalı və 2 milyard 379,1 milyon manatı (35,8 faizi) xidmət sahələrinə, 638,5 milyon manatı (9,6 faizi) yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 81,1 faizi daxili sərmayələr olan vəsaitin 69,9 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir. Bu dövrdə neft-qaz sektoruna yatırılmış investisiyalar 9,2, qeyri-neft-qaz sektoruna sərf edilən vəsait isə 12,1 faiz artmışdır.

Sosial sahəyə, daha dəqiq desək, muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqına gəldikdə, DSK-nın məlumatına görə, ölkə üzrə yanvar-aprel aylarında bu göstərici 2023-cü ilin eyni dövrünə nisbətən 10,2 faiz artaraq 1007,5 manata çatmışdır. Əhalinin ümumi gəlirləri isə yanvar-may aylarında 5,3 faiz artaraq 31,9 milyard manat olmuşdur.

DSK-nın hesabatında həmçinin bildirilir ki, ilin 5 ayında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 21,4 milyard manatlıqdan çox məhsul satılmış, 4,8 milyard manatlıq ödənişli xidmətlər göstərilmişdir. 2023-cü ilin eyni dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 3,3, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 6,3 faiz artmışdır.

Yanvar-may aylarının nəticələrinə əsasən, ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 1 milyard 320,6 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 74,9 faizindən əhali istifadə etmişdir. 5 ay ərzində bu xidmətlərin həcmi 12,5 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 83,4 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda da göstəricilər müsbətdir: ötən 5 ayda ölkə üzrə 94 milyon ton yük, 802,7 milyon nəfərdən çox sərnişin daşınmışdır ki, bu da 2023-cü ilin eyni dövrünə nisbətən yük daşınması üzrə 3,4, sərnişin daşınması üzrə 8,1 faiz çoxdur.

Sonda istehlak qiymətləri barədə: cari ilin yanvar-may aylarında ötən ilin eyni dövrü ilə müqayisədə istehlak qiymətləri 100,6, o cümlədən qida məhsulları, içki və tütün məmulatları üzrə 99,2, qeyri-qida malları üzrə 101,2, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 102,4 faiz olmuşdur.

***"Azərbaycan"***

# "COP29-a Aparan Yol..." Zəngilanda başa çatdı

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Yüksək Səviyyəli 29-cu Toplantısı dünyaya vacib mesajlar verdi

*Əvvəli 1-ci səh.*

Müraciətdə diqqətə çatdırılıb ki, artıq uzun zamandan bəri iqlim dəyişmələri ilə mübarizə qlobal gündəlikdə duran ən vacib və prioritet məsələlər sırasındadır: "Bəşəriyyətin ortaq problemi olan iqlim böhranı və onun fəsadları ölkələrin dayanıqlı inkişafına və rifahına əngəl törətməklə yanaşı, sadə insanların da gündəlik həyatlarına və yaşam tərzlərinə əhəmiyyətli dərəcədə təsir göstərir". Müraciətdə qlobal istiləşmənin qarşısını almaq üçün bu günə qədər dünya ictimaiyyəti tərəfindən mühüm addımlar atılsa da, qarşımızda hələ də yeni çağırışlar və gündən-günə ciddiləşən təhdidlərin dayandığı vurğulanıb.

Tədbirdə çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Azərbaycanın bu il COP29-a evsahibliyi etməsinin onları məmnun etdiyini vurğulayıb: "Biz komandamızla sıx işləyirik, müzakirələr aparırıq. Biz həm Pakistanda, həm də Hindistanda 52 dərəcədən yuxarı rekord istini gördük, bu da bir insan üçün inanılmaz dərəcədə çətindir. Ümumiyyətlə, qlobal istiləşmə, iqlim dəyişikliyi bütün bəşəriyyət üçün çox ciddi problemdir".

Azərbaycanın COP29-u inklüziv, şəffaf və ədalətli şəkildə təqdim etməyə sadiq olduğunu vurğulayan COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP29 Sədrliyi olaraq bütün fikirləri eşitməyin, iqlim dəyişikliyi üçün hər kəsi ortaq həllər tapmağa səsləməyin vacibliyini qeyd edib: "Ötən aylar ərzində komandamız müvafiq beynəlxalq təşkilatların rəhbərləri ilə geniş və dərin məsləhətləşmələr aparıb. Bu görüşlər ambisiyaları artırmaq və hərəkətə keçmək üçün yeni fürsətlər yaradıb".

Azərbaycanın evsahibliyi edəcəyi COP29-a hazırlıq məqsədilə təşkil olunan Yüksək Səviyyəli 29-cu Toplantıda bir araya gəlməkdə məqsədin iqlim dəyişikliyi ilə mübarizədə əsas məsələlərlə bağlı müzakirələr aparmaq olduğunu söyləyən BMT Baş Assambleyasının 73-cü Sessiyasının prezidenti, Ekvadorun sabiq xarici işlər və müdafiə naziri Maria Fernanda Espinoza deyib ki, COP-un bu günü və gələcəyi hamımız üçün mühümdür. O qeyd edib ki, COP29-un uğuru təkcə Azərbaycanın uğuru olmayacaq: "İnanırıq ki, tədbir prosesə inamı və legitimliyi gücləndirəcək. O, COP29-un bəşəriyyət ilə təbiət arasında sülhün bərqərar edilməsi üçün keçirilən tədbir olduğunu vurğulayıb: "Biz uğurun bir hissəsi və COP29-un səfirləri olmaq istəyirik".

Tədirdə çıxış edən CGIAR şirkətinin icraçı direktoru, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının sabiq baş elmi işçisi İsmahane Elouafi bildirib ki, COP29-da müzakirə olunacaq məsələlər problemdən həll yollarının tapılması istiqamətində çox vacibdir: "Ümid edirəm ki, gələcək nəsillərə dünyanı daha sağlam və yaşanıla biləcək bir yer olaraq ötürə bilərik".

Toplantıya videoformatda qoşulan Dünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos, BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyima, Finlandiyanın sabiq Prezidenti Tarya Halonen, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktorunun müavini, Nüvə Elmləri və Tətbiqləri Departamentinin rəhbəri Nəcat Moxtar, Böyük Britaniyanın sabiq Baş naziri Qordon Braun iqlim dəyişikliyi ilə bağlı fikirlərini, təkliflərini diqqətə çatdırıb, qlobal problemlərdən biri olan iqlim dəyişikliyi ilə mübarizədə səylərin birləşdirilməsinin vacibliyini vurğulayıblar.

Tədbir işini panel iclaslarla davam etdirib. 8 paneldən ibarət və 100-dək qonağın iştirak etdiyi tədbirin ilk günündə 3 panel müzakirəsi keçirilib. "Çağırışın statusunun icmalı", "Balanslaşdırma, azaltma, uyğunlaşma və davamlılıq" və "İqlim dəyişikliyi və onun su, biomüxtəliflik və ərzaq təhlükəsizliyi ilə əlaqələri" mövzusunda panel müzakirələr aparılıb. Bu panellərdə iqlim dəyişikliyinin təsirlərin yumşaldılması, uyğunlaşma və dayanıqlılıq, həmçinin onun su ehtiyatlarına, biomüxtəlifliyə və ərzaq təhlükəsizliyinə təsiri müzakirə edilib.

Tədbirin ikinci günü - iyunun 20-də keçirilən panel müzakirələrdə isə iqlim dəyişikliyində elm, texnologiya və innovasiyaların rolu, qida və kənd təsərrüfatı sektorlarında vəziyyət, eləcə də maliyyə məsələləri müzakirəyə çıxarılıb.

Toplantının sonuncu günündə Zəngilanda iki panel iclası təşkil olunub. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin moderatorluğu ilə keçirilən, "Azərbaycanın öz təcrübəsindən dərslər" mövzusuna həsr olunan birinci panel iclasında çıxış edən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev toplantının əvvəlki sessiyaları zamanı iqlim dəyişikliyinin müxtəlif aspektləri və davamlı gələcək üçün bu qlobal problemin həlli yolları ilə bağlı geniş müzakirələrin aparıldığını bildirib: "Bu qlobal problemin həllində Azərbaycanın təcrübəsinə nəzər salaraq, bu gün Qarabağ və Şərqi Zəngəzurun dayanıqlı inkişafı istiqamətində davam edən səyləri müzakirə etmək üçün toplaşdığımız tarixi bir məqamdır. Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləməsindəki nailiyyətlərini də vurğulamaq vacibdir".

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Faiq Mütəllimov da Azərbaycanın iqlim dəyişikliklərinə xüsusi həssaslıqla yanaşdığını vurğulayıb. Maltanın sabiq Baş naziri Cozef Muskat isə diqqətə çatdırıb ki, regionda tamamilə böyüməyə can atan, transformasiya edən iqtisadiyyat daha çox bərpaolunan mənbələrə əsaslanır: "Biz bərpaolunan enerji mənbələrindən əldə edilən enerjini ixrac etməyə başlayırıq. İnanıram ki, bu gün burada eşitdiyimiz fikirlərin hamısı Azərbaycan tərəfindən uğurla həyata keçəcək".

Toplantının Zəngilanda təşkil olunan ikinci panel iclasının mövzusu "Siyasət: Lobbiçilər, gənclər, qadın qrupları, fəallar və ictimaiyyətin iştirakı" olub. Panel iclasa Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziya moderatorluq edib. Çıxış edənlər - COP29-un gənclər iqlim çempionu Leyla Həsənova, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin və COP29 Təşkilat Komitəsinin üzvü Pərvanə Vəliyeva, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ictimaiyyətlə əlaqələr üzrə meneceri Mehri Hüseynli, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin böyük britaniyalı gənc lideri Manas Çavla, polşalı Klau Chmielowska və hindistanlı Noel Jackson qlobal iqlim dəyişikliyi ilə bağlı mühüm məsələlərə toxunublar.

İştirakçılar həmçinin "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər barədə də məlumatlandırılıb. Bildirilib ki, ilk "Ağıllı kənd" layihəsinin təməli 2021-ci ilin aprelində Prezident İlham Əliyev tərəfindən qoyulub. 27 il işğal altında olan Zəngilan rayonu da ermənilər tərəfindən tamamilə dağıdılmış, bütün infrastruktur məhv edilmişdir. Rayonun təbiəti də ekoloji terrora məruz qalmışdı. Lakin 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun Qələbəsindən sonra işğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Zəngilanda da genişmiqyaslı tikinti-quruculuq işlərinə start verilib. "Ağıllı kənd" layihəsi əsasında Ağalı kəndində qısa müddətdə quruculuq işləri həyata keçirilib. Böyük Qayıdış Proqramına uyğun olaraq ilk növbədə Ağalı kəndinin sakinləri doğma yurdlarına qayıdıblar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Fəraqinin 300 illiyinə həsr olunmuş tədbirdə

**İyunun 22-də Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev türkmən xalqının böyük şairi Məhtimqulu Fəraqinin 300 illiyi ilə əlaqədar "Xalqları birləşdirən tarixi və mədəni dəyərlər" mövzusunda keçirilən xüsusi onlayn iclasda iştirak edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Türkmənistan Məclisinin təşkilatçılığı ilə keçirilən tədbirə bir çox ölkələrin parlamentariləri, beynəlxalq təşkilatların təmsilçiləri, alim və mütəxəssislər, mədəniyyət və incəsənət nümayəndələri qatılıblar.

Türkmənistan Məclisinin vitse-spikeri Qaxrıman Rozıyevin moderatorluğu ilə keçən iclasda Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev mövzu ilə bağlı çıxış edib. O, Məhtimqulu Fəraqinin türkmən və dünya ədəbiyyatındakı yerini, fikir və




fəlsəfi düşüncə tarixindəki rolunu yüksək dəyərləndirib. Milli Məclisin komitə sədri böyük türkmən şairi Məhtimqulunun ədəbi mirasına Azərbaycanda böyük maraq və ehtiram göstərildiyini qeyd edib, ölkəmizdə onun irsinin öyrənilməsi, təbliği və nəşri istiqamətində görülən işlərdən danışıb. O bildirib ki, Fəraqi Azərbaycan-Türkmənistan ədəbi əlaqələrinin inkişafında mühüm rol oynayıb. Şair Azərbaycanda olub, "Yaylaqları var" adlı şeirində ölkəmizin insanını, təbiətini və gözəlliklərini vəsf edib.

Tədbirdə çıxış edənlər böyük türkmən şairi və görkəmli mütəfəkkir Məhtimqulu Fəraqinin ideyaları və ədəbi irsinin bu gün də xalqlar arasında körpü rolu oynadığını, onun humanizmə, xalqlar arasında mənəvi birliyə, dostuq və qardaşlığa çağırış motivlərinin aktuallığı ilə seçildiyini vurğulayıblar.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 305** **QƏRAR** **Bakı şəhəri, 20 iyun 2024-cü il**

## "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Müəyyən edilsin ki, Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi fəaliyyətə başlayanadək "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulması Qaydası"nda həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən yaradılmış informasiya sistemi, habelə birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

3. "İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 275 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1009 (Cild I) ləğv edilsin.

4. Bu Qərar "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 3-cü hissəsində nəzərdə tutulmuş tariflərlə eyni gündə qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 308** **QƏRAR** **Bakı şəhəri, 21 iyun 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 avqust tarixli 272 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin strukturu"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 avqust tarixli 272 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 961 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin strukturu"na aşağıdakı məzmunda 5-9-cu hissələr əlavə edilsin:

"5. "AZTV".
6. "Mədəniyyət TV".
7. "İdman TV".
8. "Azərbaycan Radiosu".
9. "Azərbaycan Beynəlxalq Radiosu"."

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 309** **QƏRAR** **Bakı şəhəri, 21 iyun 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1252 (Cild I) ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. 7-ci sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 7. | 2341<br>23.42.10 | Təsərrüfat və dekorativ saxsı məmulatlarının istehsalı<br>Saxsı santexnika məmulatlarının istehsalı |

1.2. aşağıdakı məzmunda 15-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 15. | | Müasir suvarma sistemlərinin tətbiq edildiyi ərazisi 5 hektardan az olmayan istixana təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının yetişdirilməsi |

2. 3-cü hissəyə aşağıdakı məzmunda 262-1-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 262-1. | 6406 | Ayaqqabı detalları (bərkidilmiş və ya bərkidilməmiş əsas içlikli ayaqqabı üstünün biçilmiş üzləri daxil olmaqla); qoyulma içliklər, dabanlıqlar və analoji məmulatlar; getrlər, qamaşlar və analoji məmulatlar və onların detalları |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 310** **QƏRAR** **Bakı şəhəri, 21 iyun 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun və "Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2432 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 56 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 aprel tarixli 187 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissə üzrə:

1.1. 3.1.1.1-ci yarımbənddə "icazənin surəti" sözləri "icazə" sözü ilə, 3.1.1.2-ci yarımbənddə "sənədin surəti" sözləri "sənəd" sözü ilə, 3.1.1.5-ci yarımbənddə "situasiya" sözü "tikinti ərazisinin baş" sözləri ilə əvəz edilsin;

1.2. 3.1.5-ci yarımbənddə "bölmələrinin surəti" sözləri "bölmələri" sözü ilə əvəz edilsin.

2. 4-cü hissə üzrə:

2.1. 4.1-ci bənddən "kağız üzərində və" sözləri çıxarılsın;

2.2. 4.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.2. Tikintiyə icazə verildikdə bu Qaydaların 3.1.1-ci yarımbəndində nəzərdə tutulmuş məlumatlar Reyestrə ötürülür, həmin məlumatlar Reyestrdə qeydə alınaraq tikinti obyektinə kod verilir və bu barədə bu Qaydaların əlavəsində göstərilən Şəhadətnamə tikintiyə icazə verən orqana (quruma) göndərilir.";

2.3. 4.2-1-ci bəndin birinci cümləsində "cümləsi ilə müəyyən edilən müddətlər bitdiyi gündən 3 iş günü ərzində tikinti obyektlərinin tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrini Reyestrə təqdim edir" sözləri "cümləsinə əsasən 10 gün müddətində layihəyə dair iradın sifarişçiyə təqdim edilməməsi ilə bağlı tikinti işlərinə başlamaq hüququ yarandıqda, bu barədə məlumatın Reyestrə ötürülməsini təmin edir" sözləri ilə əvəz edilsin;

2.4. 4.2-2-ci bəndin birinci cümləsindən "və ya bilavasitə təqdim edir" sözləri, ikinci cümləsindən "sifarişli poçt göndərişi ilə" və "və ya bilavasitə təqdim edə" sözləri çıxarılsın;

2.5. 4.5-ci bənd ləğv edilsin;

2.6. 4.6.4-cü yarımbəndin birinci abzasında "Reyestr kitabında" sözləri və üçüncü abzasında "reyestr kitabında" sözləri "Reyestrdə" sözü ilə əvəz edilsin;

2.7. 4.8-ci bənddə "təqdim edirlər" sözləri "Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürürlər" sözləri ilə əvəz edilsin və həmin bəndin ikinci cümləsi çıxarılsın;

2.8. aşağıdakı məzmunda 4.9-cu bənd əlavə edilsin:

"4.9. Bu Qaydaların 3.1.1-ci, 3.1.2-ci yarımbəndlərində, 4.2-ci, 4.3-cü və 4.7-ci bəndlərində nəzərdə tutulmuş məlumatların ötürülməsi şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.".

3. "Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qayda-ları"nın əlavəsindən "Müəssisənin (təşkilatın) rəhbəri", "(imzası adı və soyadı)" və "M.Y." hissələri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 306** **QƏRAR** **Bakı şəhəri, 20 iyun 2024-cü il**

## "Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 500 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1601 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin Siyahısı" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin SİYAHISI

1. Hərəkətlilik üçün reabilitasiya vasitələri
1.1. Yuxarı ətraf protezləri:
1.1.1. şin-dəri və ya modul tipli yuxarı ətraf protezi;
1.1.2. yüksək texnologiyalı yuxarı ətraf protezi (elektron komplektləşdiricilərdən istifadə olunmaqla);
1.1.3. yüksək texnologiyalı yuxarı ətraf protezi (elektron komplektləşdiricilərdən istifadə olunmamaqla);
1.1.4. yuxarı ətraf işçi protezi;
1.1.5. kosmetik yuxarı ətraf protezi;
1.1.6. yuxarı ətraf üçün ehtiyat protezləri.
1.2. Yuxarı ətraf protezləri üçün əlavələr:
1.2.1. yuxarı ətraf protezləri üçün kosmetik üzlüklər;
1.2.2. yuxarı ətraf protezləri üçün silikon içlik;
1.2.3. yuxarı ətraf protezlərini geyinmək üçün köməkçi vasitə;
1.2.4. rezin yanlıqlı ayaqqabı;
1.2.5. taxma ucluq - maqqaş;
1.2.6. taxma ucluq - mişar dəstəyi;
1.2.7. taxma ucluq - ikiqat halqa;
1.2.8. taxma ucluq - çəkic;
1.2.9. taxma ucluq - iskənə;
1.2.10. taxma ucluq - qələm;
1.2.11. taxma ucluq - qarmaq;
1.2.12. taxma ucluq - kerner;
1.2.13. taxma ucluq - mişar üçün;
1.2.14. taxma ucluq - qayçı;
1.2.15. taxma ucluq - məngənə;
1.2.16. taxma ucluq - universal sıxac;
1.2.17. taxma ucluq - açar dəsti üçün;
1.2.18. taxma ucluq - ütü üçün;
1.2.19. elastik bint.
1.3. Aşağı ətraf protezləri:
1.3.1. şin-dəri və ya modul tipli aşağı ətraf protezi;
1.3.2. yüksək texnologiyalı aşağı ətraf protezi (elektron komplektləşdiricilərdən istifadə olunmaqla);
1.3.3. yüksək texnologiyalı aşağı ətraf protezi (elektron komplektləşdiricilərdən istifadə olunmamaqla);
1.3.4. pəncə protezi;
1.3.5. aşağı ətraf üçün ehtiyat protezləri.
1.4. Aşağı ətraf protezləri üçün əlavələr:
1.4.1. bud üçün corab (xovlu, yun, pambıq, neylon və s.);
1.4.2. baldır üçün corab (xovlu, yun, pambıq, neylon və s.);
1.4.3. aşağı ətraf protezləri üçün silikon içlik;
1.4.4. dermo corab;
1.4.5. aşağı ətraf protezləri üçün kosmetik üzlüklər;
1.4.6. elastik bint;
1.4.7. bud protezi üçün bandaj;
1.4.8. baldır protezi üçün bandaj;
1.4.9. aşağı ətraf protezlərini geyinmək üçün köməkçi vasitə;
1.4.10. protez üçün ayaqqabı.
1.5. Ortopedik ayaqqabılar:
1.5.1. sadə və ya mürəkkəb ortopedik ayaqqabı;
1.5.2. ortopedik başmaq.
1.6. Ortopedik ayaqqabılar üçün əlavələr:
1.6.1. ortopedik ayaqqabılar üçün korreksiyaedici içlik-supinator;
1.6.2. rtopedik ayaqqabılar üçün korreksiyaedici içlik-pronator;
1.6.3. tvister.
1.7. Baş ortezləri:
1.7.1. baş ortezi (obturator).
1.8. Onurğa üçün ortezlər (korsetlər):
1.8.1. sərt korset (bədən, boyun üçün);
1.8.2. korreksiyaedici bandaj, yumşaq korset;
1.8.3. reklinator.
1.9. Yuxarı ətraf ortezləri:
1.9.1. şin-dəri, polimer və ya sintetik qatran tərkibli yuxarı ətraf üçün ortopedik aparat;
1.9.2. karbonla hazırlanan yuxarı ətraflar üçün ortopedik aparat;
1.9.3. yuxarı ətraf üçün bandaj;
1.9.4. yuxarı ətraf tutoru.
1.10. Aşağı ətraf ortezləri:
1.10.1. şin-dəri, polimer və ya sintetik qatran tərkibli aşağı ətraf üçün ortopedik aparat;
1.10.2. karbonla hazırlanan aşağı ətraflar üçün ortopedik aparat;
1.10.3. yüksək texnologiyalı aşağı ətraf üçün ortopedik aparat (elektron komplektləşdiricilərdən istifadə olunmaqla);
1.10.4. aşağı ətraf üçün bandaj;
1.10.5. aşağı ətraf tutoru.
1.11. Təkərli oturacaqlar:
1.11.1. universal mühərrikli təkərli oturacaq;
1.11.2. əlavə fiksasiyası (dəstəkləyici) olan mühərrikli təkərli oturacaq;
1.11.3. qapalı məkanda (otaqda) istifadə üçün universal mexaniki təkərli oturacaq;
1.11.4. əlavə fiksasiyası (dəstəkləyici) olan qapalı məkanda (otaqda) istifadə üçün mexaniki təkərli oturacaq;
1.11.5. açıq məkanda istifadə üçün universal mexaniki təkərli oturacaq;
1.11.6. əlavə fiksasiyası (dəstəkləyici) olan açıq məkanda istifadə üçün mexaniki təkərli oturacaq;
1.11.7. sanitar-təchizatlı təkərli oturacaq.
1.12. Təkərli oturacaqlar üçün əlavələr:
1.12.1. təkərli oturacağın təkan çarxının üzlüyü;
1.12.2. mühərrikli təkərli oturacaqların akkumulyatoru;
1.12.3. isti örtük.
1.13. Əsalar və qoltuqaltı/dirsəkaltı ağaclar:
1.13.1. əsa (təkdayaqlı);
1.13.2. əsa (çoxdayaqlı);
1.13.3. qoltuqaltı ağac (təkdayaqlı);
1.13.4. qoltuqaltı ağac (çoxdayaqlı);
1.13.5. dirsəkaltı ağac (təkdayaqlı);
1.13.6. dirsəkaltı ağac (çoxdayaqlı).
1.14. Əsalar və qoltuqaltı/dirsəkaltı ağaclar üçün əlavələr:
1.14.1. əsalar, qoltuqaltılar, dirsəkaltılar və dördayaqlı hərəkət çərçivəsi üçün rezin ucluq.
1.15. Digər hərəkət vasitələri:
1.15.1. şaquli, tənzimlənən çərçivə (statik vertikalizator);
1.15.2. dördayaqlı dayaq hərəkət çərçivəsi/vasitəsi (volker);
1.15.3. gəzinti üçün təkərli hərəkət vasitəsi (rollator);
1.15.4. hərəkətli qaldırıcı qurğu;
1.15.5. ayaq əyriliyi breketləri;
1.15.6. yıxılma detektorları;
1.15.7. çarpayı üçün dayaqlar.
1.16. Mühəccərlər/Tutacaqlar:
1.16.1. vanna otağı üçün mühəccər/tutacaq;
1.16.2. tualet otağı üçün mühəccər/tutacaq;
1.16.3. daşına bilən panduslar.
2. Özünəqulluq üçün reabilitasiya vasitələri.
2.1. Duş/hamam otağı üçün stul və ya kətil.
2.2. Tualet kreslosu.
2.3. Hopdurucu bez.
2.4. Hopdurucu mələfə.
2.5. Kolostoma torbası.
2.6. Urestoma torbası.
2.7. Kateterlər.
2.8. Tənzimlənən çarpayılar.
2.9. Süd vəzi protezi.
2.10. Ortopedik döşəkçə.
2.11. Ortopedik döşək.
2.12. Ortopedik yastıq.
2.13. Kompression və ya venoz corab.
2.14. Kompression və ya venoz kalqotka.
2.15. Kompression və ya venoz qolfi.
2.16. Geyinmə, soyunma və tutmaq üçün köməkçi vasitələr.
2.17. Tutacaq (kiçik əşyaları götürmək üçün).
2.18. Özünəqulluq üçün reabilitasiya vasitələrinin əlavələri:
2.18.1. yapışqantəmizləyən salfet;
2.18.2. yapışqantəmizləyən sprey;
2.18.3. krem;
2.18.4. absorbsiya tozu;
2.18.5. iyi neytrallaşdıran sprey;
2.18.6. təmizləyici salfet;
2.18.7. süd vəzi büsthalteri.
3. Görmə üçün reabilitasiya vasitələri
3.1. Brayl vasitələri:
3.1.1. Brayl əlifbası ilə yazılmış saat;
3.1.2. Brayl sistemi ilə yazı üçün cihaz.
3.2. Brayl sistemi ilə yazı cihazı üçün əlavələr:
3.2.1. Brayl sistemi ilə yazı üçün daş qələm (qrifel);
3.2.2. qabarıq-nöqtəli şriftlərlə yazı üçün kağız;
3.2.3. Brayl əlifbası;
3.2.4. Brayl əlifbası lövhəsi.
3.3. Görmə üçün digər reabilitasiya vasitələri:
3.3.1. optik böyüdücülər (lupalar daxil);
3.3.2. ekran oxuyucuları (skrinriderlər);
3.3.3. danışan kitab;
3.3.4. səsli tonometr;
3.3.5. səsli termometr;
3.3.6. ağ əsa.
4. Eşitmə üçün reabilitasiya vasitələri
4.1. Eşitmə aparatları:
4.1.1. eşitmə aparatı.
4.2. Eşitmə aparatı üçün əlavələr:
4.2.1. eşitmə aparatı üçün batareyalar;
4.2.2. eşitmə aparatı üçün qulaqlıq.
4.3. Eşitmə üçün digər reabilitasiya vasitələri:
4.3.1. eşitmə cihazı/FM sistemləri;
4.3.2. işıq/səs/vibrasiya ilə həyəcan siqnal cihazı.
5. Ünsiyyət üçün reabilitasiya vasitələri
5.1. ünsiyyət lövhələri/kitabları/kartları;
5.2. fərdi həyəcan-siqnalizasiya sistemləri;
5.3. səs protezi (səs aparatı).
6. Digər reabilitasiya vasitələri
6.1. minik avtomobili.



# Böyük tarixdən başlanan Zəfər yolu

## 1993-cü il 24 iyun tarixi Azərbaycanın dövlətçilik salnaməsinin şərəfli səhifələrindəndir

**Ulu Öndər Heydər Əliyevin həyat yolu xalqımızın milli tarixi yaddaşının böyük bir mərhələsini təşkil edir. Bu dahi şəxsiyyət məzmunca bir-birindən xeyli fərqlənən iki dövrdə Azərbaycana rəhbərlik etmiş, fərqli şəraitə, zamanın bir-birinə bənzəməyən çağırışlarına rəğmən vətəninin inkişafı üçün mövcud imkanları maksimum reallaşdıra bilmişdir.**

Ümummilli Lider gələcəklə bağlı aydın, məqsədyönlü strategiyalar müəyyənləşdirə, xalqın potensialını böyük məqsədlərə doğru səfərbər edə bilirdi. Vəziyyətləri idarə etmək ustalığı, xalqın, dövlətin maraqlarını bütün ağır şəraitlərdə qorumaq əzmi, ən doğru qərarları vermək fəhmi, insanlara təsir gücü, nüfuzu, qətiyyəti, mətinliyi, məqsədyönlülüyü Heydər Əliyev böyüklüyünün ayrı-ayrı cəhətləridir.

Ulu Öndər müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi, iqtisadi əsaslarını yaratmışdır. Azərbaycan xalqının müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmişdir. Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısındakı ən mühüm xidmətlərindən biri də azərbaycançılıq düşüncəsini bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gətirməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevirməsidir.

Heydər Əliyev nəcib əməlləri ilə adını tarixə əbədi həkk etmiş, bu fenomenal şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illər mahiyyət, etibarilə intibah, milli tərəqqi, oyanış, nəhayət, müstəqil dövlət quruculuğu mərhələsinə çevrilmişdir. Böyük şəxsiyyətin fəaliyyətinin xalqımıza və ümumən bəşəriyyətə bəxş etdiyi çox mühüm nəticələri, parlaq nailiyyətləri var. Bunlardan ən mühümü, təbii ki, Ümummilli Liderin qurub-yaradaraq aydın inkişaf yoluna çıxardığı, bu gün isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünə gəlib çatmış müstəqil dövlətimizdir.

Belə deyirlər ki, tarixi şansa, milli iradəyə və liderə malik olmaq - bunlar hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün üç əsas şərtdir. Keçmişə nəzər salsaq, bu üç şərtin hər birinin Ulu Öndər Heydər Əliyevin şəxsiyyəti işığında bir araya gəldiyini görürük. Azərbaycan xalqının ötən əsrin əvvəllərində Cümhuriyyətin süqutundan sonra itirdiyi müstəqillik nemətini əsrin sonunda yenidən əldə etməsi üçün tarixi şəraitin yetişməsində, milli iradənin formalaşmasında Heydər Əliyev amilinin rolu danılmazdır. Ümummilli Lider hələ sovet Azərbaycanına rəhbərliyi dövründə cəmiyyətimizdə milli şüurun oyanışına nail olmuş, misilsiz fədakarlıq hesabına gələcək siyasi, iqtisadi, mədəni müstəqillik üçün zəngin potensial formalaşdırmışdı.

### Tarixdə qalan daha bir gün

Malik olduğu ali şəxsiyyət meyarları, Azərbaycan xalqının və dövlətinin taleyində oynadığı müstəsna rol Heydər Əliyevin həyatı ilə bağlı müxtəlif əlamətdar günləri tariximizə əbədi həkk etmişdir. Bu günlər, tarixlər müstəqil Azərbaycanın dövlətçilik salnaməsinin şərəfli səhifələridir. Heydər Əliyevin ömür yolu böyük bir məktəbdir. Onun həyatının hər günü bir tarixdir, çünki bu günlər Azərbaycan üçün yaşanıb və ümumilikdə Azərbaycanın milli dövlətçilik tarixi ilə bütünləşib. Bu tarixdə 24 iyun 1993-cü il gününün də xüsusi yeri var. Həmin gün Ali Sovet Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərinin Ulu Öndər Heydər Əliyevə verilməsi barədə qərar çıxarmış, beləliklə, Ümummilli Lider xalqımız və dövlətimiz üçün çox çətin, sınaqlarla dolu məqamda ölkənin taleyinə görə məsuliyyəti öz üzərinə götürmüşdür.

Bu, Ulu Öndərin xalqın təkidli tələbi ilə 15 iyun 1993-cü ildə Azərbaycanın ali rəhbərliyinə qayıdışı ilə başlanan milli qurtuluş prosesinin məntiqi davamı idi. Bütün bunlar baş verməsəydi, Heydər Əliyev xilaskar missiyasını öz üzərinə götürməsəydi, nələr olardı, ümumiyyətlə, bu gün müstəqil Azərbaycan dövlətinin indiki sərhədlər hüdudunda mövcudluğu qalardımı, bu, tarixin cavabsız suallarındandır. Fakt budur ki, 1993-cü ilin 15 iyununa kimi Azərbaycanda baş verən ictimai-siyasi proseslər respublikanı böhran vəziyyətinə, parçalanmaq səviyyəsinə və müstəqilliyin itirilməsi həddinə gətirib çıxarmışdı. Ötən əsrin 80-ci illərinin ikinci yarısında keçmiş SSRİ-də hakimiyyət başına gələn M.S.Qorbaçovun Azərbaycana, xalqımıza, Ümummilli Lider Heydər Əliyevə düşmən münasibəti ağır nəticələrə səbəb olmuşdu. Ulu Öndərin keçmiş SSRİ rəhbərliyindəki ali vəzifələrində istefaya göndərilməsini fürsət bilən Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı genişlənmişdi. Xalqımızın gözünü qorxutmaq, milli istiqlal mübarizəsindən çəkindirmək üçün sovet ordusunun Bakıda və respublikamızın müxtəlif regionlarında həyata keçirdiyi əməliyyat nəticəsində yüzdən çox vətəndaşımızın qətli ilə nəticələnən 20 Yanvar faciəsi baş vermişdi. Bundan qısa müddət sonra cəmiyyətimiz ermənilərin Xocalıda dinc azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımının dəhşətindən sarsılmışdı.

O dövrdə Azərbaycanı idarə edənlər isə proseslərin əvvəlindən qeyri-adekvat siyasət yürüdürdülər. Xalq hərəkatı dalğasından siyasətə gələn səriştəsiz şəxslərlə hakimiyyətdəki qrup arasında davam edən çəkişmələr ölkədə xaosu, anarxiyanı getdikcə gücləndirirdi.

Azərbaycanda milli azadlıq, milli istiqlaliyyət uğrunda xalq hərəkatı başlananda meydana gələrək ilk vaxtlarda kommunist rejiminə qarşı fəal mübarizə aparan və buna görə ətrafına çoxsaylı tərəfdarlar toplayan Azərbaycan Xalq Cəbhəsi getdikcə öz məram və məqsədlərindən uzaq düşürdü. Hakimiyyətə gəldikdən sonra yüksək dövlət vəzifələrinə heç bir peşəkar qabiliyyətinə, idarəçilik, dövlətçilik təcrübəsinə məhəl qoyulmadan əsasən AXC üzvləri təyin edilir, yüksək potensiala malik digər şəxslər kənarda qalır, eyni zamanda uzun illər ərzində idarəçilik sistemində zəngin təcrübə toplamış səriştəli şəxslər istefaya göndərilir, beləliklə, AXC getdikcə öz sosial bazasını itirirdi.

Ordu quruculuğu işi olduqca aşağı səviyyədə idi. Nizami ordu yaradılmamışdı. Ona görə də çox halda döyüşçülər vahid komandanlığın əmrlərinə tabe olmur, nizami ordunun tələblərinə, nizamnamə qaydalarına əməl etmirdilər. Ayrı-ayrı hərbi birləşmələr müxtəlif siyasi qrupların əlində bir-birinə qarşı təzyiq alətinə çevrilmişdi. Cəbhə bölgəsində hərbi əməliyyat planları peşəkar hərbçilər tərəfindən deyil, diletantlar, həvəskarlar tərəfindən işlənib hazırlanırdı. Fərarilik və təxribat halları da geniş miqyas almışdı və müvafiq inzibati orqanlar buna qarşı hər hansı tədbir görmək gücündə deyildi.

### Xilaskar

Azərbaycan xalqı hələ ötən əsrin 80-ci illərinin sonlarından ölkənin müstəqil dövlət kimi gələcək inkişafını böyük rəhbər Heydər Əliyevdə görürdü. İnsanlar, cəmiyyətin sağlam kəsimi bu təcrübəli dövlət adamının respublikaya qayıdıb dövlət quruculuğu proseslərində fəal iştirakını təkidlə tələb edirdilər. Lakin ölkənin nə keçmiş kommunist rəhbərləri, nə də silahlı çevriliş yolu ilə hakimiyyətə gələn AXC təmsilçiləri Heydər Əliyevin hakimiyyətdə təmsil olunmasına imkan vermək istəyirdilər. Kommunist rəhbərlərin niyyəti aydın idi: onlar Heydər Əliyevi ölkənin ali rəhbərliyindən kənarda qoymaqla mərkəzdən onlara verilmiş göstərişlərə sadiqliklərini göstərməyə çalışırdılar. Heç bir siyasi, idarəetmə təcrübəsi olmadan mitinqlərdən ali hakimiyyət kürsülərinə sürətli yol keçən təsadüfi kəslər isə Heydər Əliyevin simasında özlərinə güclü rəqib gördüklərindən bu böyük dövlət adamının siyasi proseslərdə fəal iştirakını hər vəchlə əngəlləməyə çalışırdılar. Amma səriştəsiz idarəçilik nəticəsində Azərbaycan artıq elə bir vəziyyətə gəlib çatmışdı ki, Ümummilli Lider Heydər Əliyevi ölkənin və xalqın xilasına dəvət etməkdən başqa bir yol görünmürdü.

Ölkədə sosial-iqtisadi böhran dərinləşmiş, xalqın həyat tərzi xeyli aşağı düşmüş, daxildən və xaricdən getdikcə fəallaşan təxribatçı qüvvələrin səyi nəticəsində Azərbaycanın parçalanmasına zəmin hazırlanmışdı. Ölkədə vətəndaş qarşıdurması və etnik separatizm meyilləri getdikcə güclənirdi. Azərbaycan dövlətçiliyi ciddi böhran keçirirdi. AXC-Müsavat hakimiyyəti yaranmış böhranlı vəziyyət qarşısında aciz duruma düşmüşdü. 1993-cü ilin aprelində erməni silahlı qüvvələrinin Kəlbəcər rayonunu işğal etməsi ölkədə siyasi böhranı son həddə çatdırmışdı. Müharibə gedən ölkədə soyğunçuluq, korrupsiya, banditizm gündəlik həyat tərzinə çevrilmişdi.

Belə bir durumda Azərbaycan Respublikasını dağılmaqdan, dövlətçiliyi məhv olmaqdan, ölkəni etnik prinsiplərə əsasən parçalanmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən, mənəvi-psixoloji sarsıntıdan qurtarmaq üçün xalq öz xilaskarı Heydər Əliyevə müraciət etdi. Vətəndaşlarımız bu görkəmli dövlət xadiminin ölkənin gələcəyinə görə məsuliyyəti üzərinə götürməsini təkidlə tələb edirdi. O dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışan Heydər Əliyevin görüşünə respublikanın hər yerindən nümayəndələr gəlir, eyni israrlı tələblərlə ona Azərbaycanın ən müxtəlif bölgələrindən, ünvanlarından məktublar, teleqramlar göndərilirdi.

Ümummilli Lider Azərbaycanı gözləyən faciəli aqibəti görüb xalqın səsinə səs verərək, iyunun 9-da Naxçıvandan Bakıya gəldi. 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və həmin gün tariximizə Qurtuluş Günü kimi əbədi yazıldı.

### Dövlətin müqəddəratını həll edən lider

Ulu Öndərin o çətin sınaqlar dövründə Azərbaycan rəhbərliyinə gəlişi ölkənin müqəddəratını həll etdi. Vətəndaş müharibəsinin qarşısı alındı. Torpaqlarımızın işğalı dayandırıldı. Respublikanın parçalanması təhlükəsi aradan qalxdı. İnsanlarımızda vəziyyətin tezliklə düzələcəyinə, müstəqillik yollarında ilk kövrək addımlarını atan ölkəmizin gələcəyinə inam yarandı. Xalq hakimiyyətə Heydər Əliyevi çağırmaqla ümidlərinin doğrulduğunu gördü.

Azərbaycan Respublikasının ovaxtkı prezidenti Əbülfəz Elçibəyin 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə heç kimə məlumat vermədən Bakını tərk edib Naxçıvanın Kələki kəndinə getməsi və bu addımın yaratdığı böyük çaşqınlıq onsuz da gərgin olan vəziyyəti daha da ağırladırsa belə Heydər Əliyev böyük çətinlik qarşısında yenə təmkinini itirmədən özünəməxsus siyasi təcrübə ilə beynəlxalq hüquq normalarına və Konstitusiyaya uyğun hərəkət edərək respublikada vəziyyətin normallaşdırılması, müstəqilliyin qorunması və möhkəmləndirilməsinə çalışırdı.

Azərbaycan Prezidenti öz səlahiyyətlərini icra edə bilmədiyindən Ali Sovetin 24 iyun 1993-cü il tarixli qərarı ilə prezident səlahiyyətlərinin icrası Ulu Öndər Heydər Əliyevə verildi. Ümummilli Lider Azərbaycan Respublikasının Prezidenti vəzifəsinin icrasına başladıqdan sonra 2 iyul 1993-cü il tarixli bəyanatında bildirirdi: "Azərbaycan Respublikası adından bəyan edirəm ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm və azad iqtisadiyyat yoluna davam edəcəkdir. Azərbaycan dövləti insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçiriləcəkdir. Dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalanma prinsipləri əsasında başlanmış iqtisadi əməkdaşlıq davam etdiriləcək, ayrı-ayrı xarici şirkətlərlə imzalanması nəzərdə tutulmuş bütün müqavilələrlə bağlı götürülmüş öhdəliklər sivilizasiya normaları çərçivəsində yerinə yetiriləcəkdir. Ölkəmizin daxili ictimai-siyasi vəziyyəti sabitləşdikcə həmin məsələlərlə daha fəal məşğul olmağa imkan yaranacaqdır".

### Anda sadiqlik

1993-cü il avqustun 29-da Prezident Əbülfəz Elçibəyə etimad haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdi. 1993-cü il oktyabrın 3-də keçirilən növbədənkənar prezident seçkisində isə Ümummilli Lider Heydər Əliyev xalqın mütləq dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. 10 oktyabr tarixində keçirilən andiçmə mərasimində Prezident Heydər Əliyev deyirdi: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm".

Ümummilli Lider Azərbaycanı tarixin sərt təlatümlərindən hifz edərək aydın, rəvan inkişaf yoluna çıxardı. Ölkədə demokratik-hüquqi dövlət quruculuğu proseslərinin əsası qoyuldu. Bu prosesə mane olan amillər, o cümlədən qanunsuz silahlı qruplaşmalar, dövlətçiliyi təhdid edən qüvvələr aradan qaldırıldı. İctimai-siyasi sabitlik təmin edildi. İnsan hüquq və azadlıqlarının qorunmasına, vətəndaş cəmiyyətinin qurulmasına, azadlıq və sosial məsuliyyət dəyərlərinin bərqərar olmasına doğru mühüm addımlar atıldı. Ümummilli Lider cəbhə bölgəsində atəşkəsə nail olaraq insan itkilərinin qarşısını aldı, bir tərəfdən Qarabağ münaqişəsinin sülh yolu ilə həlli imkanlarını nəzərdən keçirmək, digər tərəfdən də mövcud rersursları ölkənin sosial-iqtisadi problemlərinin həllinə, ordu quruculuğuna, lazımi islahatların aparılmasına yönəltmək üçün zaman qazanmış oldu.

### Möhkəm təməllər üzərində strateji inkişaf

Ulu Öndər Azərbaycanın yaxın onilliklərdə böyük inkişafı üçün möhkəm təməllər formalaşdırdı. Müəyyənləşdirdiyi inkişaf yolunun dönməzliyini, əbədiliyini təmin etdi. Heydər Əliyevin strateji inkişaf kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin ideyaları işığında dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə gətirib çatdırdı. Ümummilli Liderin ən mühüm vəsiyyətini yerinə yetirdi. Torpaqlarımızın işğalçılardan təmizlənməsinə, Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin bərpasına nail oldu. Şuşada, Xankəndidə bayrağımızı dalğalandırdı.

Bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan quruculuq-bərpa işləri, azad torpaqlarımızın inkişafa qovuşması, Azərbaycanın regionun lider dövləti kimi bütün dünyada getdikcə yüksələn nüfuzu, ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə gerçəkləşən qlobal layihələr Ümummilli Liderin çin olan, gerçəkləşən arzularıdır. İllər əvvəl ölkənin parlaq gələcəyini Heydər Əliyevin ideyları işığında, Ulu Öndərin müdrik zəkasında, strateq fəhmində, sarsılmaz qətiyyətində görən Azərbaycan xalqının ümid və inamının təntənəsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondunun ölkəmizdə və respublika hüdudlarından kənarda həyata keçirdiyi sosial-humanitar layihələr Ümummilli Liderin tarixə çevrilmiş ömrünün, nəcib əməllərinin davamıdır.

Yol davam edir, ümid və inam daha da möhkəmlənir, Azərbaycan gündən-günə güclənir, qüdrətlənir və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqımız, dövlətimiz tarixi nailiyyətlərini qoruyaraq yeni strateji dövrdə öz milli hədəflərinə doğru irəliləyir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın "yaşıl enerji" potensialı böyük, hədəfləri aydındır

## Prezident İlham Əliyev bunu "Euronews"a müsahibəsində bir daha vurğulayıb

**Azərbaycanın enerji siyasətinin növbəti reallığı "yaşıl enerji"nin inkişafı ilə bağlıdır. Belə ki, dünyada neft-qaz diyarı kimi tanınan ölkəmiz zəngin alternativ enerji resurslarına da malikdir.**

Bərpaolunan enerji istehsalı siyasətinin strateji əsasını dövlət tərəfindən müəyyənləşdirilən və 2021-ci ilin fevralında qəbul olunan "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" təşkil edir. Beş milli prioritetdən biri - təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioriteti qarşıya yeni hədəflər qoyur.

Bununla yanaşı, "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 faiz, 2030-cu ilədək isə 30 faizə çatdırılması nəzərdə tutulur.

İndi bu hədəflərə doğru inamla irəliləyirik. Keçən il oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyasının müvəffəqiyyətlə istismara daxil olması sözügedən istiqamətdə uğurlu start götürüldüyünə bariz misaldır. "Qaradağ" Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye-miqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə birgə tikilməkdə olan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası da xüsusi əhəmiyyət daşıyır. Stansiyanın təməli 2022-ci il yanvarın 13-də Xızı rayonunun ərazisində qoyulub. Bu, ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən ilk sənaye həcmli bərpaolunan enerji layihəsidir. Eyni zamanda stansiya Azərbaycanda ən böyük külək enerji stansiyası olacaq. "Xızı-Abşeron" stansiyasında ildə 1 milyard kilovat/saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır ki, bu da təxminən 300 min evin elektrik enerjisi ilə təmin edilməsi deməkdir.

Növbədə Cəbrayıl rayonunda BP ilə tikiləcək "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməlinin qoyulmasıdır. Bu enerji obyektinin bir önəmi də ondan ibarətdir ki, işğaldan azad olunmuş ərazilərimizdə tikiləcək. Məlumdur ki, Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsindəki Zəfərdən az sonra bu əraziləri - 10 min kvadratkilometr sahəni "yaşıl enerji" zonası elan edib. Odur ki, "Şəfəq"in tikintisi həm bu məqsədin gerçəkləşməsində əhəmiyyətli rol oynayacaq, həm də ümumən Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm quruculuğun bir hissəsinə çevriləcək.

Dövlətimizin başçısı eləcə də Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji" zonası elan edib. İndi bu diyarın da həmin sahədəki potensialından səmərəli istifadə olunması üçün geniş perspektivlər açılır. Konkret olaraq Naxçıvan MR-in 5 QVt "yaşıl enerji" mənbələri potensialı ilə enerjinin bu növünün ixracatçısına çevrilməsi də hədəflənib.

Bu istiqamətdə Azərbaycan-Türkiyə Enerji Forumu möhkəm platforma təşkil edir. İlk dəfə 2021-ci ildə Bakıda təşkil olunan bu forum iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıyır. Əsasən "yaşıl enerji" konsepsiyası çərçivəsində formalaşdırılan platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini qarşıya qoyur. Növbəti dəfə - 2022-ci ildə Türkiyədə keçirilən foruma üçüncü dəfə keçən ilin payızında Naxçıvan evsahibliyi etdi. Bu mühüm tədbir regionun "yaşıl enerji" mənbələrini bir daha təhlil etmək, qarşılıqlı əməkdaşlıq imkanlarının genişləndirilməsinə nail olmaq baxımından böyük rol oynayır.



"Bu, yalnız başlanğıcdır". Prezident İlham Əliyev bu ayın əvvəlində Bakı Enerji Həftəsi keçirilən zaman "Euronews" televiziyasına müsahibəsində belə deyib. "Masdar"la birgə görüləcək işlər barədə bildirilib ki, həmin gün ümumi gücü 1 qiqavat olan üç günəş və külək enerjisi stansiyalarının təməlqoyma mərasimləri keçirilib.

"Biz orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırırıq. Hədəfimiz belədir. Potensial var. Siz günəşi, istəyimizi və o cümlədən küləyi görə bilərsiniz. Yaxşı sərmayə mühiti var. Bu, həqiqətən göstərir ki, ölkə ənənəvi enerjidən əldə etdiyi gəlirləri hazırda bərpaolunan enerjiyə yönəldir. COP29-a evsahibliyi edəcək ölkə kimi "yaşıl enerji"yə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir", - deyə dövlətimizin başçısı sahədəki prioritetləri açıqlayıb.

O da təbiidir ki, hər yeni iş qeyri-müəyyənliklərlə dolu olur. "Yaşıl enerji"yə keçidin də öz çətinlikləri var. Prezident İlham Əliyev bu sahədə tərəfdaşlarımıza da güvəndiyimizi bildirib: "Masdar" strateji tərəfdaşdır. Həmçinin "ACWA Power" var. Daha sonra BP sərmayədarlarımız sırasındadır və bizimlə işləməyi planlaşdıran digər ölkələrin bir çox şirkəti var. Bir sözlə, biz neft və qaz sahəsində hər şeyi başdan-ayağa bilirik. Burada isə biz təzə başlayırıq. Çətinliklərə gəldikdə, bu, milli enerji şəbəkəsi ilə bağlıdır, çünki biz onu gücləndirməliyik ki, sərmayədarların verdiyi mümkün qədər çox enerjini qəbul edə bilsin. Digər çətinlik ötürülmə xətləri ilə bağlıdır, çünki bu halda biz öz qonşularımızla fəal çalışmalıyıq. Azərbaycanın özünə planlaşdırdığımız qədər bərpaolunan enerji lazım deyil və bu səbəbdən hədəfimiz ixracdır".

Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir . Elektrik enerjisi maksimum istehsal edilməli və təbii qaza qənaət olunmalıdır. Çünki indi Azərbaycan qazına tələbat böyükdür.

"Yalnız daxili gündəliyimizdən asılı olan və həll edilməli bir çox məsələlər şübhə etmirəm ki, tam reallaşacaq. Lakin beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri biz tərəfdaşlarımızla həll etməliyik." "Euronews" televiziyasına müsahibəsində dövlətimizin başçısı bunu da vurğulamışdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür

# Azərbaycanda dövlət idarəçiliyi: qlobal uğurlara aparan strategiya

**Sürətlə inkişaf edən Azərbaycanın beynəlxalq aləmdə öz nüfuzunu möhkəmləndirməsi Ümummilli Lider Heydər Əliyevin dövlət idarəetmə sistemində həyata keçirdiyi islahatlardan başlayıb. Prezident İlham Əliyevin bu islahatları qətiyyətlə davam etdirməsi sayəsində isə ölkəmizin qüdrəti gündən-günə artmaqdadır. Hazırda ölkəmizdə müasir tələblərə cavab verən dövlət idarəetmə sistemi qurulub, hakimiyyətin bütün qollarının funksiyaları dəqiq müəyyənləşdirilib, vətəndaşların hüquq və azadlıqlarının qorunması və həyata keçirilməsi üçün zəruri təsisatlar yaradılıb.**

2024-cü ilin noyabrında Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası keçiriləcək. Azərbaycanın dünyanın ən böyük və mötəbər tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi Prezident İlham Əliyevin növbəti qlobal qələbəsidir. Dünya İqtisadi Forumu tərəfindən 2023-cü ilin oktyabr ayında Cenevrədə dərc edilən və iqlim dəyişiklikləri ilə əlaqədar hesabata əsasən, Azərbaycan Respublikasının Enerji Keçid İndeksi 62-dir və iqlim dəyişmələri üçün əhəmiyyətli olan bu göstərici ilə ölkəmiz dünyada 32-ci yerdədir. Bu nəticə ilə ölkəmiz iqtisadi inkişafda yüksək göstəricilər əldə etmiş bir çox dövləti, o cümlədən "Böyük yeddilik (G 7) qrupuna, Avropa İttifaqına, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına aid olan bir sıra ölkələri geridə qoyub. Bu nailiyyətlər həm də COP29-un Azərbaycanda keçirilməsini şərtləndirib.

Məlum olduğu kimi, Prezident İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. Heç şübhəsiz ki, indiyədək ölkəmizin dəf etdiyi digər hədəflər kimi, bu məqsədə də yüksək səmərəliliklə həyata keçirilən dövlət idarəçilik texnologiyaları sayəsində çatacağıq.

Qeyd etmək lazımdır ki, əhəmiyyətli neft və qaz ehtiyatlarına malik Azərbaycan enerji portfelini şaxələndirmək və davamlılığı gözləmək zərurətini qəbul edir. Onun əsas beş milli prioritet arasında təmiz ətraf mühitə nail olmaq və "yaşıl inkişafı" təşviq etmək öhdəliyi var. Bu öhdəlik iqlim sahəsində fəaliyyəti və davamlı inkişaf naminə qlobal imperativlərə uyğunlaşmaq istiqamətində şüurlu səyləri əks etdirir. COP29-un əhəmiyyəti isə texnoloji mübadilə və innovasiyaları əhatə edən siyasətin uyğunlaşdırılması prizmasından kənara çıxır. Bu qlobal forumda əməkdaşlıq Azərbaycana təkcə ekoloji problemləri həll etmək deyil, həm də özünü müasir innovasiyalara və rəqabətqabiliyyətli insan potensialının inkişafına töhfə verən ölkə kimi göstərmək imkanı verir. COP29-un Bakıda keçirilməsinə qərar verilməsi ölkəmizin bu statusunun qlobal miqyasda tanınmasının, siyasi və iqtisadi nüfuzunun, alternativ enerji istehsalı sahəsində zəngin potensiala malik olmasının göstəricisidir.

Təbii ki, qazanılan bu və digər tərəqqiyə yol açan uğurların əsasında Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş və Prezident İlham Əliyevin yaradıcılıqla təkmilləşdirilmiş və yeni səviyyəyə qaldırılmış inkişaf strategiyası durur. Güclü liderlik, qlobal düşüncə bacarığı, yüksək intellekt, mükəmməl diplomatik qabiliyyət, effektiv və məqsədyönlü yorulmaz fəaliyyəti ilə Azərbaycanı qlobal miqyasda ön sıralara çıxarmış, səmimiyyət və yüksək kommunikasiya qabiliyyəti, münasibətlərdə məntiqli ardıcıllıq və etibarlılıq kimi şəxsi keyfiyyətləri ilə özünü beynəlxalq təşkilatlar və dünya liderləri tərəfindən etibarlı tərəfdaş kimi qəbul etdirən Prezident İlham Əliyev həm də səmərəli, müasir dövlət qulluğu sistemi qurmağa müvəffəq olmuşdur. Bu gün Prezident İlham Əliyevin ölkədə gerçəkləşdirdiyi yeni dövlət idarəçiliyi texnologiyaları sayəsində "sözümüz imzamız qədər keçərlidir" sözləri ölkənin həyata keçirdiyi real siyasəti və onun nəticələrini təsdiqləyən prinsipə çevrilib.

İnnovativ idarəçilik texnologiyalarının nə dərəcədə uğurlu olmasının ən parlaq təzahürü kimi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbə göstərilə bilər. Bu tarixi zəfər nəticəsində 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında saxlanılan torpaqlar azad edildi, ölkənin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü bərpa olundu. Bununla həm də BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsini tələb edən və illərlə kağız üzərində qalan 4 qətnaməsi yerinə yetirilmiş oldu.

Tarix baxımından qısa müddətdə qazanılmış bu qələbə Prezident İlham Əliyev tərəfindən müasir elmə əsaslanan yeni dövlət idarəçilik texnologiyalarının işlənilməsi və tətbiqi nəticəsində qazanılmışdır. Müasir, qabaqlayıcı tələblərə cavab verən və daim təkmilləşən dövlət qulluğu sisteminin təşkili, fasiləsiz təhsil şəraitində səmərəli fəaliyyət göstərən kadr potensialının formalaşdırılması bu texnologiyaların vacib bir istiqamətidir. Bunlar eyni zamanda işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin böyük sürətlə və ən yüksək müasir standartlar nəzərə alınmaqla həyata keçirilməsini şərtləndirmişdir. Yaranmış vəziyyət həm innovativ idarəetmə texnologiyalarının, həm də ən müasir istehsalat proseslərinin tətbiqi nəticəsində baş verir. Bu fəaliyyətlərin əsasında isə müvafiq bilik və bacarığa malik olan insan potensialının formalaşması və idarə edilməsi durur.

Dövlət idarəçiliyi sahəsində müasir və daimi yenilənən bilik və bacarığa malik olan kadr potensialının formalaşdırılması və optimal idarəedilməsi, bu sahədə elmi araşdırmaların aparılması məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1999-cu ildə imzaladığı fərman əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası təsis edildi. Bu yeni təhsil və elm mərkəzinə dövlət qulluğu üçün kadrların hazırlanması və təkmilləşdirilməsi, daim baş verən dəyişikliklər şəraitində dövlət idarəçiliyi sisteminin modernləşdirilməsinə dair tövsiyələrin işlənməsi sahəsində aparıcı elm, təhsil və informasiya mərkəzi statusu verildi.

Dövlət idarəçiliyi və dövlət qulluğu sahələrində innovativ islahatlar aparan Prezident İlham Əliyevin 2014-cü və 2017-ci illərə aid sərəncamları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının ölkənin bu sahədə aparıcı təhsil, elmi-analitik və informasiya mərkəzi kimi mövcud statusu xeyli genişləndirildi. Bu, bütövlükdə gözlənilən idi: 2003-cü ildə Prezident İlham Əliyev Cenevrədə 175 ölkənin iştirakı ilə keçirilən Dünya Sammitində ölkənin inkişaf konsepsiyasının əsasında "qara qızıl"ın insan potensialının inkişafına və bu potensialın iqtisadiyyatda insan kapitalına çevrilməsi konsepsiyasının durduğunu bəyan etmişdi.

Dövlət idarəçiliyi sahəsində fəaliyyətin səmərəliliyi yalnız dövlət qulluqçuları, dövlət qulluğunun müxtəlif sahələrində çalışanlar, dövlətin digər işçilərinin hazırlıq səviyyəsindən asılı deyil. Həmin qrupa aid olan heyətin, qərar qəbul və icra edənlərin bilik və bacarığı davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşmasının vacib şərti olsa da, bu istiqamətdə yüksək nailiyyətlərin əldə edilməsi baxımından təhsil sisteminin digər səviyyələrində də müvafiq tədris proqramlarının işlənilməsi və tətbiq edilməsi olduqca əhəmiyyətlidir. Eyni zamanda davamlı inkişaf edən inklüziv cəmiyyətin qurulması bu sahədə əhalinin bu innovativ dəyişikliklərə hazır olmasını və deməli, daim məlumatlandırılmasını tələb edir.

Prezident İlham Əliyevin dövlət idarəçiliyində tətbiq etdiyi innovativ texnologiyalar və bu yanaşmanın tələblərini təmin etmək məqsədi ilə Dövlət İdarəçilik Akademiyasında təhsil və təlimlər kompleks şəklində həyata keçirilir. Dövlət idarəçiliyi sahəsində insan potensialının formalaşması və inkişaf prosesi üçün müvafiq mühitin yaradılmasını nəzərdə tutan kompleksin mərkəzində Prezident İlham Əliyevin müəyyənləşdirdiyi hədəflərin və tətbiq etdiyi yeni idarəçilik texnologiyalarının elmi əsaslandırılması dayanır. Təkcə 2023-cü il və 2024-cü ilin birinci yarısında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 5000-dən çox dövlət qulluqçusu təlim və yenidən hazırlıq keçmişdir ki, bu da dövlət başçısının 30 oktyabr 2018-ci il sərəncamı ilə təsdiqlədiyi "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda nəzərdə tutulduğundan çoxdur. O da qeyd edilməlidir ki, dövlət qulluqçularının təlim, tədris prosesi dövlət başçısı tərəfindən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyən etdiyi beş milli prioritetin reallaşdırılmasından irəli gələn öhdəliklərin icrası və qarşıda duran məqsədlərin təmin olunmasına dəstək istiqamətində qurulub.



Əslində, dövlət qulluğu sisteminin təşkili, dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin qiymətləndirilməsi müxtəlif yanaşmalar əsasında həyata keçirilir. Azərbaycanda bu prosesin təşkilinə daha müasir yanaşma ortaya qoyulub. Burada dövlət qulluğu sistemi, dövlət qulluqçularının fəaliyyət səmərəliliyi ölkənin iqtisadi, sosial və humanitar, həmçinin təhlükəsizliyinin təmini sahələrində əldə etdiyi son nəticələrə görə dəyərləndirilir.

Beynəlxalq təşkilatların hesabatlarına görə, bu gün Azərbaycan iqtisadi, sosial və humanitar inkişaf və təhlükəsizliyin təmini naminə maddi və insan resurslarından ən səmərəli istifadə sahəsində dünya lideridir. Bəllidir ki, hazırda dünya turbulentlik, sosial, iqtisadi və siyasi inkişafın qeyri-müəyyənliyi dönəmini yaşayır. Miqyaslı çağırışların dəf edilməsi gedişində cəmiyyətin dövlətə etimadı, onun dəyişikliklərə hazırlığı məsələsi xüsusi önəm daşımağa başlayıb. Səmərəli dövlət idarəçiliyi, vətəndaşların qərar qəbulu prosesində iştirakına tələbatı formalaşır. Bu zərurətləri zamanında dəyərləndirən dövlət başçısı İlham Əliyev xidmət və "insan mərkəzli" dövlət idarəçiliyi modelini formalaşdırmağa müvəffəq olub. Bu modelin əsas dəyərləri vətəndaşlar və onların həyat keyfiyyətinin yüksəldilməsidir.

Ölkədə son illər həyata keçirilən bütün islahatlar və dəyişikliklər də məhz vətəndaşlarla dövlətin qarşılıqlı əlaqəsinin yaxşılaşdırılması, strateji planlaşdırmanın səmərəliliyinin artırılması, dövlət aparatının optimallaşdırılması və dövlət xidmətləri göstərilməsinin proaktiv formatı yerli idarəetmənin inkişafına yönəldilib. Bu parametrlərin uğurlu şəkildə gerçəkləşdirilməsi Azərbaycanın beynəlxalq səviyyədə qazanılan nailiyyətlərinin və ölkədaxili inkişafın zəmini kimi çıxış edib.

Ölkədə inkişafa yönəlik mühitin yaradılmasında həmçinin zamanında formalaşdırılmış vitse-prezidentlik institutunun - bütün ölkə təhsil və sağlamlıq proqramlarına əlçatanlığını təmin etməklə insan potensialının inkişafı prosesinə inklüziv xarakter qazandıran, dövlət-özəl-vətəndaş cəmiyyəti tərəfdaşlığının örnək nümunəsini ortaya qoyan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu var. Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti Prezident İlham Əliyevin nəzəri baxımından işlənilmiş və praktikada uğurla sınaqdan keçmiş dövlət idarəçiliyində və dövlət qulluğunun təşkilində yüksək səmərəyə malik olan yeni sinergetik texnologiyaların bir istiqamətidir. Azərbaycanda Prezident İlham Əliyevin təşəbbüsü ilə dünyada ilk dəfə olaraq dövlət idarəçiliyində və dövlət qulluğunun təşkilində tətbiq edilən sinergetik texnologiyalar ilə yanaşı, komplementar və kompensasion yanaşmaların səfərbər edilməsi ölkənin iqtisadi, sosial, humanitar inkişafı, mötəbər beynəlxalq platformalarda sözünün keçərliliyinin vacib şərtidir. Beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilən Azərbaycan Respublikasının son 20 ildə müşahidə edilən sürətli və innovativ inkişafının əsasında dövlət idarəçiliyində və dövlət qulluğunun təşkilində tətbiq edilən yeni texnologiyalar durur.

Dövlət idarəçiliyinin və dövlət qulluğunun təşkilinin yüksək səviyyədə təmin edilməsi, bu prosesin daim təkmilləşməsini reallaşdırmaq üçün bu sahəyə aid olan müasir tədris və təlim vasitələrinin hazırlanması və geniş yayılması vacib şərtdir. Bu, ölkənin inkişafında yeni məqsədlərə nail olmaq üçün xüsusilə əhəmiyyətlidir. Bəlli olduğu kimi, Prezident İlham Əliyevin 2 fevral 2021-ci ildə imzaladığı sərəncamla "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiq edilib. Bu prioritetlərdə həm də insan potensialına əsaslanan rəqabətqabiliyyətli iqtisadi artımın "yaşıl" olması, inkişafın davamlılığı, işğaldan azad edilmiş torpaqlara Böyük qayıdışın təmin edilməsi, inklüziv cəmiyyətin qurulması nəzərdə tutulub. Milli ekoloji siyasətlərin qabaqcıl beynəlxalq təcrübələrlə uzlaşdırılması bu işdə mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası bu istiqamətlərdə bilik və bacarığın formalaşdırılmasına xidmət edən bir sıra dərsliklər dərc edib. Həmin dərsliklərin bəziləri dünyada birincidir və bu səbəbdən onların ingilis dilində dərc edilmiş versiyası dünyanın ən böyük online ticarət platforması olan Amazonda qlobal miqyasda yayılmaqdadır. Yeni biliklərlə yanaşı, bu dərsliklər eyni zamanda Azərbaycanın son 20 ildə əldə etdiyi nailiyyətlər barəsində məlumatları yayır və hazırda COP29-a hazırlıq prosesində faydalı olacaq məqamların açıqlanmasına şərait yaradır.

Bu gün kadrların hazırlanması və səfərbər edilməsi də daxil olmaqla, dövlət idarəçiliyi sisteminin fəaliyyət səmərəliliyinin ən real göstəricisi ölkənin iqtisadi, sosial və humanitar inkişafı baxımından qazanılan uğurlar və müvafiq qiymətləndirmələrdir. Bir qayda olaraq bu qiymətləndirmələr tanınmış beynəlxalq təşkilatların məlumatlarına əsaslanır. Məlumdur ki, Prezident İlham Əliyevin ölkəmizin dinamik inkişafına, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına imkan yaradan iqtisadi islahatlar strategiyası ölkənin təbii sərvətlərindən, intellektual resurslarından səmərəli istifadəni nəzərdə tutur. Elmi əsaslara söykənən bu islahatlar iqtisadi potensialına görə dünyada 82-ci yerdə qərarlaşan Azərbaycanın 25 ən inkişaf etmiş, biznes üçün əlverişli mühitinin mövcud olduğu qabaqcıl ölkə sırasında yer tutmasını təmin edib.

Ölkəmizdəki xalq-iqtidar birliyindən qaynaqlanan ictimai-siyasi sabitlik amili, əlverişli biznes mühiti Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycanın "yaşıl enerji" sahəsində də investisiya cəlbediciliyini yüksəldib. Dərc olunmuş məlumatlar əminliklə vurğulamağa əsas verir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir. Yaradılan sənaye parkları, sahibkarlara edilən güzəştlər və verilən subsidiyalar, investisiya təşviqi sənədləri və digər tədbirlər ölkədə biznesin inkişafını sürətləndirib. Bunun sayəsində mövcud qlobal problemlər fonunda Azərbaycan iqtisadiyyatı yüksək sabitlik və xarici dəyişikliklərə çevik uyğunlaşmaq qabiliyyəti nümayiş etdirir.

Prezident İlham Əliyev tərəfindən işlənilən və tətbiq olunan yeni dövlət idarəçiliyi texnologiyaları, bu innovasiyalara uyğun formalaşdırılan dövlət qulluğu sistemi Azərbaycanın sosial siyasətin reallaşdırılması və insanların rifahının təmin olunması naminə iqtisadi imkanlardan səmərəli istifadə sahəsində dünya lideri kimi tanınmasına yol açıb. Bu fakt həmçinin Davosda Dünya İqtisadi Forumu tərəfindən yayımlanan xüsusi qlobal hesabatlarda əks olunub. Hesabatlarda bildirilir ki, Azərbaycan qlobal miqyasda davamlı inkişaf edən inklüziv cəmiyyətin qurulması üçün iqtisadi imkanlardan ən səmərəli istifadə edən ölkədir.

Azərbaycan eyni zamanda qlobal miqyasda aktual olan "yaşıl enerji", karbonsuzlaşdırma, hidrogen istehsalı kimi layihələrin reallaşdırılmasının əsas təşəbbüskarlarından biridir. Prezident İlham Əliyevin hələ 2004-cü il 21 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" bu sahədə yol xəritəsi müəyyənləşdirərək bərpaolunan enerji mənbələrindən istifadə məqsədilə əsaslı tədbirlərin həyata keçirilməsinə imkanlar açıb. Beynəlxalq Enerji Agentliyi tərəfindən hazırlanan plana əsasən, 2050-ci ilədək dünya ölkələri tərəfindən atmosferə atılan karbon emissiyalarının tam şəkildə qadağan edilməsi nəzərdə tutulur. Paris İqlim Sazişini ratifikasiya edən Azərbaycan baza ili olan 1990-cı illə müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı könüllü öhdəlik götürüb və artıq bu öhdəliyi 40 faizə çatdırıb.

Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirilməsi, azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü dövlət siyasətinin təzahürüdür. Hesablamalara görə, Azərbaycanın quruda 27 qiqavatdan çox külək və günəş, Xəzər dənizində 157 qiqavat külək enerjisi potensialı mövcuddur. Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji potensialı 10 qiqavatdan çoxdur. Həmin potensial ölkədə ekoloji mühitin yaxşılaşdırılması və turizm cəlbediciliyinin artırılması ilə yanaşı, elektrik ixracı potensialının yüksəldilməsi baxımından da mühüm dividendlər vəd edir. Azərbaycanın "yaşıl enerji" sahəsində reallaşdırdığı layihələrin əsas məqsədlərindən biri də ölkədə elektrik enerjisi istehsalına sərf olunan böyük həcmdə təbii qaza qənaət olunması və onun Avropaya ixracının həcminin artırılmasıdır.

44 günlük müharibədən sonra yaranmış reallıqlar, azad olunan ərazilərdə aparılan bərpa, yenidənqurma işləri, yeni dəhlizlər ölkədə ÜDM istehsalının artmasına, sosial inkişaf trendinin təmininə və məşğulluğa töhfə verir. Zamanında Ümummilli Lider müraciətində deyirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu inamı Prezident İlham Əliyev yeni inkişaf strategiyasına uyğun olaraq dövlət idarəçiliyi sahəsində həyata keçirdiyi çoxşaxəli islahatlar, təkmilləşdirmə tədbirləri və zəruri dəyişikliklər sayəsində gerçəkliyə çevirib. Amma bu, hələ son deyil. Cənab İlham Əliyevin fəaliyyəti Azərbaycan dövlətini daha qüdrətli, Azərbaycan xalqını daha güclü, Azərbaycan bayrağını daha uca etməyə hədəflənib.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

## Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Baş Prokurorluqda tədbir keçirilib

**Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Baş Prokurorluqda baş prokurorun rəhbərliyi ilə prokurorluğun dövlət qulluqçuları və veteran dövlət qulluqçularının iştirakı ilə tədbir keçirilib.**





Baş Prokurorluğun Mətbuat xidmətindən AƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun rolunu və xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müstəqil və müasir dövlət qulluğu sisteminin yaradıldığını, "Dövlət qulluğu haqqında" 2000-ci il 21 iyul tarixli qanun da daxil olmaqla dövlət qulluğuna dair bir sıra qanunvericilik aktlarının qəbul edildiyini, həmçinin Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə 23 iyun tarixinin ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi təsis edildiyini diqqətə çatdırıb.

Çıxış zamanı ölkədə dövlət qulluqçularının sayının 27 min nəfər olduğu və onların 29,7 faizini qadınların təşkil etdiyi, həmçinin prokurorluq orqanlarında 642 nəfər dövlət qulluqçusunun fəaliyyət göstərdiyi, həmin şəxslərdən isə 32,9 faizini qadınların təşkil etdiyi qeyd olunaraq dövlətimizin başçısı tərəfindən dövlət qulluqçularına göstərilən xüsusi diqqət və qayğıya, həmçinin Prezident İlham Əliyevin dövlət qulluqçularının fəaliyyətində müəyyənləşdirdiyi prinsiplərə toxunulub.

Tədbirdə baş prokuror tərəfindən peşə bayramı ilə əlaqədar müvafiq əmrlə təltif edilmiş 24 dövlət qulluqçusu və 4 prokurorluq orqanlarında çalışmış veteran dövlət qulluqçularına hədiyyələr təqdim olunub.

Dövlət qulluqçuları və veteranlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

## Dövlət qulluqçularının sayı və maaşı barədə məlumatlar açıqlanıb

**Dövlət Statistika Komitəsi bildirir ki, cari il yanvarın 1-nə ölkədə dövlət qulluqçularının sayı 27,1 min nəfər olmuşdur ki, onların da 29,7 faizini qadınlar təşkil edir.**



Dövlət qulluqçularının 7,3 faizi dövlət orqanlarında inzibati vəzifələrin ali - 3-cü təsnifatları, 3,8 faizi 4-cü təsnifatı, 11,7 faizi 5-ci təsnifatı, 7,9 faizi 6-cı təsnifatı, 46,6 faizi 7-ci təsnifatı, 22,7 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləmişdir.

Dövlət qulluqçularının 4,6 faizi 1 ilədək, 25,4 faizi 1 ildən 5 ilədək, 22,5 faizi 5 ildən 10 ilədək, 19,3 faizi 10 ildən 15 ilədək, 28,2 faizi isə 15 il və daha çox qulluq stajına malikdir.

Dövlət qulluqçularının 2,5 faizini 25 yaşadək, 13,7 faizini 25-29 yaşda, 17,8 faizini 30-34 yaşda, 15,9 faizini 35-39 yaşda, 12,5 faizini 40-44 yaşda, 9,4 faizini 45-49 yaşda, 7,7 faizini 50-54 yaşda, 9,1 faizini 55-59 yaşda, 9,7 faizini 60-64 yaşda, 1,7 faizini 65 və yuxarı yaşda olan şəxslər təşkil edir.

2023-cü ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 8,3 faiz artaraq 1933,3 manat təşkil etmişdir.




# "Yaşıl" və davamlı inkişaf naminə qlobal və milli çağırışlar

**2024-cü ilin noyabr ayında Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), həmçinin Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər tədbirlər keçiriləcək.**

Bu barədə keçən il Birləşmiş Ərəb Əmirliklərində baş tutmuş COP28-də dünya birliyi tərəfindən qəbul edilmiş yekdil qərar qlobal siyasi arenada Azərbaycanın özünü etibarlı tərəfdaş kimi sübut etməsinin, BMT-də və digər beynəlxalq təşkilatlarda oynadığı fəal rolun, Azərbaycan Prezidenti İlham Əliyevin nəinki regionda, hətta bütün dünyada sülhün və beynəlxalq hüquq çərçivəsində ədalətin bərqərar olunması üçün əmək sərf edən güclü lider kimi yüksək şəxsi nüfuzunun nəticəsidir. Azərbaycan Prezidentinin çıxışlarından birində qeyd etdiyi kimi, sözügedən qərar eyni zamanda ölkəmizin müxtəlif dövlətləri müəyyən məsələlər ətrafında bir araya gətirmək gücünə və imkanına malik olmasının təsdiqi, Azərbaycana olan böyük etimadın təzahürü və "yaşıl keçid"lə bağlı səylərimizin ən yüksək səviyyədə qəbul edilməsinin göstəricisidir. Qətiyyətlə demək olar ki, ölkəmizin 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına böyük uğurla sədrlik etməsi, BMT-də və digər müxtəlif beynəlxalq təşkilatlarda fəal rolu və təmsilçiliyi COP29-a sədrliyin də uğurlu olması üçün əlverişli imkanlar yaradır və bu imkanların reallaşacağı şəksizdir.

Məlumdur ki, mavi və yaşıl rənglər insanın müşahidə dairəsində olan kainat daxilində Yer kürəsinin xarakterik simvollarıdır. Kosmosdan məhz bu rənglərdə görünən planetimizdə həyatın varlığını su-okean təbəqəsi və Yer üzünün yaşıl örtüyü təmin etmişdir. Bunlar isə təbii olaraq canlıların yaşamı üçün temperatur, rütubət və maddələrin ən optimal nisbətlərinin mövcud olduğu iqlimlə və atmosferin tərkibi ilə sıx əlaqədardır.

Bəşər övladı tarixi ərzində planetə sahibləndikcə, təbiəti tam şəkildə idarə etməyə, onun sərvətlərindən özünün tükənməyən, daim artan ehtiyaclarının ödənməsi naminə səmərəsiz istifadə olunmasına aramsız cəhdlər göstərdikcə ətraf mühitə sağalmaz yaralar vurmuş, qlobal ekoloji durumu fəlakət halına gətirmişdir. Sənaye inqilabları bir-birini əvəz etdikcə dünyanın ekologiyasında təsir və təzyiqlər də durmadan ölçüyəgəlməz dərəcədə artmışdır. Son yüzillikdə isə bioloji müxtəlifliyə qarşı ciddi təhdidlər, növlərin itməsi adi hal almışdır. İqlim dəyişiklikləri içməli və suvarma suları ilə təminatda problemlər yaratmış, buzlaqların və göllərin sahəsi azalmış, növlərin miqrasiyası güclənmiş, ekosistem xidmətlərinin keyfiyyəti aşağı düşmüşdür.

Antropogen fəaliyyətlərin intensivləşməsi sayəsində səhralaşma, yaşıl örtüyün kasadlaşmasının yüksək tempi (məsələn, yüz, hətta min illər ərzində formalaşan meşəliklərin sahəsi təkcə 2001-2021-ci illər arasında 437 milyon ha azalmışdır), qlobal istiləşmə, istixana effekti, atmosferin temperaturunun son 200-250 il ərzində $2^{0}$C-yə qədər yüksəlməsi ilə bağlı əsaslı bilgilərin aşkar olunması elm adamlarını, qabaqcıl təfəkkür sahiblərini artan təhlükəni görməyə, həyəcan təbili çalmağa, səsləri eşidilmədikdə isə qərar qəbulu mexanizm və instansiyalarına təsir etmək məqsədilə təşkilatlanma üzrə addımlar atmağa vadar etmişdir.

Beləliklə, bioloji müxtəlifliyə və ümumən təbiətə dağıdıcı təsirlərlə bağlı narahatlıq XX əsrin ortalarına doğru getdikcə daha çox insanı ətrafına toplamağa başlamışdır. Məhz bu hiss könüllü təbiətsevərləri, o cümlədən elm adamlarını, ictimai fəalları adət etdikləri həyat tərzini buraxaraq uzaq səfərlərə çıxmağa, orada dünənə qədər varlığından heç kimin xəbəri olmadığı canlıların xilası naminə ağlasığmaz cəhdlər etməyə məcbur edirdi. Bütün dünyada təbiətin mühafizəsini həyatının mənasına çevirmiş, gördükləri işin səmərə verəcəyinə inanan, qorunan təbiət ərazilərinin, qoruq və yasaqlıqların yaradılması məqsədilə illərlə qərar qəbulu instansiyalarına ayaq döyən, həyəcan təbili çalan insanların cəhdləri heç də həmişə uğurlu alınmırdı. Təəssüf ki, dünya liderlərinin böyük əksəriyyəti "kimsə bir ağac kəsirsə, elə bil mənim qollarımı kəsir" məfkurəsindən, amalından uzaq olmuş, sənayeləşmənin eyforiyasını yaşayan dünya gücləri, böyük dövlətlər, beynəlxalq təşkilatlar ilk vaxtlarda alimlərin çağırışlarını eşitməzliyə vurmuş, elmi dəlilləri görmək istəməmişlər.

Belə bir zamanda - XX əsrin ortalarından etibarən dünyanın tərəqqipərvər qüvvələrinin getdikcə güclənən vətəndaş mövqeyinin və güclü ictimai fikrin təzyiqi altında Beynəlxalq Təbiətin Mühafizəsi Birliyi (İUCN, 1948), Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF, 1961), Greenpeace (1971), BMT-nin Ətraf Mühit Proqramı (UNEP, 1972) və s. kimi qurumların, bir çox ölkədə "Yaşıllar" partiyalarının yaradılması, dünya yaşıllar hərəkatının formalaşması, bu hərəkatın ayrı-ayrı ölkələrdə siyasətə və qərarların qəbulu prosesinə ciddi şəkildə nüfuz etməsi bəşəriyyətin özünüxilas instinkti ilə elmi biliklərə arxalanma və güvənmənin vəhdətinin bariz göstəricisi olmuşdur.

Mərkəzi iqamətgahı İsveçrənin Qland şəhərində yerləşən IUCN bir təşkilat olaraq üç komponentdən - üzv təşkilatlar, altı elmi komissiya və katiblikdən ibarətdir. IUCN-in üzvləri dövlətlər, dövlət qurumları, beynəlxalq və milli qeyri-hökumət təşkilatları, elmi tədqiqat institut və mərkəzləridir. Hazırda təşkilat 1400-dən çox üzvü, 181 dövlətdən 12000-dən çox alim və mütəxəssisi birləşdirir. UNESCO, ECOSOC və FAO-nun məsləhətçisi statusu olan birliyin fəaliyyət proqramı 1979-cu ildə qəbul edilmiş Dünya Ətraf Mühit Strategiyası tərəfindən tənzimlənir. Birlik "Qırmızı Kitab", elmi ədəbiyyat, serial və digər xüsusi materialları dərc edir və yayır. Qeyd edim ki, IUCN-in üzvləri sırasında Azərbaycanın IDEA İctimai Birliyi də yer almaqdadır.

WWF dünyada beş milyondan çox tərəfdarı olan ən böyük mühafizə təşkilatıdır. 100-dən çox ölkədə fəaliyyət göstərir, 3000-dən çox ətraf mühit layihələrini dəstəkləyir. Fond tərəfindən 1995-ci ildən bəri 12 mindən çox qorunma təşəbbüsünə 1 milyard dollardan artıq sərmayə yatırılmışdır. WWF-nin Azərbaycan nümayəndəliyi 2001-ci ildən fəaliyyət göstərir. Bu müddət ərzində nümayəndəlik Azərbaycanda biomüxtəlifliyin qorunması və inkişaf etdirilməsi istiqamətində bir çox layihə həyata keçirmişdir. Hazırda Qafqazda bəbirlərin mühafizəsi, ceyranların və bizonların reintroduksiyası, iqlim dəyişmələrinə qarşı meşə ekosistemlərinin dözümlülüyünün artırılması istiqamətində layihələr icra edilməkdədir.

Greenpeace (Yaşıl sülh) Avropa, Amerika, Asiya və Okeaniyadakı 40 ölkədə mövcud olan qeyri-kommersiya təşkilatıdır. Təşkilat öz fəaliyyəti üçün dövlətlərdən, şirkətlərdən və siyasi partiyalardan vəsait almır və heç bir sponsorluğu da qəbul etmir, ancaq üzvlərinin maddi və mənəvi yardımları ilə fəaliyyətini davam etdirir. Ətraf mühitə qarşı işlənən cinayət və cinayətkarlara qarşı edilən etiraz aksiyaları, araşdırmalar, mediada yer alan məqalələr sadəcə bütün işin görünən tərəfləridir. Təşkilatın hazırda 24 beynəlxalq və 4 regional ofisi və bu ofislərin fəaliyyətini həyata keçirən 101 ölkədə 2 milyon 800 min fəal tərəfdarı vardır.

BMT-nin Ətraf Mühit Proqramı (UNEP) 1972-ci ildə yaradılmışdır və vəzifəsi bugünkü və gələcək nəsillərin rifahı naminə ətraf mühitin yaxşılaşması və qorunmasına yönəlmiş tədbirlərin təşkili və həyata keçirilməsindən ibarətdir. Proqramın şüarı "İnkişaf naminə çevrəmiz"dir. Baş qərargahı Keniyanın paytaxtı Nayrobidə yerləşən UNEP-in digər ölkələrdə də altı böyük regional ofisi vardır. Bu qurum qlobal və regional səviyyələrdə ekologiya problemləri ilə bağlı istənilən məsələlərə baxır. Eyni zamanda UNEP yer atmosferi, dəniz və yerüstü ekosistemlərlə bağlı çeşidli layihələr həyata keçirir.

Yaşıllar hərəkatı bizi əhatə edən mühitin dağılmasına qarşı mübarizə aparan, insanla təbiət arasında münasibətlərdə daha çox ahəngin əldə olunmasına çalışan qeyri-hökumət təşkilatlarının, qrupların, cərəyanların ümumiləşmiş adıdır. Yaşıl rəng təbiətin, ümidin, yeniliyin rəmzi olduğu üçün seçilmişdir.

1970-ci illərdə ətraf mühitlə bağlı "Avropa təbiətinin qorunması ili" kampaniyası (1970), Stokholmda keçirilən çevrə problemləri üzrə BMT-nin konfransı (1972) və s. kimi tədbirlər diqqət çəkmişdir.

İlk dəfə Dünya İqlim Konfransı 1979-cu ildə keçirilmişdir. Burada Qlobal İqlim Proqramı qəbul olunmuşdur. 1988-ci ildə Dünya Meteorologiya Təşkilatı və BMT-nin Ətraf mühit proqramı tərəfindən Beynəlxalq Hökumətlərarası İqlim Panelinin (BHİP) əsası qoyulmuş və Cenevrədə II Dünya İqlim Konfransı baş tutmuşdur.

Bundan başqa, müvafiq məsələlərin ictimailəşdirilərək qərar qəbulu mexanizm və instansiyaları qarşısında qaldırılması istiqamətində dünyada Donald Worster, James Ephraim Lovelock, Donella Meadows kimi tanınmış ekoloqlar, Azərbaycanda akademiklər Həsən Əliyev, Budaq Budaqov, Cəlal Əliyev kimi görkəmli alimlər də təqdirəlayiq işlər görmüşlər.

Alimlərin fikrincə, sənayeləşmənin sürətli və nəzarətsiz inkişafı, ətraf mühitin sənaye və məişət tullantıları ilə çirkləndirilməsi, ehtiyatların səmərəsiz tükədilməsi, əhalinin intensiv artımı olduğu kimi davam edərsə, Yer kürəsində həyatın varlığı təhlükə altına düşəcəkdir. Bunun qarşısının alınması üçün ekoloji və iqtisadi sabitliyə nail olmaq lazımdır. Alimlər çıxış yolunu ekosistemlərin xidmətlərindən istifadənin səmərəliliyinə nail olunmasında, istehsalın ətraf mühitə ziyan vurulmaması baxımından ciddi nəzarətdə saxlanılmasında, ekoloji təmiz texnologiyalara, "yaşıl enerji", "yaşıl iqtisadiyyat" prinsiplərinin tətbiqinə keçilməsində görürdülər.

Tərəqqipərvər bəşəriyyətin, ekoloji fəallar hərəkatlarının, xüsusən alimlərin yüksək səslə həyəcan təbili çalmasının nəticəsi olaraq 1992-ci ildə dünya birliyi ölkələrinin Rio-de-Janeyro sammitində planetimizdə həyatın davamı üçün mühüm əhəmiyyət daşıyan 2 mühüm beynəlxalq sənəd ərsəyə gətirilmişdir. Bunlardan biri Bioloji Müxtəliflik haqqında Konvensiya, digəri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasıdır.

Bioloji Müxtəliflik haqqında Konvensiyanın (BMK) məqsədləri bioloji müxtəlifliyin qorunması, onun komponentlərinin davamlı istifadəsi və bunun nəticəsində yaranan faydaların ədalətli şəkildə bölüşdürülməsi, o cümlədən genetik ehtiyatlara lazımi çıxışın təmin edilməsi, resurslara və innovasiyalara dair bütün hüquqlar nəzərə alınmaqla müvafiq texnologiyaların yaradılması və adekvat maliyyələşdirmə yolu ilə uyğun şəkildə ötürülməsidir. Biomüxtəlifliyin bəşəriyyətin ümumi səyi ilə qorunmasını nəzərdə tutan BMK Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 14 mart 2000-ci ildə ratifikasiya olunmuşdur.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) atmosferdə istixana qazlarının konsentrasiyalarını sabitləşdirməklə "insanların iqlim sisteminə təhlükəli müdaxiləsi" ilə mübarizə aparmaq üçün ölkələr arasında bağlanmış beynəlxalq müqavilədir. Çərçivə Konvensiyasının son məqsədi onun 2-ci maddəsində: "atmosferdə istixana qazlarının konsentrasiyaları iqlim sisteminə təhlükəli antropogen müdaxilənin qarşısını alacaq səviyyədə sabitləşdirilməlidir" şəklində göstərilmişdir.

Konvensiya 1992-ci ildə Rio-de-Janeyro şəhərində keçirilən Dünya Sammitində 154 ölkə tərəfindən imzalanmış, 21 mart 1994-cü il tarixdə 50-ci üzv ölkənin ratifikasiya prosesini tamamlaması ardından qüvvəyə minmişdir. Konvensiyanın Əlavə 1-nə daxil edilmiş ölkələr (əsasən inkişaf etmiş ölkələr) atmosferə tulladıqları istixana qazlarının azaldılmasına dair öhdəliklər götürürlər. Konvensiyaya üzv ölkələrin əksəriyyəti Əlavə 1-ə daxil edilməyən inkişaf etməkdə olan ölkələrdir. Onların qarşısında emissiyaların azaldılması istiqamətində heç bir öhdəlik qoyulmur.

Çərçivə Konvensiyasının ali qərar qəbul edən orqanı - Konvensiya tərəflərinin konfransları (COP) iqlim dəyişikliyi ilə mübarizədə əldə edilmiş tərəqqini qiymətləndirmək və inkişaf etmiş ölkələr üçün istixana qazı emissiyalarını azaltmaq və hüquqi cəhətdən məcburi öhdəlikləri müəyyən etmək məqsədi ilə keçirilir. Qeyd edək ki, Konvensiya tərəflərinin ilk konfransı (COP1) 1995-ci ildə Berlin şəhərində keçirilmişdir. 2005-ci ildən başlayaraq konfranslar həm də "Kyoto Protokolunun Tərəflərinin Müşavirəsi rolunu oynayan Tərəflərin Konfransı" (CMP) kimi fəaliyyət göstərmişdir. 2011-ci ildən 2015-ci ilə qədər görüşlər iqlim fəaliyyətinə doğru ümumi yol yaradan Durban platformasının bir hissəsi kimi Paris Sazişini müzakirə etmək üçün istifadə edilmişdir. 12 dekabr 2015-ci il tarixdə iqlim dəyişikliyi ilə bağlı hüquqi cəhətdən məcburi beynəlxalq müqavilə olan Paris Sazişi qəbul olunmuşdur. Hazırda 198 ölkə və ərazi İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfləridir.

Məlumdur ki, Minilliyin İnkişaf Məqsədlərinin davamı olaraq BMT Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli A/RES/70/1 nömrəli qətnaməsi ilə növbəti 15 il müddətinə insan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına, planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığının təmin edilməsinə təkan verəcək 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" (bundan sonra - Gündəlik) təsdiq edilmişdir. Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) özünəməxsusluğu onların bütün ölkələri, o cümlədən yoxsul, zəngin və ortagəlirli ölkələri planetin mühafizəsini təmin etmək şərti ilə tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləməsində əks olunur. DİM-lər təsdiq edir ki, yoxsulluğun aradan qaldırılması iqtisadi artımın ətraf mühiti qorumaqla təmin edilməsinə yönələn strategiyalarla əlaqəli şəkildə həyata keçirilməlidir. Məqsədlər təhsil, sosial müdafiə və məşğulluq imkanları da daxil olmaqla geniş spektrli sosial ehtiyacları və bununla yanaşı, iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsini ön plana çəkir. Gündəlikdə müəyyən edilmiş qlobal məqsəd və hədəflər dayanıqlı inkişafın bir-biri ilə vəhdət təşkil edən iqtisadi, sosial və ətraf mühit sahələrində tarazlı idarəetmənin həyata keçirilməsi üçün beynəlxalq ictimaiyyət tərəfindən icrası zəruri hesab edilən kollektiv tədbirləri özündə əks etdirir.

Qeyd edək ki, DİM-lərin bir neçəsi birbaşa ətraf mühitlə bağlıdır. Bu məqsədləri "təbii ehtiyatların dayanıqlı şəkildə idarə olunması və iqlim dəyişikliyi ilə bağlı təxirəsalınmaz tədbirlər görməklə planeti korlanmadan qoruyaraq indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi" kimi ümumiləşdirmək olar.

İqlimlə bağlı əsas məqsəd (13-cü məqsəd) "İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə təcili tədbirlər görmək" şəklində formalaşdırılmışdır.

Ətraf mühitə antropogen təsirlər nəticəsində "istixana" effekti yaradan qazların emissiyası artmaqda davam edir və iqlim dəyişikliyinə təkan verir. Qeyd edək ki, alimlər tərəfindən atmosferdə temperatur artımına səbəb kimi göstərilən əsas istixana qazları karbon qazı (CO2), metan (CH4), azot oksidi (N2O) və xloroflorokarbonlardır (CFC). Xüsusən havada $CO_2$ konsentrasiyalarının artması qlobal ekoloji dəyişmələrin güclənməsinə (hava şəraitlərindəki fərqlərin və ekstremal hadisələrin tezliyinin artması, uzunmüddətli dəyişikliklər və sürüşmələr) gətirib çıxarmışdır. Ciddi tədbirlər görülməzsə, dünya üzrə havanın temperaturunun 21-ci əsr ərzində $3^{O}$C artacağı ehtimal olunur.

Heç bir ölkə iqlim dəyişikliklərinin təsirindən sığortalanmamışdır. Ekologiya, təbiət hadisələri siyasi sərhədləri "tanımadığından" sıfır emissiyaya malik ölkələrdə belə stres amillərinin güclənməsi böyük dövlətlərdən fərqli deyildir. Ölkələr daha təmiz, daha stabil iqtisadiyyata keçməlidirlər, alternativ və bərpaolunan enerji mənbələrinə yönəlmək, eyni zamanda uyğunlaşmalara səy göstərmək lazımdır.

Dəyişikliklər lokal ərazilər üzrə məhdudlaşdırıla bilmədiyindən, ortaq qərarların qəbul edilərək ümumi səylərlə yerinə yetirilməsi, beynəlxalq səviyyədə koordinasiya edilən həllər tapılması lazımdır. Bu faktın dərk edilməsi nəticəsində 2015-ci il dekabrın 12-də Parisdə Tərəflərin 21-ci Konfransında (COP21) Paris Sazişi qəbul edilmişdir. Bununla da sazişə qoşulan ölkələr qlobal temperaturun artım səviyyəsini $2^{O}$C-dən aşağı səviyyədə məhdudlaşdırmağa razılaşmışlar.

Ətraf mühit problemlərinə az və ya çox dərəcədə aid olan digər məqsədlərdən aşağıdakıları göstərmək olar:

Məqsəd 2. Aclığa son qoymaq, ərzaq təhlükəsizliyini təmin etmək, qidalanmanı yaxşılaşdırmaq və kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək vermək.

Aqrar sahədə orta və uzun müddət üçün başlıca məqsədlərdən biri iqlim dəyişiklikləri və streslərin güclənməsi dövründə bitkilərin, xüsusən onların strateji əhəmiyyət daşıyanlarının (Azərbaycan üçün ərzaqlıq buğdanın) məhsuldarlığının və keyfiyyətinin yüksəldilməsinə, kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin artırılmasına, kənd əhalisinin həyat qabiliyyətli inkişafına, ətraf mühitin mühafizəsi ilə rəqabətqabiliyyətli sektorun təşəkkül tapmasına nail olmaqdan ibarətdir.

Məqsəd 6. Hamı üçün su və sanitariyaya əlçatanlığı və dayanıqlı idarəetməni təmin etmək.

Su çatışmazlığı və quraqlıq dünyanın ən yoxsul ölkələrində aclıq və zəif qidalanmanın kəskinləşməsinə səbəb olur. 2050-ci ilə qədər hər dörd nəfərdən ən az birinin uzunmüddətli və ya təkrarlanan şirin su çatışmazlığına məruz qalan ölkələrdə yaşayacağı ehtimal olunur.

Məqsəd 7. Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək.

Dayanıqlı enerji fürsətdir - həyatın, iqtisadiyyatın və planetin transformasiyasına imkan verir. "Yaşıl enerji" "yaşıl iqtisadiyyat"ın əsasıdır.

Məqsəd 11. Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək.

İri yaşayış məntəqələrində ekoloji sabitliyə, ətraf mühitin təmizliyinə nail olunması xüsusilə çətindir və böyük həcmdə maliyyə yatırımları və ya iqtisadi rentabelliyin azalmasını tələb edir. Şəhərlərin üzləşdiyi problemləri aradan qaldırmaq üçün resurslardan istifadənin təkmilləşdirilməsi, çirklənmənin və yoxsulluğun azaldılması ilə yanaşı, aqlomerasiyanın normal inkişafı və böyüməsinə imkan verən ekoloji cəhətdən nisbətən təmiz üsullardan istifadə oluna bilər.

Məqsəd 14. Dayanıqlı inkişaf naminə okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək.

Yağış suları, içməli sular, hava, iqlim, sahillər, qidanın əhəmiyyətli bir hissəsi, hətta havadakı nəfəs aldığımız oksigen də nəticə etibarilə dəniz tərəfindən təmin edilir və tənzimlənir.

Məqsəd 15. Yer ekosistemlərini mühafizə və bərpa etmək və onların səmərəli istifadəsinə dəstək vermək, meşələrdən səmərəli istifadə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaq deqredasiyasını dayandırmaq, ona qarşı əks tədbirlər görmək və bioloji müxtəlifliyin itkisinin qarşısını almaq.

Azərbaycan 2030 Gündəliyinə nail olmaq baxımından ən hazırlıqlı ölkələrdən biri olmaqla, burada dayanıqlı inkişaf məqsədlərinə sadiqlik yüksək səviyyələrdə dəfələrlə nümayiş etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti 2016-cı ildə BMT-nin Azərbaycan hökumətinə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçün əsas tərəfdaş kimi fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair fərman imzalamışdır. Eyni zamanda Azərbaycan DİM-lərə nail olunmasını milli səviyyədə sürətləndirmək üçün atıla biləcək konkret siyasi addımlarını və proqramlaşdırma fəaliyyətlərini əks etdirən MAPS (Gündəlik naminə aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək) missiyasını həyata keçirən ilk ölkələrdən biri olmuşdur və müvafiq təcrübə 2018-ci ildə Dayanıqlı İnkişaf üzrə Bakı Forumunda təqdim olunmuşdur. Digər məsələlərlə bərabər, forumda 2030 Gündəliyinin yerinə yetirilməsini sürətləndirmək məqsədilə fəaliyyətləri müəyyən edən Bakı Prinsiplərinin qəbul edilməsi gerçəkləşdirilmişdir. 15-16 noyabr 2023-cü ildə keçirilmiş Dayanıqlı İnkişafa dair 2-ci Bakı Forumunda da bir sıra vacib qərarlar qəbul edilmişdir ki, bunların arasında ətraf mühit problemləri ilə bağlı məsələlər də yer almışdır.



*(Ardı var)*

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***




## *Prezidentin xüsusi nümayəndəsi:* "Oxçuçay üzərində qurulmuş kiçik su-elektrik stansiyaları Zəngilan şəhərini alternativ enerji ilə təmin edəcək"

**Bildiyiniz kimi, Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. Hazırda bölgədə bununla bağlı bir sıra uğurlu layihələr icra edilir.**




Bu sözləri AZƏRTAC-a açıqlamasında Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev söyləyib.

O bildirib ki, Zəngilan şəhərində Oxçuçay üzərində 4 ədəd kiçik su-elektrik stansiyası qurulub. Bu da Zəngilan şəhərinin alternativ enerji ilə təminatına imkan verir. Bundan başqa, Ağalı kəndində Həkəri çayı üzərində qurulmuş "Arximed" qurğusu vasitəsilə bu kəndin elektrik enerjisinə ehtiyacı təmin olunur.

"Həmçinin ərazi günəşli günlərin sayına görə xüsusilə fərqlənir və bu da bizə imkan verir ki, tikilən bütün evlərdə, inzibati binalarda günəş panellərindən geniş istifadə edilsin", - deyən V.Hacıyev işğaldan azad olunmuş bütün ərazilərdə biomüxtəlifliyin bərpası istiqamətində də bir sıra layihələrin həyata keçirildiyini xatırladıb. Deyib ki, sadalanan bütün bu fəaliyyətlər ölkəmizin dünyada qlobal iqlim dəyişmələri ilə mübarizə işinə müsbət töhfəsini verir, həmçinin COP29-un məqsədlərinə nail olunması işinə də dəstək göstərir.

## *Soltan MƏMMƏDOV:* "Seçkilərin vaxtının irəli çəkilməsi COP29-un təşkili ilə bağlı bütün məsələlərin uğurla həllinə imkan verəcək"



**Azərbaycan son illərdə öz tarixinin ən möhtəşəm dövrlərindən birini yaşayır. 2020-ci ildə Vətən müharibəsində əldə etdiyimiz zəfər və 2023-cü ildə həyata keçirilmiş antiterror tədbirlərinin nəticələri xalqımızın tarixində yeni bir səhifə açmışdır. Dövlətimizin artan gücü və beynəlxalq aləmdə yüksələn nüfuzu bizə olan etimadın daha da dərinləşməsinə səbəb olmuşdur.**

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı Soltan Məmmədov parlamentin dünənki iclasında çıxışı zamanı deyib.

O bildirib ki, COP29-un Azərbaycanda keçirilməsi barədə ötən ilin dekabrında qəbul edilmiş qərar məhz Azərbaycana beynəlxalq ictimaiyyətin yüksək etimadının daha bir göstəricisi idi. Respublikamız bu ilin noyabrında COP29-la yanaşı, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər beynəlxalq tədbirlərə də evsahibliyi edəcək. Qlobal problemlərin müzakirə olunacağı bu mötəbər tədbirlər hazırlıq kifayət qədər vaxt və enerji tələb edir.

"Təbii ki, bir çox yüksəksəviyyəli beynəlxalq forumları, idman yarışlarını və digər tədbirləri ən yaxşı şəkildə təşkil etmək təcrübəsinə malik olan ölkəmizin bu dəfə də üzərinə götürdüyü missiyanı uğurla yerinə yetirəcəyi şübhəsizdir. Bununla yanaşı, onu da nəzərə almalıyıq ki, belə qlobal əhəmiyyətli beynəlxalq tədbirlərlə eyni vaxtda seçki kampaniyasının təşkili kifayət qədər çətin prosesdir. Ona görə də hesab edirəm ki, Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların növbədənkənar seçkilərin təyin olunması barədə təşəbbüsü mövcud reallıqları nəzərə alan, ölkəmizin qarşısında duran vəzifələrin miqyasını düzgün qiymətləndirən yanaşmanın ifadəsidir", - deyə Milli Məclisin deputatı vurğulayıb.

S.Məmmədov deyib ki, seçkilərin vaxtının irəli çəkilməsi COP29-un təşkili ilə bağlı bütün məsələlərin uğurla həll edilməsinə imkan verəcək, eyni zamanda belə bir yüksəksəviyyəli tədbir zamanı parlamentin tam gücü ilə fəaliyyət göstərməsinə şərait yaradacaq. "Bildiyiniz kimi, COP29 sessiyası çərçivəsində Parlament Konfransının təşkili nəzərdə tutulur. Bu barədə Milli Məclislə Parlamentlərarası İttifaq arasında anlaşma memorandumu imzalanıb. Parlament iclası COP29-un ən mühüm tədbirlərindən biridir və bu iclasa hazırlıq üçün Milli Məclisdə deputatlardan ibarət işçi qrupları yaradılmalıdır. Bundan başqa, parlament konfransının yekun sənədinin hazırlanması da uzun və çətin bir prosesdir. Ona görə də Azərbaycan Milli Məclisinin yeni tərkibinin COP29 sessiyasına qədər formalaşması çox mühüm əhəmiyyət kəsb edir", - deyə o əlavə edib.

# COP29-a bütün dünya hazırlaşır

**Bir neçə ay sonra Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın imkanlarının növbəti nümayişi olacaq. COP29 təkcə Azərbaycan üçün əhəmiyyət kəsb etməyəcək, bu tədbir çərçivəsində həm də dünya ölkələrinin iqlim dəyişikliyinə qarşı mübarizədə oynadığı rol sərgilənəcək. Ona görə də noyabrda baş tutacaq qlobal tədbirə həm Azərbaycan, həm də xarici ölkələrdə hazırlıqlar gedir.**



Hər bir COP tədbirinin keçirilməsi üçün hazırlıq işlərinə ən azı iki il ayrılır. Azərbaycanın isə hazırlıq üçün vaxtı xeyli az idi. Odur ki, bir dəqiqə belə itirilmədən işə başlandı. Qısa zamanda COP29 komandası formalaşdı və səfərbər olundu.

Xarici dövlətlər müxtəlif tədbirlər keçirməklə COP29-a öz töhfələrini verirlər. Bakıya nümayəndələri gələcək 200-ə yaxın ölkədə qlobal tədbirin keçirilməsində onların da payı olsun deyə bu istiqamətdə müəyyən işlər görürlər. Hər ölkə özünəməxsus formada COP29 hazırlıqlarında yer almağa çalışır. Təbii ki, bu məsələ Azərbaycanla birlikdə addımlamaq, qarşılıqlı anlaşmalar, birgə tədbirlər keçirmək çərçivəsində baş tutur. Məsələn, Aşqabad şəhərində Türkmənistan Xarici İşlər Nazirliyinin, BMT-nin Türkmənistandakı Rezident Əlaqələndiricisinin ofisi, Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Türkmənistandakı səfirliklərinin təşkilatçılığı ilə "Dubaydan Bakıya Yol - COP29 öncəsi" adlı tədbir keçirilib. Toplantıda COP29 sammitinə hazırlıqların müzakirəsi, eləcə də "yaşıl enerji"yə keçid və metan emissiyalarının azaldılması istiqamətində fikir mübadiləsi aparılıb. Həmçinin "Yaşıl dünya naminə həmrəylik ili"ndə Azərbaycanın iqlim dəyişikliyi ilə bağlı həyata keçirdiyi layihələrə, "yaşıl enerji" istiqamətində görülən işlərə diqqət çəkilib. COP29 könüllülərindən söz açılaraq 16 minədək namizədin qeydiyyatdan keçdiyindən, təxminən daha 3000 yerli və beynəlxalq könüllünün də prosesə cəlb olunacağından söz açılıb. Azərbaycanın Türkmənistandakı səfiri Qismət Gözəlov deyib: "Hər iki ölkə neft və təbii qazla zəngin olsa da, ölkələrimiz metan emissiyası öhdəliklərinə sadiq qalaraq iqlim dəyişikliyi layihələrinə töhfə verirlər. Biz əminik ki, qardaş Türkmənistan da bu ilin noyabr ayında Azərbaycanda keçiriləcək COP29 sammitinə öz töhfəsini verəcək".

Okeanın o tayında - ABŞ-də də COP29 gündəlikdə dayanan tədbir olaraq vaxtaşırı müzakirə olunur. Bu günlər Vaşinqtonda yerləşən Beynəlxalq Tələbə Evində "İqlim Dəyişikliyi və Azərbaycanın COP29 sədrliyi" mövzusunda hibrid formatda tədbir keçirilib. Beynəlxalq Tələbə Evinin baş icraçı direktoru Daniyel Bremerin, idarə heyətinin sədri, sabiq səfir Mişel Bondun da iştirak etdiyi toplantıda Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim Azərbaycanın ətraf mühit və iqlim fəaliyyətinə COP29 sədrliyindən çox əvvəl başladığını vurğulayaraq, ölkəmizin külək və günəş enerjisi kimi bərpaolunan enerji mənbələri üçün böyük potensiala malik olduğunu qeyd edib. Xarici investorların ölkəmizin bir sıra bölgələrində günəş enerjisinə marağı olduğunu qeyd edən diplomat özəl sektorun bu sahədə rolundan və bu xüsusda əməkdaşlığın davam etdirilməsinin vacibliyindən söz açıb. Diplomat qeyd edib ki, Azərbaycanın COP29-a sədrliyinin məqsədi yeni hədəflər irəli sürmək və qarşıya qoyulan məqsədlərin icrasını təmin etməkdir.

Osloda Norveçin beynəlxalq inkişaf naziri An Beate Tvinnereim tərəfindən COP28-in müvafiq bəyanatı əsasında təsis edilmiş və bu ölkənin həmsədri olduğu Ərzaq Sistemlərinin Transformasiyası üzrə Çempionlar Alyansı ilə bağlı tədbirdə də COP29 mövzusunda fikirlər söylənilib. Azərbaycanın Norveç, İsveç, Finlandiya və Danimarkadakı səfiri Zaur Əhmədov COP29-la bağlı ölkəmizdə görülən hazırlıq işlərindən danışıb. Habelə Azərbaycanın COP29 sədrliyi tərəfindən kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində irəli sürdüyü təşəbbüsdən söz açıb. "Harmoniya" adlanan həmin təşəbbüs platforma və tərəfdaşlıqların daha yaxşı əlaqələndirilməsi yolu ilə səmərəliliyin artırılmasına xidmət edəcək.

Dünya COP29-da iştirak edəcək xarici media vasitəsilə Azərbaycanın gördüyü işlərdən xəbərdar olacaq. Yaxşı haldır ki, Bakıya gələcək jurnalistlərə vaxtaşırı treninqlər keçirilir. COP29-a hazırlıqlar, o cümlədən jurnalistlərin təcrübələrinin artırılması məqsədilə keçirilən tədbirlərdə BMT Katibliyinin iqlim mütəxəssisləri iştirak edirlər. Bu cür treninqlərdən biri də bir neçə gün əvvəl Almaniyanın Bonn şəhərində keçirilib. Müxtəlif dillərdə təşkil olunan həmin seminar-treninqdə bir sıra ölkələrdən olan jurnalistlər iştirak ediblər.

Xarici ölkələrdə COP29 mövzusunda keçirilən tədbirlər sırasına Bonn şəhərində ayrı-ayrı mövzular üzrə ard-arda iki gün keçirilən BMT-nin İqlim Dəyişmələri Konfransı çərçivəsində COP29 Sədrliyi Fəaliyyət Gündəliyinə daxil olan bəzi təşəbbüslərin təqdimatını və BMT-nin iqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının yardımçı orqanlarının 60-cı sessiyasını da əlavə etsək, qlobal tədbirin dünya üçün nə qədər əhəmiyyətli olduğu bir daha ortaya çıxır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ekoloji problemlərin həlli COP-la məhdudlaşmamalıdır

**COP29-un bu ilin noyabında Azərbaycanda keçirilməsinə qərar verilməsi belə qəti qənaətə gəlməyə imkan verir ki, ölkəmiz qlobal təbii problemlərin həllində nəinki aparıcı dövlətlərdən geri qalmır, hətta ekoloji tədbirlərə fəal qoşulan ölkələrin ön sırasındadır.**




Xəbər verildiyi kimi, bu günlər BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin dördüncü iclası keçirilmişdir. Bildirilmişdir ki, sonuncu iclasdan keçən müddət ərzində COP29 üzrə tədbirlər planına uyğun vacib addımlar atılır. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz iqlim dəyişmələri ilə qlobal mübarizədə nümunəvi liderlik nümayiş etdirir. Dövlət başçısı müxtəlif çıxış və müsahibələrində Azərbaycanın COP29 üzrə fəaliyyətinin əsas istiqamətlərini təyin edən mövzulardan danışır, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin iqlim dəyişmələri kontekstində üzləşdikləri problemlərin həllini ölkəmizin prioritet vəzifələrindən biri kimi dəyərləndirir.

Ötən müddət ərzində COP29 heyəti tərəfindən müxtəlif səviyyədə çoxsaylı məhsuldar görüşlər və məsləhətləşmələr keçirilmiş, COP29-dan gözləntilərlə bağlı müzakirə olunan mövzular ətrafında konsensusun formalaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev nəzərə çatdırmışdır ki, konfrans çərçivəsində Azərbaycan tərəfindən COP29-la bağlı bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur. COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev isə noyabrda Bakıda keçiriləcək iqlim sammiti ilə bağlı COP29 sədrliyinin baxış və strategiyasını təqdim etmiş, həmçinin bu ilin iqlim diplomatiyasının prioritet və gündəm mövzularını açıqlamışdır. O, həmçinin ambisiyaları artırmaq istiqaməti üzrə COP29 baş danışıqçısı "Milli Müəyyənləşdirilmiş Töhfələr" (NDC) və "Milli Uyğunlaşma Planları" (NAP) üzrə iddialı planlar və hədəflər təqdim etmək üçün tərəflərin açıq gözləntiləri olduğunu qeyd etmişdir. Y.Rəfiyev bu sənədlərin təqdim edilməsinin Paris Sazişinin "Gücləndirilmiş Şəffaflıq Mexanizmi" çərçivəsində cari ildə nəzərdə tutulan ilk "İkiillik Şəffaflıq Hesabatları" ilə tamamlanacağına diqqət çəkmişdir.

Ümumiyyətlə, Azərbaycan iqlim böhranının problemlərini həll etmək istiqamətində tərəflərin göstərdiyi həmrəylik ruhunu yüksək qiymətləndirir. Ölkəmiz, həmçinin tərəfləri Bonn Konfransı çərçivəsində yeni iqlim maliyyəsi hədəfi üzrə danışıqlarda mümkün olduğu qədər mövqelər arasındakı fərqləri aradan qaldırmağa və mövcud seçim variantlarını azaltmağa çağırır. Azərbaycanın mövqeyi belədir ki, bu sahədə uğurun təmin edilməsi üçün COP prosesindən kənarda da fəaliyyət göstərmək lazımdır. Qlobal maliyyə institutları, həmçinin G7 və G20 kimi birliklər gələcək görüşlərində bunu nəzərə almalıdırlar.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## *Əbdüləziz əl-TÜVEYCRİ:* "COP29 böyük imkanlara malik ölkədə keçiriləcəyinə görə uğurlu olacaq"



**Bütün dünya əhalisinin ərzaq təhlükəsizliyi təmin olunmalıdır. Aclıq və müharibələrin hökm sürdüyü ölkələri dəstəkləmək bizim əsas istiqamətlərimizdən olmalıdır. COP29-un bu istiqamətdə atılan mühüm addım olacağına inanıram.**

AZƏRTAC xəbər verir ki, bu barədə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) sabiq baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Əbdüləziz əl-Tüveycri "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı çərçivəsində təşkil edilən "Ərzaq və kənd təsərrüfatı sektorunun xüsusi halı" mövzusunda panel müzakirələrində çıxışında deyib.

COP29-un əhəmiyyətini vurğulayan Əbdüləziz əl-Tüveycri bildirib ki, bu tədbir bütün dünya dövlətləri aclıq və müharibələrdən əziyyət çəkən dövlətləri dəstəkləməyə çağırmaq üçün bir addımdır. Ərzaq çatışmazlığından əziyyət çəkən ölkələri dəstəkləmək bütün bəşəriyyət gələcəyinə verəcəyimiz dəstəkdir", - deyə o əlavə edib.

ICESCO-nun sabiq baş direktoru deyib ki, COP29 böyük imkanlara malik ölkədə keçiriləcəyinə görə uğurlu olacaq.

# COP 29 Azərbaycana nə verəcək?!

## Beynəlxalq toplantı ölkəmizin qlobal ekosistemə inteqrasiyasını sürətləndirəcək

**"Bu gün iqlim dəyişikliyi bütövlükdə qlobal cəmiyyəti təhdid edən ən mühüm problemlərdən biri kimi qəbul edilir. Bu da bir faktdır ki, problemlə ən effektiv mübarizə heç şübhəsiz fərdlərin iqlim böhranı haqqında məlumatlandırılması və bu problemə səbəb olan faktorları minimuma endirəcək rəftar və davranışlar sərgiləmələrini stimullaşdırmaqdan ibarətdir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin departament müdiri Seymur Əliyev deyib. O hesab edir ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində, ilk növbədə, iqlim dəyişikliyi üzrə qlobal kommunikasiyanı daha da irəli apararaq bu əsasda həm aktivizm, həm də ekodost davranış istiqamətləri üzrə yeni impulslara səbəb olacaq. Digər tərəfdən, COP29-un ölkəmizdə keçirilməsi istər ölkə imici, istərsə də "yaşıl enerji" sahəsindəki dövlət siyasəti üçün həm qlobal, həm də lokal mənada proseslərin gedişinə müsbət təsir edəcək.

Onun sözlərinə görə, beynəlxalq konfrans "yaşıl enerji" sektoruna xarici investisiyaların cəlb edilməsi ilə yanaşı, ölkəmizin alternativ enerji bazarlarına çıxış imkanları üçün də müstəsna əhəmiyyətə malikdir. İqtisadi diversifikasiya istiqaməti kimi "yaşıl iqtisadiyyat"a keçid iqtisadi inkişafı və investisiyaları artırmaq, eyni zamanda ətraf mühitin keyfiyyətini və sosial inklüzivliyi yaxşılaşdırmaq baxımından da dövlət siyasətinin iqtisadi sahədə mərkəzi determinantı kimi qiymətləndirilə bilər.

S.Əliyev qeyd edib ki, tədbirin miqyası və iştirakçıların təsir gücü baxımından konfrans "yaşıl iqtisadiyyat"a transformasiya yolunu seçmiş ölkəmiz üçün qlobal ekosistemə inteqrasiyanı daha da sürətləndirə bilər: "COP29 çərçivəsində mümkün birgə əməkdaşlıq formatları siyasət qərarvericilərinə "yaşıl maliyyə təşviqləri"nin effektivliyini təmin etmək üçün alternativ baxış fürsətləri də yaratmış olacaq. Konfrans, eyni zamanda siyasət transferləri kontekstində iqlim dəyişikliyinə yönəlik dövlət siyasətlərinin müqayisəli təhlili və təcrübə mübadiləsi baxımından da dəyərləndirilməlidir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *Leyla HƏSƏNOVA:* "İqlim dəyişikliyi ilə bağlı həllər hazırlayarkən gənclərin nəzərə alınması zəruridir"

**Mən iqlim dəyişikliyi ilə mübarizədə yeni təməlimizin nə olduğunu düşünürdüm və başa düşdüm ki, o, əslində, gənclər və uşaqlar da daxil olmaqla, hər masanı, hər səviyyəni əhatə edir. Bu, yeni normadır. İqlim dəyişikliyinin nəticələrinin ağır yükünü ən uzun müddət daşıyacaq olanlar gənclərdir. Bu gün atdığımız addımlar və verdiyimiz qərarlar uşaqlara, gənclərə və gələcək nəsillərə birbaşa təsir edəcək.**

AZƏRTAC xəbər verir ki, bu sözləri "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantının Zəngilanda keçirilən "Siyasət: Lobbiçilər, Gənclər, qadın qrupları, fəallar və ictimaiyyətin iştirakı" mövzusunda panel iclasında COP29-un gənclər iqlim çempionu Leyla Həsənova söyləyib.

Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə bağlı həllər hazırlayarkən gənclərin nəzərə alınması zəruridir.

"Bizim nəsil müdafiə etdiyi siyasətlərin həm iddialı, həm də yerli reallıqlara əsaslanmasını təmin etməlidir. Gənclərin qlobal iqlim gündəliyinin formalaşmasında və yerlərdə fəaliyyətin səfərbər edilməsində praktiki iştirakı əvəzsizdir. Gənclərin iqlimə uyğunlaşma prosesində iştirakı təkcə faydalı deyil, həm də vacibdir", - deyə L.Həsənova vurğulayıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Cozep Borel özünə erməni desəydi, daha yaxşı olardı"

**"44 günlük Vətən müharibəsinə qədər bizə belə gəlirdi ki, Avropanın böyük dövlətləri, nüfuzlu təşkilatları Qarabağ həqiqətlərini başa düşüb və Azərbaycanı müdafiə etməyə hazırdırlar. Amma çox təəssüf ki, belə olmadı".**

Milli Məclisin deputatı Anar İsgəndərov "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, ölkəmizin İkinci Qarabağ savaşındakı qələbəsindən sonra Qərb dövlətlərinin iç üzü açılıb: "Bəzi Avropa ölkələri, erməni lobbisinin əlində alətə çevrilən "diplomatlar" ermənilərdən daha çox erməni olmağa başlayıblar. Bunlardan biri də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Boreldir". Deputatın fikrincə, əslində, Borel özünə erməni desəydi, daha yaxşı olardı, çünki daha çox erməni kimi hərəkət edir.

A.İsgəndərov bildirib ki, müharibədən sonra Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli Bəyannaməyə əsasən, Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli olsa da, amma bu şərtlərə riayət etmədi: "Erməni separatçıları mövqe tutduqları yerlərə həm ordu yerləşdirdilər, həm də bu əraziyə gizli yollarla silahlar gətirdilər. Borel başda olmaqla Avropa dövlətlərinin bəzi rəsmiləri bunu alqışladılar və Azərbaycanı ittiham etməyə başladılar. 2023-cü ilin sentyabrında Azərbaycan tərəfi antiterror tədbirləri həyata keçirəndən sonra separatçı yuvasını darmadağın etdi. Daha sonra Fransa başda olmaqla Avropa dövlətlərinin, eləcə də ABŞ-nin hay-həşiri dünyanı bürüdü. Amma Azərbaycan 90-cı illərin Azərbaycanı deyildi. Buna görə də Azərbaycan buna əhəmiyyət vermədi". Deputat qeyd edib ki, Avropa təşkilatlarının səsləndirdikləri "ermənilər Qarabağa geri qayıtmalıdır", "Azərbaycan tərəfindən etnik təmizləmə həyata keçirilir" kimi sərsəm fikirlər indi də C.Borel tərəfindən tez-tez təkrar edilir. Bu fikirlərdə



Azərbaycan tərəfindən həbs olunan cinayətkarların, quldurların geri qaytarılmalı, ermənilərin Qarabağa qayıtması üçün şərait yaradılmalı olduğu iddia olunur.

"Əlbəttə ki, bunlar artıq keçmişdə qalıb. Artıq "Dağlıq Qarabağ" deyilən qurum yoxdur, ermənilər isə könüllü, özxoşuna bu ərazilərdən köçüb gediblər. Azərbaycan müstəqil dövlətdir və Ermənistanla sülh müqaviləsinin imzalanması üçün hər zaman əlindən gələni edir. Azərbaycan tərəfindən sülh şərtləri Ermənistana təqdim edilib. Ermənistan da bu istiqamətdə işlər görmək istəyir. Məsələn, Qazaxın dörd kəndinin geri qaytarılması və sərhədin burada təyin olunması uğurlu hadisələrdən biridir. Azərbaycan dönə-dönə təkid edir ki, digər heç kim iki dövlətin daxili işlərinə qarışmasın, bu halda məsələ yoluna qoyula bilər" -, deyə deputat bildirib.

A.İsgəndərov vurğulayıb ki, məsələyə müdaxilə edən hər bir dövlətin öz marağı var və bu maraqlar iki dövlət arasında sülh müqaviləsinin imzalanmasına mane olur: "Azərbaycan bunu açıq şəkildə dünyaya bildirir. Eyni zamanda onu da nəzərə çatdırır ki, əgər Ermənistanda revanşist düşüncələr yenidən artarsa, bunun ağır nəticələri ola bilər. Azərbaycan öz ərazi bütövlüyünü qorumaq üçün hər cür addım atacaq. Amma Azərbaycanın fikri də, istəyi də sülhdür. Avropanın hansı təşkilatının rəhbəri, üzvü Azərbaycana böhtan atırsa, deməK, məqsədi bəllidir. Azərbaycan öz yolunda uğurla addımlayacaq".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Fransanın müstəmləkə siyasəti beynəlxalq səviyyədə ifşa olunur

### Bakı Təşəbbüs Qrupu müstəqillik istəyən xalqların mütəşəkkil mübarizə platformasına çevrilib

**Azərbaycan XXI əsrdə neokolonializmin hələ də davam etdirilməsinə son qoyulması, dünya ictimaiyyətinin diqqətinin bu problemə cəlb olunması üçün ardıcıl və fəal iş həyata keçirir.**



Təsadüfi deyil ki, bu gün Bakı Təşəbbüs Qrupu (BTQ) müstəmləkə zülmündən əziyyət çəkən xalqların azadlıq səslərinin çatdırılması, Fransa kolonializminin dünyada tanıdılması istiqamətində mütəşəkkil mübarizə platformasına çevrilib. Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası) kimi ölkələrin sözügedən təşkilatda aktiv iştirakı da buna bariz nümunədir.

Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən iyunun 20-də BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında kolonializmə qarşı mübarizəyə həsr olunmuş növbəti konfransın keçirilməsi ilə beynəlxalq ictimaiyyətin diqqəti bir daha bu məsələyə cəlb edildi.

### Müstəqilliyə və fundamental azadlıqlara doğru

"Müstəqilliyə və Fundamental Azadlıqlara doğru: Müstəmləkəçiliyə son qoyulmasında C24 Komitəsinin rolu" adlı konfrans BMT-nin Müstəmləkə altında olan ölkələr və xalqlara müstəqillik verilməsi haqqında bəyannaməsinin icrası ilə bağlı yaradılmış xüsusi Komitə - C24-ün illik iclası çərçivəsində baş tutub.

Konfransda Fransa və Niderlandın işğalı altında olan 8 ərazidən - Korsika, Fransız Qvianası, Qvadelup, Martinik, Maohi Nui (Fransız Polineziyası), Kanaki, eləcə də Sent-Martin, Bonayre, həmçinin ABŞ, Fransa, Braziliya, Qəmər Adaları İttifaqı, Qayana və Niderlanddan rəsmi şəxslər, müstəqillik hərəkatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər, deputatlar və tədqiqatçılar iştirak ediblər.

Təşkilatın şöbə müdiri Elgün Hacıyev bildirib ki, BTQ sayca 11-ci beynəlxalq konfransını təşkil edib və müstəmləkə ərazilərinin üzləşdiyi problemlər Fransanın tətbiq etdiyi blokadadan səmərəli şəkildə çıxmaqla dünya ictimaiyyətinin diqqətinə çatdırılıb.

Fransız Polineziyasının hakim "Tavini" Partiyasının Siyasi məsələlər üzrə direktoru Riçard Tuheyava deyib ki, müstəmləkəçi ölkə olan Fransa C24-də faktiki olaraq iştirak etmir və Fransız Polineziyası ilə bağlı BMT-nin Nizamnaməsinə uyğun addımlar atmır. Yeni Kaledoniyanın xarici işlər naziri Mikhael Forrest xalqının çətin dönəmdən keçdiyini diqqətə çatdırıb və Fransa polisi tərəfindən öldürülən mülki şəxslərin xatirəsinin yad edildiyi üçün konfrans iştirakçılarına təşəkkür edib. Bildirib ki, Bakı Təşəbbüs Qrupunun bu konfransı Yeni Kaledoniya kimi müstəmləkəçilikdən əziyyət çəkən xalqlara öz səslərini eşitdirmək imkanı yaradıb.

Tədbirdə Sent-Martin, Korsika, Martinik, Fransız Qvianası, Qvadelup və Bonayredən olan müstəqillik hərəkatı üzvləri onları müstəmləkə altında saxlayan Fransa və Niderland hökumətlərinin bu ərazilərdə həyata keçirdiyi kolonial siyasət, habelə ərazinin sahibi olan yerli xalqların fundamental hüquqlarının kobud şəkildə pozulması, təbii sərvətlərinin qanunsuz talan edilməsi və beynəlxalq öhdəlikləri yerinə yetirməməsi haqqında ətraflı məlumat veriblər və yerli xalqların tələblərinə məhəl qoymayaraq hələ də müstəmləkəçilik siyasətini davam etdirməsini sərt şəkildə qınayıblar.

İştirakçılar təmsil etdikləri xalqların tələblərini və səsini dünya ictimaiyyətinə çatdıran Azərbaycana dərin minnətdarlıq ifadə ediblər və beynəlxalq platforma rolunu oynayan Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə müstəqilliyin uzaqda olmadığına inam ifadə ediblər.

Konfransın sonunda siyasi müraciət qəbul olunub. İştirakçılar BTQ tərəfindən təşkil edilən regional və qlobal tədbirlərdə iştiraklarını daha da fəallaşdırmağa dair öhdəlik götürüblər, həmrəylik addımlarını gücləndirməklə bağlı qərar qəbul ediblər.

### Qətiyyətli mübarizə

Özünü dünyaya "demokratik" ölkə kimi sırımaq istəyən Fransa müstəmləkə siyasətini davam etdirir, özündən minlərlə kilometr uzaqda yerləşən ərazilərin sərvətlərini talayır, insanlarını kölə yerinə qoyur, beynəlxalq hüququ ayaqlar altına ataraq azadlıq, müstəqillik tələb edən yerli xalqların istəklərini qanla boğmaqdan belə çəkinmir. Bütün dünya Makron hakimiyyətinin Kanakidə müstəqillik tələbi ilə ayağa qalxan kanaklara qarşı qəddarlıqla güc tətbiq etməsinə, etirazçıları öldürməsinə şahidlik etdi.

Müstəmləkəçi ölkə Yeni Kaledoniyada törətdiyi qanlı əməllərin xarici aləmə sızmaması üçün informasiya blokadası həyata keçirir. Amma Azərbaycan Fransanın müstəmləkəsi altında saxladığı xalqların insan hüquqlarını pozmasını, müstəqillik tələb edənləri həbs etməsini, öldürməsini beynəlxalq səviyyədə ifşa etməkdədir. Yəni Azərbaycan neokolonializmlə mübarizəyə qətiyyətlə öndərlik edir və müstəqillik uğrunda mübarizəyə qalxan yerli xalqların nümayəndələri Bakı Təşəbbüs Qrupu ətrafında birləşərək azadlıq səslərini daha gur şəkildə dünyaya çatdırırlar.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## BMT-də Fransanın Yeni Kaledoniya, Korsika və Martinikdəki zorakılıqları pislənilib



**Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə BMT-nin Nyu Yorkdakı Baş Qərargahında "Müstəqillik və fundamental azadlıqlara doğru: müstəmləkəçiliyə son qoyulmasında C-24 Komitəsinin rolu" mövzusunda keçirilən beynəlxalq konfransda kolonial ölkə olan Fransanın Yeni Kaledoniya, Korsika və Martinikdə zorakılıqları pislənilib.**

"Report" xəbər verir ki, BMT-nin müstəmləkə altında olan ölkələr və xalqlara müstəqillik verilməsi haqqında bəyannamənin icrası ilə bağlı yaradılmış xüsusi Komitə - C24-ün illik iclası çərçivəsində baş tutan tədbirdə Fransız Polineziyasının hakim Tavini Partiyasının siyasi məsələlər üzrə direktoru Richard Tuheiava, eləcə də Saint-Martin, Korsika, Martinik, Fransız Qvianası, Qvadelupe və Bonayredən olan müstəqillik hərəkatı üzvləri onları müstəmləkə altında saxlayan Fransa və Niderland hökumətlərinin bu ərazilərdə həyata keçirdiyi kolonial siyasət, habelə ərazinin sahibi olan yerli xalqların fundamental hüquqlarının kobud şəkildə pozulması, təbii sərvətlərinin qanunsuz talan edilməsi və beynəlxalq öhdəlikləri yerinə yetirməməsi haqqında ətraflı məlumat veriblər və yerli xalqların tələblərinə məhəl qoymayaraq hələ də müstəmləkəçilik siyasətini davam etdirməsini sərt şəkildə qınayıblar.

İştirakçılar təmsil etdikləri xalqların tələblərini və səsini dünya ictimaiyyətinə çatdıran Azərbaycana dərin minnətdarlıq ifadə ediblər və beynəlxalq platforma rolunu oynayan Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə müstəqilliyin uzaqda olmadığına inam ifadə ediblər.

Konfransın sonunda siyasi müraciət qəbul olunub. İştirakçılar BTQ tərəfindən təşkil edilən regional və qlobal tədbirlərdə iştiraklarını daha da fəallaşdırmaq, BMT çərçivəsində öz mübarizələrini gücləndirməyə dair öhdəlik götürüblər.

Xatırladaq ki, tədbirdə hazırda Fransa və Niderlandın işğalı altında olan 8 ərazidən - Korsika, Fransız Qvianası, Qvadelupe, Martinik, Maohi Nui (Fransız Polineziyası), Kanaki (Yeni Kaledoniya), eləcə də Sent-Martin, Bonayre, həmçinin ABŞ, Fransa, Braziliya, Qəmər Adaları İttifaqı, Qayana və Niderlanddan rəsmi şəxslər, müstəqillik hərəkatlarının rəhbər şəxsləri, dekolonizasiya üzrə ekspertlər, deputatlar və tədqiqatçılar iştirak ediblər. Eyni zamanda El-Salvador, Argentina, Suriya, Əlcəzair, Braziliya və Fələstinin BMT-dəki daimi nümayəndəliklərinin diplomatları konfransın işinə qatılıblar.

## *Korsikalı siyasətçi:* "Məqsədimiz Korsikanın Fransa müstəmləkəsi olmasını dünyaya çatdırmaqdır"

**BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil olunmuş tədbirdə Korsikadakı vəziyyəti göstərmək üçün iştirak etmişik.**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Korsika Assambleyasının sabiq prezidenti Jan-Qi Talamoni deyib.

O bildirib ki, Korsika, həqiqətən, müstəmləkədir, müstəmləkəçiliyin bütün şərtləri bu ərazilərdə öz əksini tapıb. "Əsas məqsədimiz bunu dünyaya çatdırmaqdır. Korsikanın Fransa müstəmləkəsi olması artıq sübuta yetirilib. Hazırda əsas məsələ bizim bu müstəmləkəçilikdən azad olmaq üçün nə edəcəyimizdir. Biz beynəlxalq hüquqa uyğun olaraq dekolonizasiya yolunu tapmaq istəyirik. Buna görə Korsikanın BMT-nin özünü idarə etməyən ərazilər siyahısına salınmasını tələb etmişik. Korsikanın bu siyahıya salınması üçün beynəlxalq ictimaiyyətin dəstəyinə ehtiyacımız var. Bu cür platformanı bizə yaratdığı üçün Bakı Təşəbbüs Qrupuna təşəkkür edirik", - deyə korsikalı siyasətçi vurğulayıb.

O, həmçinin təcavüzə məruz qalmış kanak xalqına dəstəyini ifadə edib.

## *BMT-nin eksperti:* "Müstəmləkə ərazilərinin nümayəndələrini bir araya toplamaq çox yaxşı təşəbbüsdür"

**"Dünyada olan müstəmləkə ərazilərinin nümayəndələrini bir araya toplamaq çox yaxşı təşəbbüsdür".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Bakı Təşəbbüs Qrupu tərəfindən BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında "Müstəqilliyə və fundamental azadlıqlara doğru: Müstəmləkəçiliyə son qoyulmasında C24 Komitəsinin rolu" adlı beynəlxalq konfransda iştirak edən təşkilatın idarəçilik üzrə eksperti Karlayl Korbin deyib.

"Hər zaman eyni mövqedə olan insanlarla bir araya gəlib müzakirələr aparmaq mümkün olmur. Hekayələri dinləmək, ən əsası da birgə strategiyaları inkişaf etdirmək çox gözəl addımdır və Bakı Təşəbbüs Qrupu bunu edir. Ümid edirik ki, bu təmaslar davamlı olacaq", - deyə BMT-nin eksperti bildirib.

## *Nikola SARKOZİ:* "Makron öz mövqeyini və ölkəsini riskə atır"

**İyunun 17-də Fransada başlayan seçki kampaniyası davam edir. Növbədənkənar parlament seçkiləri (30 iyun və 7 iyul) ərəfəsində ölkədə siyasi vəziyyət daha da gərginləşib. Avropa Parlamentinə seçkilərdən sonra - iyunun 9-da Emmanuel Makronun 2022-ci ildə seçilmiş Milli Assambleyanı buraxmaq qərarı gərgin seçki kampaniyası ilə nəticələnib. Xatırladaq ki, sonuncu dəfə Milli Assambleya 1997-ci ildə respublikanın 22-ci prezidenti Jak Şirak tərəfindən buraxılmışdı.**

Ölkədəki mövcud siyasi narahatlıqla əlaqədar müntəzəm olaraq sosial sorğular keçirilir. "Le Figaro", LCI və "Sud Radio" üçün dərc edilən ən son "Ifop-Fiducial" sorğusu yeni seçki dinamikasını göstərib. Sorğunun nəticələrinə görə, son onilliklər ərzində ilk dəfə seçicilərin 64 faizi səsvermədə iştirak edəcək və onların 34 faizi millətçi Milli Birlik (RN) Partiyasına səs verəcək. Solçuların birləşməsi nəticəsində yaranan Yeni Xalq Cəbhəsi



(NFP) Partiyasının səslərin 29 faizini toplamaq ehtimalı var. Beynəlxalq məsələlərdə daxili fikir ayrılıqlarına və mübahisəli namizədliklərə baxmayaraq, bu koalisiya Jan-Lük Melanşonun seçicilərinin əksəriyyətini (92 faiz) cəlb edir. Avropa Parlamentinə seçkilərdə məğlubiyyətə uğramış Prezidentin "İntibah" Partiyasının isə səslərin cəmi 22 faizini toplayacağı gözlənilir.

Göründüyü kimi, fransız solçularının artan radikallaşması və onlarla mötədil sosialistlər arasında yaranan ittifaq seçkilərdə millətçi Marin Le Penin partiyasının işini asanlaşdıracaq. Beşinci Respublikanın rəhbəri etiraf edib ki, qitənin hər yerində millətçi partiyalar mövqelərini gücləndirib. Bu səbəbdən "Reuters"in qeyd etdiyi kimi, Makronun seçkilərə hazırlaşmaq üçün cəmi bir neçə həftə vaxt verməklə digər partiyaları çaşqınlığa salan planı əslində, iflasa uğraya bilər. Hətta onun düşərgəsindən olan bəzi qüvvələr növbədənkənar seçkilərin məqsədəuyğunluğuna şübhə ilə yanaşıblar. Məsələn, maliyyə naziri Brüno Le Mer etiraf edib:



"Parlamentin buraxılması prezidentin qərarıdır, onun səlahiyyətidir. Ancaq mən görürəm ki, bu, fransızlar arasında geniş rahatsızlıq, anlaşılmazlıq və qəzəb doğurub. Seçicilərimiz arasında gördüyüm budur". Fransanın keçmiş prezidenti Nikola Sarkozi də "Le Journal du Dimanche" qəzetinə verdiyi müsahibədə qeyd edib ki, Makron öz mövqeyini və ölkəni riskə atır və bu addım Fransanı oradan çıxması çətin olacaq xaosa sürükləyə bilər.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 10 mart (Bazar ertəsi günü) tarixli 133-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Yekşənbə, 7 cəmadiyəlaxir sənə 1337.
10 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## DÜZ YOL

Neçə gün əvvəl qəzetəmizdə şayiat cümləsindən [şayiə qəbilindən] olaraq bir xəbər dərc edilmişdi ki, bizim türk sosialistlərimiz öz taktikalarını dəyişib xarici sosialistlər əsasını qəbul etmək fikrindədirlər.

Baisi-məlalımız olan [bizi kədərləndirən] bu xəbər, Parlaman Sosialistlər İttifaqı sədri cənabları tərəfindən təkzib edilməklə, məlalımız rəf edilib [aradan götürülüb], əvəzində xoşhal olduq və bu əsilsiz xəbərin qəzetəmizdə nəşr edilməsindən dolayı izhari-təəssüf etməklə bərabər bəyani-etizarda bulunmağı [üzr istəməyi] dəxi lazım gördük.

Fəqət sosialistlərimizin rus dilində nəşr edilən "Zarya" qəzetəsi bəyani-etizarımıza iltifat etməyib, bizə istehza təriqi ilə [istehzalı bir şəkildə] kinayələr etməyi rəva görür və bu məsələ dolayısı ilə yazılmış baş məqaləsindən əzcümlə böylə anlaşılır ki, guya türk "Azərbaycan" qəzetəsi dəxi "Müsavat" partiyasına mənsub firqəvi bir qəzetə imiş.

Bu axırkı fəqərə [məsələ] barəsində bunu bəyan etməyi lazım bilirik ki, qəzetəmiz partiya qəzetəsi deyildir. Vətən istiqlalı yolunda çalışmaqdan ibarət olan məsləki, xüsusi firqəvi proqram daxilində məhdud deyildir.

Bu məslək genişliyi, hər bir partiyanın Azərbaycan istiqlalına kömək yolu ilə denilən sözlərini və görülən işlərini qəzetəmiz sütununda təmcid [tərifləyib] və təqdir edib, xalq arasında nəşr və təmiminə [yayılmasına] böyük yol verir.

Qəzetəmizin yazılarına göz yetirməkdə olanlar şübhəsiz bunu bilirlər. Ancaq burasını heç də gizlətmirik ki, mövcud partiyalarımız arasında Azərbaycan istiqlalını kamalınca [mükəmməl surətdə] – biduni-haşiyə [haşiyə çıxmadan, kənar şərhə yol vermədən] – arzu etmək və bu yol uzunu gedərkən sağa və sola dönmək tərəddüdündən azad olub da rast [doğru, düz] bir istiqamət üzrə getmək qəsdini yalnız bir "Müsavat" firqəsində müşahidə etdiyimizdən, bu firqəni istiqlal xadimlərindən ən sadiqi hesab edib, onun fikir və arzularına qəzetəmizdə kamali-məmnuniyyətlə yer verməyi özümüzə borc bilirik.

Keçək əsl mətləbə:

"Zarya" qəzetəsi burasını bilməlidir ki, fövqəlzikr [yuxarıda deyilən] xəbəri biz durduğumuz yerdə, öz-özümüzdən ixtira etməmişdik və qəsdimiz də böylə bir əsilsiz xəbər buraxmaqla meydana "sensatsiya" salmaq deyildi. Müxbirimiz bu xəbəri bir yerdən eşitmişdi və xəbər sosialistlərimiz partiyasının taktikası gedişinin bizcə baisi-əndişə [narahatlığa səbəb] olan başqa bir yola çönməsi kimi calibi-etina bir fəqərə [diqqətəlayiq bir hadisə] olduğundan, çap etməyi lazım bildik ki, bunun doğru olub-olmadığını sosialistlərimizin öz ağzından eşidək.

Bu təşəbbüsümüzdə müvəffəqiyyət hasil oldu. Sosialistlərimiz dilləndilər və dillənib də xəbərin yalan olduğunu sözlə bəyan edib, bizi xoşhal etdilər.

Fəqət... bir var ki, "söz" ola, bir də var ki, "iş" ola.

İştə bu "iş", yəni sosialistlərimizin bu axırkı günlərdə müşahidə etməkdə olduğumuz bir para rəftarı həman xəbərin, təkzibə rəğmən, tamamilə yalan olmadığını isbat etməkdədir. O rəftarın təfsilatından dəlil olmaq üzrə bəhs açmağı hələlik yersiz hesab edib, ümumi olaraq bu rəftara işarə edirik ki, xarici sosialistlərin Azərbaycan istiqlalı əsasına meyl edəcəyini arzu edib gözlədiyimiz bir halda, biləks [əksinə] bizim sosialistlərimizin o tərəfin ümum Azərbaycan istiqlalı tərəfdarlarınca qeyri-qabili-qəbul [qəbuledilməz]ədd [hesab] edilən əsasları tərəfinə mail olduqlarını müşahidə edirik və bu da o zamanda ki, bu xaricilər, Könüllü ordusunun ölkəmizdən getməsinə və öz əllərində saxlamaqda olduqları flotun [donanmanın] tərk-silah edilməsinə qarşı Azərbaycan istiqlalına və məmləkətimizin asayişinə heç də müvafiq olmayan bir nəzər ibraz edib [bir mövqe nümayiş etdirib], təkrar bizi inandırdılar ki, bunlardan vətənimiz xeyrinə bir mənfəət gözləmək, öküzdən süd ummaq kimi boş bir arzudur.

Bu səbəbdən o sosialistlərin bizə yaxınlaşması gözlənildiyi halda, bizim sosialistlərimizin onlara tərəf meyl etməsi fəqərəsini "Vperyod" kimi qəzetələr təbrik edib kamali-xoşnudi [böyük məmnuniyyət] ilə alqışlarsa, bizim qəzetəmiz bu xüsusda ancaq təəssüflər izhar edə bilər.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 15-inci iclas

Altı martda Məclisi-Məbusanın növbəti iclası vaqe olmuşdur.

**Sədr** - İclası açaraq ibtida [əvvəla] sabiq Seym üzvü və Milli Şura müavini-sədri Mirhidayət Səidov ilə general-mayor Süleyman Əfəndizadənin vəfat etmiş olduqlarını xəbər verərək, mərhumların ailələrinə taziyət teleqrafı çəkməyi və tərhimi-ruhu [ruhuna rəhmət oxumaq] üçün Parlamanın ayağa qalxmasını təklif edir. *(Hamı qalxır)* Və teleqraf çəkməyə Heyəti-rüəsanı [Rəyasət heyətini] vəkil edirlər.

Bədəhu [sonra] Hacı Kərim Sanıyevin doğru intixab edilməməsi [seçilməməsi] haqqında şikayət varid [daxil] olduğu bildirilərək Mandat komissiyasına verilir.

Sonra Yusif Əhmədzadəyə 3 həftə məzuniyyət verilməsi haqqındakı ərizəsi qəbul olunur.

Üçüncü növbədə mükəlləfiyyəti-əsgəriyyə [hərbi mükəlləfiyyət] haqqında Daxiliyyə Nəzarəti tərəfindən təqdim edilmiş layihə bilamüzakirə Ləvaehi-qanuniyyə, [Qanun layihələri], Etibarnamə komisyonuna verilir.

Növbədə "İttihad" fraksiyasının təklifidir. Bu fraksiya öz daxilindən Məclisi-Məbusana bir müavini-sədr seçilməsini istəyir. Bir qədər danışıqdan sonra bu məsələ gələn iclasa buraxılır.

Növbədəki məsələ Azərbaycan Məclisi-Məbusanının nizamnaməsi müzakirəsidir. Nizamnamənin fəsli oxunaraq yerdə qalanı gələcək iclasa buraxılır.

Bundan sonra patentlərin artırılması və ispirt və tənbəki aksizlərinin təzayüdü [artırılması] haqqındakı qanun layihələrinə baxılaraq bir qədər mübahisə nəticəsində əksəriyyəti-ara ilə [səs çoxluğu ilə] hər iki layiheyi-qanuniyyə qəbul olunur.

**Dağıstan haqqında**

Nəhayət, Rəisi-vükəla [Baş nazir] Xan Xoyski həzrətləri növbədən xaric söz alaraq Denikinin hücumu münasibətilə Dağıstanın vəziyyəti və Azərbaycanın rəftarı haqqında məlumat verərək bəyan edir ki:

Bu münasibətlə Dağıstan Hökuməti-Cümhuriyyəsinin Azərbaycandakı siyasi nümayəndəsi martın 5-ində bizə böylə bir məktub yazdı:

*"Nazir həzrətləri!*

*Şimali Qafqaziya və Dağıstan millətləri Rusiya inqilabının yaxşı vaxtlarında azad və asudə olaraq öz xahişləri ilə bir siyasi ittifaq əmələ gətirərək istiqlaliyyət elan və Hökumət, həm Parlaman təşkil etmişdirlər.*

*General Tomson 27 noyabr 1918-də Cümhuriyyət Hökuməti namına [adına] bir məktub yazaraq Dağıstan istiqlal və hökumətinin Müttəfiqlər tərəfindən Sülh Konfransının qərarınadək qəbul edildiyini bildirmişdi. Buna baxmayaraq Könüllü ordu, dağıstanlıların Müttəfiqlər komandanlığına etimadından bilistifadə [istifadə edərək], bolşevizmlə mübarizə bəhanəsi ilə əhdşikənanə [xaincə] bir surətdə cümhuriyyət daxilinə soxulmuşdur. Şimali Qafqaziya millətləri Könüllü ordunun təcavüzkaranə məqsədlərini gördükdə, öz qəzəbini saxlaya bilməyərək Hökumətin xahişinə rəğmən əldə silah olaraq Könüllü ordu müqabilinə çıxmışdır.*

*General Lyaxovun Tersk-Dağıstan nahiyələri baş naçalniki təyin edilməsi, Cümhuriyyət hökumətinə ümuri-idarədən [idarə işlərindən] vaz keçib Dağıstan qoşunlarını buraxması təklif edilməsi, Dağıstanlılar İttifaqını mili parçalara ayırmaq layihəsi, Könüllü ordunun təkmili [təkmilləşdirilməsi] üçün dağıstanlılardan güclə əsgər aparılması, camaatın qaramal və məkulatının [ərzağının] güclə əlindən alınması (həczi) [müsadirəsi], bunların həpsi Könüllü ordu tərəfindən camaatın hüququna təcavüz və onların həyatını və Şimali Qafqaziya millətlərinin tərəqqi və təalisi [ucalması] üçün lazım olan şəraiti təhdiddən ibarət hərəkətlərdir.*

*Hökumətin xüsusi tapşırmasına görə, cənab nazir, bununla Könüllü ordunun hərəkatı müqabilinə qəti və ciddi surətdə protesto edirəm.*

*General Denikin ordusunun Dağıstanda qalması nəticəsi olaraq camaatın fəlakəti və qan axıdılması müqabilinə kəndi tərəfinizdən lazımi tədbirlər görmək üçün bu xüsusu nəzəri-etinanıza ərz ilə [diqqətinizə təqdim etməklə], bunu da əlavə edirəm ki, əgər Könüllü ordu ilə münasibətimiz bir nizama salınmasa, Hökumətim Cümhuriyyətinin sələməti və Şimali Qafqaziya, həm Dağıstan millətlərinin mövcudiyyəti-cismaniyyəsini [fiziki mövcudluğunu] müdafiə uğrunda müsəlləh [silahlı] müqavimətindən belə geri durmayacaqdır.*

*Ehtiram və übudiyyətimin [itaətimin] qəbulunu rica edirəm.*

*Azərbaycan Hökuməti nəzdində*
*Qafqaziya Cibaliyyun [Dağlılar] İttifaqı*
*Hökuməti-Cümhuriyyəsi nümayəndəsi"*

Bu məktubu aldıqdan sonra Xan Xoyski həzrətləri general Denikin barəsində Müttəfiqlər komandanı general Tomsona böylə bir nota göndərmişdir:

*"Bakıda olan Müttəfiqlər qüvvəsi komandanı general Tomson cənablarına.*

*Azərbaycan Hökuməti keçən gün martın 5-ində Dağıstan Hökumətindən surəti təqdim olunan bir məlumat almışdır. Bu məlumatdan görünür ki, Könüllü ordu Dağıstan Cümhuriyyəti daxilinə soxulub Hökumətə iş başından çəkilmək və bütün ordunu buraxmaq təklifində bulunmuşdur. Bununla bərabər, eyni zamanda Könüllü ordu nümayəndələri Könüllü ordudan ötrü Dağıstan əhalisindən ibarət əsgəri dəstələr təşkilinə və əhalinin qaramalını və ərzaq şeylərini həcz [müsadirə] etməyə başlamışlar. Könüllü ordu ali nümayəndələrinin general Denikin ilə bərabər dəfələrlə verdikləri elanlara istinadən Qafqaziya əhalisi zənn edə bilər ki, Könüllü ordunun məqsədi Rusiyada olan bolşevizm və hərc-mərcliklə mübarizədən ibarət olub, azadlıq arzusunda olan və istiqlaliyyətləri Yevropa və Amerika hökumətləri tərəfindən etiraf edilən [tanınan] millətlərə təcavüz etmək deyildir. Bu nöqteyi-nəzərlə Azərbaycana dost olan Dağıstan əhalisinin müstəqil hüquqlarına təcavüz etmək işləri Azərbaycan Hökuməti tərəfindən protestosuz qala bilməz. Bununla bərabər, Azərbaycan Hökuməti bu zənndədir ki, hazırda Şimali Qafqaziya və Dağıstan əhalisi qarşısında durmuş Rusiya inqilabi-əziminin fütuhatını [Böyük Rusiya inqilabının nailiyyətlərini] təhdid edən təhlükə bu yaxın gələcəkdə Qafqaziyanı bir hərc-mərclik və qan dəryasına döndərər ki, bunun da nişanələri Qara dəniz sahilində Soçi nahiyəsində görünmüşdür.*

*Bu şərait üzrə Azərbaycan Hökuməti öz qövmü olan Dağıstan əhalisinin öz həyatını və müqəddəs istiqlaliyyətini müdafiə etmək işində hücum edən irticai qüvvələr əleyhinə qeyri-müsavi mübarizəsində sakit durammaz. Buna görə, Azərbaycan Hökuməti hər bir qüvvəsi ilə bu ağır dəqiqədə Dağıstan əhalisinin köməyinə getməyə özünü borclu bilir.*

*Azərbaycan daxilində Müttəfiq dövlətlər baş nümayəndəsi olmağınız sifəti ilə bu barədə siz alicənaba xəbər verib bütün Qafqaziyanı tuta biləcək yanğını və qan tökülməsini bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü insaniyyət naminə tə'kidanə sizdən xahiş edirəm ki, general Denikinin Könüllü ordusu tərəfindən Dağıstan Cümhuriyyətinə edilən hərəkatı dayandırmaq və onların Dağıstan Cümhuriyyətindən tezliklə kənar edilmələri üçün ən qəti tədbirlər görəsiniz.*

*Sizdən xahiş edirəm ki, öz binagüzarlıqlarınız [addımlarınız] barəsində məni də xəbərdar edəsiniz.*

*Kamali-ehtiramla*
*Rəisi-vükəla və Xariciyyə naziri*
*Fətəli xan Xoyski"*

*(mabədi var)*

## TELEQRAF XƏBƏRLƏRİ

* Forest - 4 mart. Ukraynalılar ilə polyaklar arasında hərəkati-hərbiyyə başlanmışdır. Müttəfiqlər heyəti Lvovdan çıxırlar.

* Üç gün sakitlikdən sonra polyak-alman cəbhəsində hərəkati-hərbiyyə başlanmışdır.

* İngilis mətbuatının yazdığına görə, Almaniya Hökuməti Almaniyanın mərkəzi və cənubi cəhətlərində əmələ [fəhlə] hərəkatını iskat etməkdən [sakitləşdirməkdən] acizdir.

**Vilson və Cəmiyyəti-Əqvam**

Amerika Rəisi-cümhuru Vilson Avropaya qayıdarkən Nyu-Yorkda bir nitq iradı ilə [nitq söyləməklə] ümum Amerika əhalisini Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] müavinət [yardım] etməyə dəvət eyləmiş və demişdir ki, Amerika əhalisinin əksəri Cəmiyyəti-Əqvama tərəfdardır.

Gizli diplomatiya başlıca onun ümumiləşməsindən ehtiyat edir. Hərgah, Cəmiyyəti-Əqvam təşkilatı olsaydı, çoxdan bəri gizli diplomatiya ilə hesablaşardı. Hərgah, Cəmiyyəti-Əqvam Serbiya məsələsini bütün cahan müzakirəsinə bir həftə əvvəl verə bilsəydi, Almaniya heç bir zaman müharibəni başlamazdı. Müharibə başlatmaq ərəfəsində ingilis Xariciyyə Nəzarəti təklif eyləmişdi ki, bu məsələ bir-iki gün təxirə salınsın, tainki Avropa nümayəndələri bir-birləri ilə görüşüb bu məsələni həll etsinlər. Fəqət Almaniya müzakirat üçün vaxt vermədi. Bütün aləmi-bəşəriyyət Almaniyanın millətlərin hüququnu tapdalamaq fikrini duydu. O zaman hamı millətlər Almaniyaya qarşı mübarizədən ötrü birləşdilər. Bu da bizə aşkar surətdə məlumdur ki, hərgah Almaniya İngiltərənin Rusiya və Fransa tərəfinə keçəcəyini bilsəydi, heç bir vaxt böylə bir macəraya iqdam [təşəbbüs] etməzdi. Cəmiyyəti-Əqvam qanuni millətlərin hüququnu tapdalamaq istəyənlərə qarşı ehtiyatkarlıq vəzifəsini ifa edəcək, nəinki yalnız İngiltərədə, Amerikada və sair dövlətlərdə böylə macəraculuğun [avantüranın] təkrar etməməsi işlərində iştirak edəcəkdirlər. Uğrunda bu qədər qanlar tökülüb də qazanılan şüarı [prinsipi] saxlamaq üçün Cəmiyyəti-Əqvam bir etilaf [razılaşma, uzlaşma] müəssisəsidir. Avstriya-Macarıstan və Türkiyədə azad edilən millətlər bizə müraciət edirlər. Biz də onların halının islah edilməsinə çalışmalıyız.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında**

Sülh Konfransında olan bütün komissiyalara düsturuləməl [təlimatnamə] göndərilərək təklif edilir ki, şənbəyədək öz dakladlarını versinlər. Belçikanın hüdud komisyonu işi qurtara bilməmişdir.

* Parisdə Almaniya vəkillərini istiqbala [qarşılamağa] hazırlaşırlar. Hər halda Klemanso, Lloyd Corc, Vilson Almaniya Baş vəzirinə sülh şərtnaməsini qiraət edəcəkdirlər. Sonra Baş vəzir Veymara övdət edərək [qayıdaraq] Parlamana daklad edəcəkdir.

Tiflis - 5 mart (ingilis mətbuatı). "Tayms"ın Paris müxbiri dəniz işləri barəsində olan mütarikə şərtnaməsinin [atəşkəs sazişinin] təfsilatını xəbər verir. Belə ki, yeni mütarikə şərtnaməsi Almaniya, Avstriya, Türkiyə və Bolqariyaya şamildir. Bunların mükəmməl bir surətdə tərk-silah etdirilməsi tələb edilir. Bütün Almaniya sualtı qayıqları, sualtı təxlis [xilasetmə] gəmiləri, Kildəki sualtılara məxsus doklar qismən Müttəfiqlərə təhvil [verilməli], qismən yaramaz hala salınmalıdır. Bunlar üçün də iki həftə vaxt qoyulmuşdur. Məhv edilmiş gəmilərin materialları sülh ehtiyacatına sərf edilməlidir. Müttəfiqlərin iskələlərində [limanlarında] qalmış olan Almaniyanın gəmiləri tutulmuş hesab edilərək yaramaz hala salınacaqdır.

Ən yaxın bir zamanda nemeslər zeyldəki [aşağıdakı] gəmilərin silahlarını Müttəfiqlərə təslim etməlidirlər: "Oldenburq", "Türingen", "Ostrisland", "Hel-qoland", "Pozen", "Vestfalen", "Reynland", "Nassau"; yüngül kruvazerlərdən [kreyserlərdən] "Pilato", "Qraudens", "Regensburq", "Ştralzund", "Strasburq", "Soteburq", "Kolberq", "Ştutqart", 42 müxrib gəmi [destroyer], 50 torpedo lodkası [qayığı].

Bundan əlavə, yeni inşa edilən gəmilər yaramaz hala salınmalıdır. Hel-qolandda olan hərb[i] iskələ [liman] və tabyalar [istehkamlar, redutlar] Almaniyanın xərcinə təxrib edilməlidir. Cəzirələrin [adaların] müqəddəratı isə konfransda həll ediləcəkdir. Baltik boğazını bağlayan təhkimatın [müdafiə qurğularının] həpsi bərtərəf edilməlidir [aradan götürülməlidir]. Düşmən iskələlərində yaxud Müttəfiqlərin iskələlərində olan müavinətçi kruvazerlər ticarət gəmilərinə təbdil ediləcəkdirlər [çevriləcəklər]. Bu şərait [şərtlər] altına 31 alman, 40 Avstriya-Macarıstan gəmiləri daxildir.

Nauen, Hannover və Berlində olan simsiz teleqraf mövqiflərindən [stansiyalarından] ancaq ticarət məqsədi ilə istifadə etmək olacaqdır. Avstriyada Vyana, Budapeştədə, Poloda olan simsiz teleqraf mövqifləri hakəza [həmçinin] yuxarıdakı şərait altında olacaq və bunların ümumuna Müttəfiqlər kontrolluq edəcəkdirlər.

13 hərbi gəmi, 2 kruvazer, 10 yüngül kruvazer, 19 torpedolu lodka, 33 sualtı qayığı və 20 monitordan ibarət olan Avstriya flotu [donanması] Müttəfiqlərə təslim ediləcəkdir. Türkiyə və Bolqariyanın hərbi gəmiləri ilə də böylə rəftar ediləcəkdir. Qara dənizlə Bəhri-səfid [Ağ dəniz, Aralıq dənizi] arasında seyri-səfain işləri [gəmilərin hərəkəti] beynəlmiləl tərəfdən təmin və bütün təhkimat təxrib ediləcəkdir [bütün müdafiə qurğuları, maneələr ləğv ediləcəkdir]. Ticarət gəmilərinin qərqindən [batırılmasınan] dolayı varid olan xəsarətin [əmələ gələn ziyanın] düşmənlər tərəfindən əda edilməsi [ödənməsi] barəsində də şərtnamə vardır.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Hərbiyyə nazirinin miralay [polkovnik] [Həbib bəy] Səlimovun mirliva (general-mayor), minbaşı (podpolkovnik) [Nuh bəy] Sofiyev və Şıxlinskinin miralaylığa tərfisi barəsindəki məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Hərbiyyə nazirinin layihəsini təsvib [təsdiq] etməli.

* Hərbiyyə nazirinin hərbiyyə müəssisələrindən ötrü at alınması barəsindəki məruzəsindən [sonra] qət edilmişdir:

Hərbiyyə nazirinə əsgəri müəssisələrindən ötrü lazımi miqdarda at alınması tapşırılsın. Daxiliyyə Nəzarətinə tapşırılsın ki, at alınması, qiymət edilməsi və konvoy hesabında Hərbiyyə Nəzarətinə müavinətdə bulunsun.

* Ərazi nazirinin torpaq islahatı müdiriyyəti, Mirab [Suvarma] Müfəttişliyi təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ərazi Nəzarəti cənbində [nəzdində] işbu müəssisələri lüzumlu hesab etməli:

a) Torpaq islahatı müdiriyyəti;

b) Mirab müfəttişi müavinliyi.

Məzkur müavin, sular işləri yurist-konsuludur [hüquq məsləhətçisidir].

* Ərazi nazirinin Muğandakı su arxları təmiratından ötrü istiqraz açılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət ixtiyarındakı 20 milyon fonddan Muğandakı su arxları təmiratı üçün 200 min rublə buraxılsın. İşbu məbləğ Ərazi Nəzarətinin 1919-cu sənədəki smetasından verilməlidir.

* Rəisi-vükəlanın [Baş nazirin] İrəvan Müsəlman Milli Şura sədrinin cövhər [kerosin] buraxılması haqqındakı təşəbbüsatı haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət qətnaməsindən kənar olaraq – ki cövhər Ermənistandakı siyasi nümayəndə vasitəsi ilə buraxılmalıdır – İrəvan Müsəlman Milli Şurasının sədri Ağa xan İrəvanskinin təşəbbüsatına görə nağd hesabla müsəlmanların ehtiyacından ötrü 10.000 put cövhər buraxılsın. Fəqət Gürcüstan və Ermənistan tərəfindən həcz [müsadirə] edilməyəcəyi haqqında sənəd pişnihad [təqdim] etmək şərtdir.

* Daxiliyyə nazirinin Muxax dairəsi füqəra əhalisi üçün Zaqatal qubernatorunun müavinət təşəbbüsatı haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ərzaq Nəzarətinin Zaqatal quberni-yasındakı ərzaq ehtiyatından Muxax füqəra əhalisi üçün 1715 put buğda buraxılsın. İşbu buğda təqsimi [paylanması] Zaqatala qubernatoru ilə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] nümayəndəsinə mühəvvəl edilməlidir [tapşırılmalıdır].

* Daxiliyyə nazirinin Bakı şəhəri polisindən ötrü məvacib üçün para buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət ixtiyarındakı iyirmi milyon fonddan Daxiliyyə Nəzarətinə Bakı və Balaxanı-Sabunçu polis məxaricatı üçün 1.000.000 rublə buraxılsın. İşbu məbləğ Məclisi-Məbusanda Daxiliyyə Nəzarəti smetası təsdiq edildikdən sonra verilməlidir.

* Ümuri-Xeyriyyə və Nafiə nazirinin qaçqınlar üçün 10.000.000 para buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin layihəsi təsviblə [bəyənilməklə] tapşırılsın ki, təsdiqdən ötrü Məclisi-Məbusana layihə təqdim etsin.

* Post və Teleqraf nazirinin Azərbaycandan mal çıxarılmasının mən'i [qadağan edilməsi] qərardadının yenidən baxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məsələ Maliyyə və İqtisadiyyə komisyonuna verilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Dövləti Müfəttişlikdə**

Dövləti Müfəttiş [Əliağa] Həsənzadə həzrətləri Maliyyə Nəzarətinə bir böylə kağız göndərmişdir:

Bakıda sabiq Şura Hökuməti təşkilinədək Bakı Kontrol Palatası təhti-nəzarətində [tabeliyində] olan gömrük dairələrində Gömrük Vergiləri Departamenti qərardadına görə statistika tərtib edilirdi. Bu statistika malın nərədən gəlməsi, malik və başqanı [başqa məlumatları] havi olurdu [əhatə edirdi]. Sonralar böylə statistikalar Gömrük Vergiləri Departamentinə göndərilirdi. Orada isə məmləkətin mal gətirilməsini və çıxarılmasını havi [əhatə edən] məlumat tərtib verilirdi.

Bu iş şimdi, fəqət bir Bakıda qövldən feilə gətirilməkdədirsə də [icra edilməkdədirsə də], yenə bir çox məlumat buraxılır. Məsələn, malın nərədən gəlməsi və nərəyə getməsi yazılmayır. Böylə məlumatlar heç yerdə göndərilməmiş qalır.

Məmləkətin maliyyə və iqtisadiyyə cəhətlərindəki əhəmiyyəti və ticarət müqavilənamələri əqdində [bağlanmasında] lüzumiyyətindən dolayı Dövləti müfəttiş ehtimal edir ki, bütün gömrükxanalar cənbində [nəzdində] böylə məlumat cəm etmək üçün lazımi müəssisələr təsis edilsinlər.

Departament vəzifəsi Gömrük İdarəsi İşləri Departamentinə həvalə edilməlidir [tapşırılmalıdır].

Kağızın axırında müfəttiş həzrətləri Maliyyə Nəzarətinin nəzəriyyatını məlum etməyi [mövqeyini bildirməyi] rica və təmənna etmişdir.

**Maliyyə Nəzarətində**

Cümə günü axşam saat 5-də Maliyyə Nəzarəti cənbindəki [nəzdindəki] məvacibləri artıracaq komisyonun müşavirəsi olacaqdır.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

* Şərur qəzasının 267 nəfərədək müsəlman qaçqınları – ki Andranik dəstələri tərəfindən öz yurdlarından çıxarılmışlar – Cavad qəzasının Ağamalılar nam [adlı] kəndində səfil bir həyat keçirməkdədirlər. Bu vaxtlarda oraya azim olmuş [getmiş] Dövləti Xeyriyyə İşlərinin Bakı müfəttişi müavini onların hallarının fənalığını təsvir edir.

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] əmr vermişdir ki, təcili surətdə onlar üçün 6 put 27 girvənkə qənd, 33 ½ girvənkə çay, 500 arşın bez göndərilsin. Həman oraya gedəcək məmura tapşırılmışdır ki, orada 90 put buğda, 17 put arpa alınıb paylansın.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ərzaq Nəzarəti ilə etilafa girmişdir [razılığa gəlmişdir] ki, Qazax ərzaq anbarından nahiyə müfəttişliyinə min put buğda buraxılsın. Buğda Qazaxda fərarilər miyanında təqsim ediləcəkdir [qaçqınlar arasında bölüşdürüləcəkdir].

**Məsai Nəzarətində**

* Məsai Nəzarəti [Əmək Nazirliyi] öz məmuru Rəhim Hüseynzadə tərəfindən təqdim edilmiş qaçqınlara dair məruzəni Şurayi-Vükəlaya irsalən [Nazirlər Kabinetinə göndərərək] rica etmişdir ki, Gədəbəy civarında təcəmmö etmiş [toplaşmış] qaçqınlara təcili surətdə müavinət [köməklik] edilsin və hakəza Müttəfiq komandanlığın nəzərlərini ermənі vəhşiliklərinə cəm etməklə bərabər lazımi qədər qoşun qitəatı [hissələri] göndərmək üçün iqdamatda [təşəbbüsdə] bulunsun.

* Məsai Nəzarəti Gədəbəy fəhlələri haqqındakı qərardadları Kəsbkarlar [Həmkarlar] İttifaqı ilə Gədəbəy zavodunun fəhlə komitələrinə göndərib qövldən feilə [sözdən işə] gətirilməsi barəsində tədabir ittixaz etmişdir [tədbirlər görmüşdür].

## İNQİLAB DÖVRÜNDƏ İDİLBOYU [VOLQABOYU] TÜRK-TATARLARI

Mərkəzi Rusiya bolşeviklər istibdadı altında qalmağı kimi, Sibir və Ural boyları sağ istibdadçılar əlinə keçdi. Bu iki türlü istibdad içində qalan Orta Rusiya, həm Sibir türk-tatarlarının siyasi vəziyyətləri nə halda olduğunu bəyan etmək azərbaycanlı qardaşlarımız üçün əhəmiyyəti haiz [əhəmiyyət daşıyır] zənn edirəm. Buna binaən [buna görə] bir neçə məqalə ilə oranın həyatını təsvir etmək istəyirəm.

Orta Rusiya türk-tatarları ismi ilə Kazan şivəsində söyləyən türkləri adlandırırlar. Başqırdlar bəzi bir iqtisadi məsələlərdə və milli adətlərində Kazan müsəlmanlarından ayrılsalar da ümumən dil birlik səbəbli bu ayırma etibara alınmış idi. Lakin onların özlərinə məxsus hökumətləri olduğuna görə, onlar haqqında hələ sükut edib, sonra xüsusi məqalə dərc edərik.

Rusiyanın əski hökuməti vaxtında bir neçə əsrlər boyunca milləti-məhkumə olub yaşayan, məzkur [deyilən] hökumətin ən qəhərli zülmləri[ni] görmüş hüquqsuz tatar milləti üçün Fevral inqilabının nə tövr böyük bir səadət olduğu hər kəsin məlumudur. Çünki bu inqilab üç yüz ildən artıq vaxt əsir olan bir millətin milli müqəddəratını özü həll qılmağa imkan verən böyük bir inqilab idi. Ona görə də bu millət inqilabdan fayda almağa borclu idi. Hürriyyətdən nə tövr fayda çıxarmaq mümkün isə, əvvəl ona haqlı idi. Lakin 25 aylıq inqilab tarixində biz türk-tatar milləti bu inqilabdan lazımınca bir müvəffəqiyyət ala bilmədik. Bu bəxtsizlik bizim istedadsız millət olduğumuzdan deyildir. Bəlkə əski hökumətin bizi daim nadanlıq zəncirində saxladığından çıxan nəticəsidir. Zatən inqilabdan bu günə qədər rusların özlərinin də bir nömrə çıxardıqları yox. Amma biz türk-tatar balaları özümüzün əslən türk-tatar olduğumuzu isbat etməyə borclu idik.

Bundan barı bir il yarım müqəddəm [əvvəl] Kazan soqaqlarında [küçələrində] müqəddəs yaşıl ələmlər [bayraqlar] "Yaşasın milli və mədəni muxtariyyət!", "Yaşasın İdil-Ural ölkəsi!" şüarları ilə hər müsəlmanın ruhunu şadlandıran, onun keçmişdəki qara günləri[ni] unutdurub gələcəkdəki işıq[lı] həyatına, milli səadətinə könlünü ümidvar edirdi. Ufa, Kazan, Orenburq kimi müsəlman mərkəzləri olan şəhərlər bütün Orta Rusiya, həm Sibir müsəlmanlarının günəşi kimi türk-tatar dünyasını münəvvər edib, özlərinə diqqəti cəlb edirdi.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 10 mart (Bazar ertəsi günü) tarixli 133-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

17-ci ilin mayında üç[üncü] syezdin qoşma məclisində milli və mədəni muxtariyyət elan qılındıqdan sonra Kazanın yaşıl ələmlər ilə zinətlənmiş uramlarında [küçələrində] minlərcə gözlərdən şadlıq yaşları tökülüb, minlərcə ağızlardan “Milli azadlıq, milli bütünlüyünü saxlamaq yolunda qurban olaram”, deyən sədalar eşidilə idi. Türk-tatar milləti münəvvər [parlaq] ümid günəşi altında yaşayırdı. Vaxt keçdi, inqilab dalğaları dəhşətli surətdə güclənməyə başladı. Hürriyyət düşmənləri xalqın nadanlığı ilə istifadə edib bir taqım qeyri-qabili-hüsul [əldə edilməsi imkansız] və’dələr edib doğru yoldan azdırdılar. Tərbiyətsizliklər yasıyıb [edib], xalqı inqilabdan tövbə etdirmək işinə girişdilər və tezliklə səmərəsini də gördülər.

Oktyabr inqilabından bir çox vaxt keçmədi ki, iqtisadi ağırlığa, daimi iğtişaşa düşən xalqın bəzi bir təbəqələrində “Ay, əski zaman yaxşı idi” məalında [mənasında] fəryadlar eşidilməyə başladı.

Bizim türk-tatar dünyasına da hakəza [habelə] Oktyabr inqilabı fəna təsir etdi. Bir çox əməl edilmiş işlərimiz yoxa çıxdı. Milli həyatımıza zərbə oldu. Xalq arasında türlü firqə və partiyalara da səbəb olub qayeyi-əməllərimizə [məqsədlərimizə] yetişməyi uzağa saldı. Xüsusən tərbiyətsizliklərlə xalqın əhvali-ruhiyyəsinə təsir edən, sonrakı inqilab zamanında xalqın geniş təbəqələrində təcdidi-həyata [həyatın yenilənməsinə, yeniliklərə] qarşı düşmanlatmağa səbəb olub idealımız olan milli müəssisələrimizi də ağır hallar keçirməyə məcbur etdi.

Hər nə isə, bolşevizm qüvvətləndi. Bizim milli əsgərimizin dağılmağına birinci səbəb oldu və bunun nəticəsində “İdil-Ural” ölkəsi meydana çıxmayıb qaldı.

İdil-Ural ölkəsi məsələsi böylə idi: 17-ci ilin payızında Ufada yığılan milli Parlamentimizin qərarı boyunca Kazan, Ufa, Orenburq, Vyatka, Perm, Astraxan, Simbir və Saratov vilayətlərindən (məzkur vilayətlərin bəziləri qismən) ibarət İdil-Ural ölkəsi ismi ilə Rusiya Federasiyası təşkilinin bir ölkəsi olmaq üzrə elan edilmək lazım gəlirdi. Bu ölkədə müsəlmanlar 48 faiz olub, başqa qeyri-rus millətlərlə birgə ruslara qarşı əksəriyyət təşkil etdiyinə görə, ölkənin “Türk-tatarlar ölkəsi” namı ilə elan qılmasını caiz ədd edilmişdi [uyğun hesab edilmişdi].

Parlamentin bu qərarını işə tətbiq etmək və məzkur ölkəyə məxsus materiallar yığıb, layihə düzəldib, iş tamam olduqda İdil-Ural ölkəsi deyə elan qılmaq üçün bir komissiya əmələ gəldi. Bu komissiya öz işini tamam etdi.

17-ci ilin axırlarında üzərinə aldığı vəzifəni ifa üçün hazır olduğu halda, bizim tatar əsgərləri arasında da bolşevizm fikri qüvvətlənib, məzkur komissiyanın dağılmağına səbəb oldu. Halbuki bu böyük vəzifə müsəlman əsgərləri yardımı ilə vücuda çıxacaq idi. Şol günlərdə Kazanda bütün Rusiya müsəlman əsgərlərinin ikinci syezdləri vaqe oldu. Bir aydan çox davam edən yığıncaqlarında bu syezd iki güruha bölünüb, elan ediləcək ölkəni “burjuaznı” [burjuaziyaya xas] adlandırıb bolşeviklər tərəfdarının qələbəsi ilə tamam oldu. Bu vəq’ə biz türk-tatarları üçün tarixi bir xəta mənzələsində [yerində] oldu. Bunu bu gün xəta yola çönmüş əsgərlər də dəxi iqrar [təsdiq] edirlər.

İştə şol syezd vaxtları ilə bizim münəvvər ümid günümüzə qaranlıq vuruldu. Böylə ki, biz imkan və əhval müsaidə bulduğu halda öz məqsədimizi vücuda gətirə bilmədiyimizi göstərdik. Dürüst, bu xətada bolşevizmə uymuş qırx yaşlı gənclərimizi itham edirlər. Lakin şol bolşevizmə uymaqlığımız özü bizim nə dərəcədə olduğumuzu görsətdi. Biz bolşevik və ya başqa qəlibə girsəydik də öz mənfəətlərimizi unutmamalı və yaxşı “və’dələrə” aldanmamalı idik. Lakin təəssüf ki, biz bolşeviklərdən istifadə edib də onların vasitəsilə yuxarıda məzkur “ölkə”ni meydana çıxarmaq həvəsinə düşdük. Safdil gənclərin internasional bayrağı altına girmələri ilə ölkə məsələsi əsasən pozuldu. Çünki Kazanda bolşevizm qüvvətlənəndən sonra “Kazan ölkəsi” ismində ancaq iqtisadi və qeyri-milli ölkə əmələ gəlməsi və onun milliyyətlə qatışdırılması haqqında söyləşməyə başladılar.

İştə, bu surətdə biz “ölkə”ni düzəldə bilmədik. Əlimizdəki süngüləri alıb da bizimlə artıq haqq və hesaba girişmədilər. Bu bizim üçün inqilab dövründə aldığımız bir dərsi-ibrətdir.

Əsrlər boyunca bizə vəhşi deməyi adət edən və bizə qarşı düşmənlik ruhu ilə tərbiyələnən rus millətinin ən geniş internasionalistləri də bizi başqa bir arşınla ölçmək adətindən geri dura bilməyirlər. Onlar hənuz ali şüarlarla xalqı “səadət” yoluna çağırarkən, bizi ögey bala mənzələsində görmək adətlərində davam edirlər. Mötədil sosialistlərin işləri “Rusiya ruslar üçün” şüarına müvafiqdir.

Ən son sosialist ismi altında olan bolşeviklər tərəfindən Türküstanda əsrlər boyunca müsəlman əlində yaşayan yerlərdə bütün şəhərlərin yox edilməsi, bütün qəbilələrin uşaqlarına qədər qətli, öldürülmüş müsəlman xatunlarının qarınları yarılıb içində balaları dəxi öldürülmək kimi son vəhşiliklər, nəhayət minlərcə ac müsəlman güruhlarının çörək üçün məhəlli [yerli] hökumət olan sovetlərə müraciət edən vaxtlarında “Krasnı armiyaya yazılınız” cavabında: “Yaxşı, tüfəng veriniz” sözü eşidib, “Yox, siz sovetləri qovarsız; gediniz avtonomi-yanız sizə çörək versin” deyib pulemyotlarla günahsız müsəlmanları qırmaq işləri əlbəttə yuxarıdakı fikrimizi təqviyə etsə [sözümüzə qüvvət olsa] gərəkdir. Hakəza, Direktoriya zamanında Şərqi Rusiyada və Sibiryada bir çox vəq’ə bizim “ögey”liyimizi əlavə olaraq isbat etdi.

Bolşevikləri məğlub etmək mətlubları [məqsədləri] isə də, müsəlman hərbi gücü qüvvətlənməsindən qorxub başqırd diviziyasın[ı] korpus halına gətirmədilər. General Dotsev atlı kazakların başqırdlardan ədəd cəhətindən artıq edilməsi qəsdi ilə başqırd əsgərləri on dənə patronla müharibə meydanına göndərdi. Onların üstbaşlarına lazım olan geyim verməyib, başqırd saldatları vətənlərinə qaytarıb göndərdilər.

Qırğız Hökuməti “Alaş-Orda”nın rəisi Əlixan Bökeyxanov Direktoriya əzası [üzvü] general Boldırevə qırğızlardan bir neçə illik cavanları silah altına almağa rüxsət sorduqda, Boldırev: “Qırğızlar son[ra] Türkiyə ilə müharibə edərlərmi?” sualı ilə qırğızları yığmağa rüxsət verməmişdir. Halbuki, bolşeviklərə qalib olmaq gərək deyib qışqırırdı.

Orenburq və Ural atlı-kazak hökumətləri mövcud olduğu halda başqırd və kazak (qırğız) hökumətlərinin süqutu haqqında fərman çıxır.

İştə biznin [bizim] inqilabdan aldığımız dərslərimizdir ki, bizə itab [məzəmmət] və xitab ilə: “Heç kimin sözünə və və’dəsinə aldanma! Ancaq özünün güclü qollarındakı silahına və könlündəki imanına inan!”

*Saleh*

## İTTİHAD LAZIMDIR

İslam aləmindən müqəddəm [qabaq] insanlar cəhalət, küfraniyyət, ədavət və qətl-qarətlə yaşayırdılar. Allah-taala bəndələrini küfraniyyətdən islamiyyətə, cəhalətdən mədəniyyətə, ədavətdən üxüvvətə [düşmənçilikdən qardaşlığa], zülmatdan nuraniyyətə tərəf gətirmək üçün nuri-islam ilə tamamən dünyanı münəvvər eylədi. Həmişə zülmat aləmində kor qalanlar birdən-birə gözlərini açıb özlərini nuraniyyət aləmində gördülər. Allah-taala cəhalət mərəzinə mübtəla olan naxoşlara öz tərəfindən Rəsuli-əkrəm həzrətlərini təbib göndərib, islamiyyət dərmanı ilə müalicə etməyə məmur eylədi. Cəhalət mərəzi ilə çürüyüb məhv olan bədənlər dini-islama daxil olmaqla səhhət tapdılar. Amma – çünki cəhalət təsiri hələ başlarında qalmışdı – o səbəbə əyan, əşraflar, əğniyalar [varlılar] özləri ilə fəqir-füqəraya fərq qoyub, təkəbbürlük edib, nifaq salırdılar.

Rəsuli-əkrəm buyurdu: Camaat, heç kəs öz nəsil-nəcabətinə və ya dövlətinə məğrur olub füqəralara təkəbbürlük edə bilməz. Bu sifətlərlə müttəsif olan [bu xüsusiyyətləri daşıyan] genə islamiyyətdən məhrum olub cəhalətdə baqi qalar. İslamiyyət ibarətdir ədalətdən, müsavatdan, üxüvvətdən: İnnəməl-müminunə ixvətun. Milləti-islam cəmiyyən bərabər müsavi qardaşdır. Mən dövlətliyəm, mən nücəbayam [nəciblərdənəm, əsil-nəcabət sahibiyəm], sən füqərasan, mən filanam, sən filansan və sairə mənlik-sənlik cəhalət zamanında qaldı. Hamı bir Adəmin oğludur.

Bu gunə [bu cür] demokratik üsul sayəsində idi ki, əsakiri-islam [islam əsgərləri] Məğrib ilə Məşriq arasında olan cəmi padşahlara, millətlərə qələbə çalıb özlərinə tabe etdilər və dünyanın hər bir qitəsinə malik olub hökumət etdilər.

Lakin çox təəssüflər olsun ki, sonradan milləti-islamın tərəqqidən tənəzzül etməyinə, düşmənlər əlində əsir olmağına bəzi vicdansız xaini-islam, xaini-millət və vətən olan şəxslər bais olub cür-bəcür müridbazlıq [mürid yığmaq, tərəfdar toplamaq] üçün milləti-islam arasında məzhəb fabrikası açıb dürlüdürlü məzhəblər icad edib xalq arasına təfriqə [ayrı-seçkilik] saldılar və nifaq kəməndini bizim boynumuza salıb düşmənlərə əsir verdilər.

Bundan əlavə, hər bir yerdə iş başında olan əğniyalar [varlılar] rəyasətdən [başçılıq etməkdən] ötrü başlarına dəstə yığıb, müsəlmanları bir-birinə qırdırıb, aralığa nifaq salıb da bu əsarətə səbəb oldular.

Hürriyyətdən sonra olan rəyasət davası göz qabağındadır. Həmişə biz avamları “təkfir” edən [kafir elan edən, lənətləyən] kafirlər əsarətdən xilas olub milli hökumət təşkil etdiyimiz halda genə aramıza bir para məzhəb nifaqı salıb da təkrar boynumuza əsarət zəncirini vurub düşmənlərə təslim etmək istəyirlər. Halbuki, qəsdqərəzləri din-filan olmayıb, məhz mənfəəti-şəxsiyyədir [şəxsi mənfəətdir].

Qardaşlar, bizim istiqlaliyyətimizin, cavan hökumətimizin, vətənimizin, millətimizin, islamiyyətimizin fəlakəti ilə nicatı mövqufdur [bağlıdır] əsgərlik məsələsinə, yəni əsgərlik işi müntəzəm olub [qaydaya salınıb] qabağa getsə, naili-bəməram olarıq [məqsədimizə nail olarıq]. Halbuki əsgərlik işimizin dəxi asudəliklə qabağa getməyinə genə xain və müfəttinlərin [fitnəkarların] fitnə və fəsadları mane olur.

İrəvan, Naxçıvan, Qarabağ, Şirvan, Lənkəran, Bakı, Dağıstan və Türküstan tamamən yerlə yeksan oldu, qəryələr [kəndlər] odlandı, məscidlərimiz topa bağlanıb, Quranımız yandı. Hamilə analarımızın qarnı parçalanıb, döşləri kəsildi. Məsum çocuqlarımız düşmən nizələrinə vuruldu. Xanım bacılarımızın, gəlin-qızlarımızın ismət və namusuna düşmən təcavüz etdi. Məgər ittifaqla əhd edibsiniz ki, yer üzündə islamiyyətdən bir nişanə baqi qalmasın?

Bəsdir, ey xainlər, əl çəkin yaxamızdan! Bu xəyanətlərə kifayət etməyib avam qardaşlarımızı milli hökumətimizdən nifrətləndirməyə çalışırsınız.

Ey sevgili millət vükəlaları, ey azəri türklərinin ümidgahı olanlar! Allah rizasına, bu xəyanətlərin qabağına sədd çəkin! Olan əsgərlərə diqqət edin ki, onların içində dövlətli, bəy, xan, fəqir, kasıb hamısı bir olsun və fitnəçilərin dili lal olsun.

Ey milli hökumətimizin şanlı əsgərləri! Siz də fövqdə [yuxarıda] yazılan qardaşlarımıza təbəiyyət edib [tabe olub] türklük və islam baydağını ucaldasınız!

Qardaşlar, əsgərlik bilirsinizmi nədir? Əsgər, yəni Allah qoşunu. Əsgər, Rəsuli-Xudanın yavru ənsarıdır [Allah peyğəmbərinin kiçik köməkçiləridir]. Əsgər, mücahidi-islamdır [islam mücahididir; islamiyyət üçün çalışandır]. Əsgərlikdə olan zəhmətləri, məşəqqətləri, mülahizə edib əsgərlikdən qaçmayın. Mart hadisatında çox ölənlər, qaçanlar oldular. Ölməkdən qorxub qaçanlara Allah-taala Quraniməciddə [şanı uca “Quran”da] görək nə buyurur:

Ey ölümündən qorxub cihada getməyənlər! Yəqin edin ki, ölüm sizləri dərk edəcəkdir [haqlayacaqdır], əgər möhkəm qalalarda, bürclərdə olasınız.

Ey vətənin qəyur [qeyrətli] cavanları! Həmişə islamın ümidgahı olun. Ey füqəralar, ey Bakı şəhərində və ətraf mədənlərdə olan fəhlə qardaşlar! İttifaqla əl-ələ verib toplaşın, qoymayın ki, gizli düşmənlərimiz sizləri aldatsınlar. Qardaşlarım, ucaldın türk-islam Azərbaycan bayrağını milli hökumətimizin başının üstünə və yaşasın Azərbaycan Hökuməti sözlərini virdi-zəban edin [dilinizdən düşürməyin]!

*Mirhəsən Seyidzadə Qarabağlı*

## “MÜSAVAT” FİRQƏSİNİN FƏHLƏ KONFRANSI

Cümə günü, martın 7-də Parlaman binasında Məhəmməd Əmin Rəsulzadənin sədarəti altında “Müsavat” firqəsinin fəhlə konfransı vaqe olmuşdur. Konfransda bütün mədən rayonlarının fəhlə nümayəndələri, Bakı komitəsi üzvləri, Mərkəzi Komitə üzvlərindən bir neçəsi, “Müsavat” firqəsinin Parlaman fraksiyonu, həmçinin Maarif naziri Nəsib bəy Yusifbəyov isbati-vücud [iştirak] etmişlərdir.

Məhəmməd Əmin Rəsulzadə tətil ilə əlaqədar olan əhvali-siyasiyyə və fəhlə konfransının tərzi-hərəkəti barəsində müfəssələn [ətraflı] məlumat vermişdir. Qızğın münaqişat və müzakiratdan [münaqişə və müzakirələrdən] sonra, konfrans müttəhidülqövl [yekdilliklə] işbu zeyldəki [aşağıdakı] qərarı qəbul etmişdir:

“Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin fəhlə konfransı martın 7-də vaqe olan iclasında ümumi fəhlə konfransının tətil elan edilməsi məsələsini müzakirə edib qərara almışdır ki:

1) Firqənin Mərkəzi Komitəsinin fəhlələrə müraciətən vaxtlı-vaxtında dəvətnamə buraxması hərəkətini təqdirlə və martın 5-də ümumi fəhlə konfransında yoldaş Qənizadənin çıxışının doğru olduğunu təsvib [təsdiq] eylər.

2) Böyük rusluq [Velikorossiya] məqsədi olan siyasi tətilə bilmərrə qarışmamaq üçün fəhlələrə müraciət edilsin.”

## GENERAL TOMSON VƏ FƏHLƏ KONFRANSI

Fəhlə konfransı sədri Çurayev İngiltərə komandanlığına verilən tələbat haqqında müzakiratda bulunmaqdan ötrü srağagün general Tomson yanına getmişdir.

General Tomson demişdir ki, tətil təhdidi istibdad deməkdir. Buna görə, bu tətil təhdidi altında olmağa görə, tələbatları təmin etmək, müzakiratda bulunmaq çətindir.

Daxili işlərə qarışmamaq məsələsinə gəldikdə general Tomson demişdir ki, bu sözlərin mənası nə olduğunu bilməyir. Çurayev buna cavab vermişdir ki, tətil komitəsi tərəfindən tətil elan edilməmişdir, lakin tətil bir mübarizə vasitəsi olduğuna görə, rəf edilə [aradan qaldırıla] bilməz. Daxili məsələlər isə ələlü-mum [ümumiyyətlə] Rusiyanın və onun hissələrinin işidir.

Həbs edilən matroslar haqqında general Tomson demişdir ki, məhbusları Fəhlə Konfransının heyəti-rüəsasına [rəyasət heyətinə] zamin verməklə azad etməyə hazırdır.

Srağagün, saat 4-də tətil komitəsinin iclası vaqe olub, bu məsələlər orada müzakirə edilmişdir. Nəticədə bu aşağıdakı qərarlar qəbul edilmişdir:

1) General Tomsona cavab verməli ki, tətil məsələ[si] müzakirat müddəti[ndə] rəf edilir [aradan götürülür].

2) “Daxili işlərə qarışmamaq” sözü bu deməkdir ki, İngiltərə komandanlığı Rusiya Cümhuriyyəti və müstəqil millətləri ilə özü mübarizə etməsin və onlarla mübarizə edən əksinqilabçı qüvvələrə müavinət [köməklik] göstərməsin.

3) General Denikinin irticai qüvvəsi tərəfindən dağıstanlıların hədə altına alınmasını öz istiqlalımız üçün xətrə [təhlükə] hesab ediriz. Biz də Parlaman protestosuna mülhəq olub [qoşulub] öz hökumətimizdən tələb ediriz ki, bu məsələyə qarşı ən ciddi iqdamatda [təşəbbüsdə] bulunsun.

4) Qafqaz cümhuriyyətləri istiqlaliyyətlərinin məsuliyyəti[ni] öhdəsinə alan Müttəfiqlər komandanlığından tələb ediriz ki, qanlı general Lyaxovun qaragüruh bandasına qarşı, yəni onları azad Dağıstandan çıxarmaq üçün ciddi və qəti iqdamatda bulunsun.

5) Könüllü ordunun paytaxtımızdan çıxarılmasına dair hökumətin görəcəyi tədbirlərinə biz hər növlə müzahirət [köməklik] edəcəyiz və tələb ediriz ki, Denikinin Bakıda olan nümayəndəsi general Erdeli və qoşun böyüklərinin də Bakıdan çıxarılmasına eyni tədbirlər ittixaz edilsin [görülsün]. Onların paytaxtımızda olmasını biz cümhuriyyətimizin şanına layiq görməyiriz.

## BAKI XƏBƏRLƏRİ

**Qubernatorun əmri**

Bakı qubernatoru tərəfindən Bakı və Balaxanı-Sabunçu qalabəylərinə [komendantlarına], Bakı quberniyasının bütün uyezd naçalniklərinə [qəza rəislərinə] zeyldəki [aşağıdakı] əmrnaməni göndərmişdir:

*“Bununla qalabəylərə və uyezd naçalniklər[in]ə təklif edirəm ki, Daxiliyyə və qeyri Nəzarətlər [Nazirliklər] tərəfindən göndərilən bütün tələbat və sorğulara bilatəxir [dərhal] əməl edilib, bir həftənin ərzində təqdim edilməlidir. Hərgah, göstərilən vaxtın əvəzində buna əməl etmək mümkün olmazsa, o vaxt buna səbəb olan mümaniəti [maneəni] göstərməlidir. Bundan ötrü idarələrdə müdirlərin xüsusi katibləri həmin işləri taqib etməlidirlər.”*

**Türk talibə və tələbələri [qız və oğlan tələbələri]**

Türk tələbələrinin ənənəvi işlərini təhqiq edən xüsusi təftiş komissiyası hamı müsəlman tələbə və kursistkalarını [qız tələbələrini] martın 10-unda, axşam saat 5-də İkinci Ünas [qızlar] gimnaziyası binasında (Qubernski küçədə) vaqe olacaq ümumi iclasa dəvət edir. Müzakirə ediləcək məsələlər:

1) Komissiyanın məruzəsi;

2) İclasda qaldırılacaq məsələlər.

İclas üçüncü dəfə olduğu üçün yoldaşlardan nə miqdar gəlmiş olsa da qanuni hesab ediləcəkdir.

**Cəmiyyəti-Xeyriyyədə**

Pəncşənbə [cümə axşamı] günü, mart ayının 6-sında Qasım Qasımov cənablarının sədarətində [sədrliyi ilə] Cəmiyyəti-Xeyriyyə idarəsinin növbəti iclası vaqe olmuşdur [baş tutmuşdur].

Sədr yeni təsis edilən məhəllə heyətlərinə məxsus tərtib edilmiş düsturuləməli [nizamnaməni] qiraət edir. İdarə təsvib edərək [bəyənərək] qərar qoyulur ki, bu düsturuləmənin surəti məhəllə heyətlərinə göndərilərək heyətlərin işə başlamaları xahiş edilsin.

1915-inci sənədə köhnə hökumət zamanında tərtib edilən Cəmiyyəti-Xeyriyyə nizamnaməsinin indiki vaxta müvafiqət etmədiyini [uyğun gəlmədiyini] idarə nəzərə alaraq nizamnamənin bəzi maddələrinə təğyir [düzəliş] vermişdir. Bu yaxınlarda çağırılacaq fövqəladə ümumi iclasa təqdimlə orada təsdiq ediləcəkdir.

3-üncü məsələ, müsamirə [konsert, tədbir] məsələsi idi. Qərar qoyulur ki, bayramdan bir neçə gün sonra müsamirə tərtib verilsin.

4-üncü məsələ: Bu axır vaxtlarda Bakı küçələrində görülməkdə olan balaca dilənçi uşaqların küçələrdən yığılması barəsində Sentrodom [Mərkəzi Ev Komitəsi], idarədən bir nümayəndə istəmişdi. İdarə bir nəfər nümayəndənin göndərilməsinə qərar verir. Dilənçilərin əksəri iranlılardan olduğu üçün Bakıda İran konsuluna və İran müəssisələrinə müraciət etmək də qərara alınır.

Sentrodom nəzdində olan uşaqlara müavinət [köməklik] edici büroya bir nümayəndə göndərmək məsələsi sədrə mühəvvəl edilir [tapşırılır].

Nəhayət, Cəmiyyəti-Xeyriyyənin sökülüb yenidən inşa edilməsi məsələsi müzakirə edilir. İdarə heyəti-sədarətinə təklif edir ki, bu barədə mükəmməl layihə tərtib edilərək idarəyə təqdim olunsun. İdarə Cəmiyyəti-Xeyriyyə inşasından ötrü hökumətdən nəqdi müavinət istəmək xəyalındadır.

* Bu gün saat 4-də Duma salonunda Cəmiyyəti-Xeyriyyə nəzdində olacaq məhəllə heyətlərinin müttəhid [birgə] iclası vaqe olacaqdır.

**Müəllimlər iclası**

Bu gün martın 11-i, axşam saat 4-də, Doqquzuncu ibtidai məktəbdə bütün Bakı və dairəsi müsəlman şəhər məktəbləri müəllimlərinin iclası təyin edilmişdir. İclasda sabiq Müəllimlər İttifaqı fəaliyyətini təcdid [bərpa] etmək qəsdi ilə işbu məsələlər mövqeyi-müzakirəyə qonulacaqdır:

1) Sabiq idarənin məruzə və istefası;

2) Yeni idarə intixabatı [seçkisi];

3) İclasda qalxıla biləcək məsail [məsələlər].

İclas ikinci dəfə dəvət edildiyi üçün qanuni hesab ediləcəyindən, bütün müəllimlərin isbati-vücudu mütəmənnadır [iştirak etməsi xahiş olunur].

**Bakı üçün qənd**

Aldığımız məlumata görə, bugünlərdə Bakıya 4 vaqon qənd gətiriləcəkdir. Qənd xüsusi əşxas [şəxslər] tərəfindən bir neçə gün bundan əqdəm [qabaq] Ukraynadan alınıb, fəqət şimdi gəlib çıxmaqdadır. Bundan naşi [buna görə], şəhərdə qənd qiyməti əskilməkdədir.

**Dağıstanlıların yığıncağı**

Bu gün saat 1-də, Təzəpir məscidində Bakı və ətrafında yaşayan ümum dağıstanlıların yığıncağı təyin edilmişdir. Yığıncaqda Könüllü ordu və Denikinin Cibaliyyun [Dağlılar] İttifaqı Cümhuriyyəti torpağına keçib, istiqlaliyyətin təhdidi məsələsi və bununla əlaqədar başqa mühüm məsələlər müzakirə ediləcəkdir. Bakıda və ətrafında yaşayan ümum dağıstanlıların həmin yığıncağa təşrif gətirmələri arzu olunur. Məlum olduğu üzrə, Bakıda 20 min nəfərdən artıq dağıstanlılar sükunət edirlər [yaşayırlar].

**Müsəlman tələbə və talibatı nəzəri-diqqətlərinə**

Martın 13-ündə, pəncşənbə [cümə axşamı] günü axşam saat 5 tamamda, Birinci Realnı məktəbində bütün müsəlman tələbə və talibatının [oğlan və qız tələbələrinin] ümumi iclası təyin edilmişdir. İclasda baxılacaq məsail [məsələlər]:

1) Yeni komitə intixabatı [seçkisi];

2) Təftiş komisyonu intixabı;

Yoldaşlardan vaxtında gəlmələri rica olunur.

*Müvəqqəti Komisyon*

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsinin iclasında başqa məsələlər cümləsindən olaraq qət edilmişdir ki, sentyabr hadisatından sonra xidmətə gəlməyib sonradan gələnlər üçün vaxt 6 aydan az olarsa, onlar üçün hesab edilsin. Bu vaxt 1918-ci sənənin 15 sentyabrından hesab olunmalıdır.

* Səşənbə [çərşənbə axşamı] günü martın 11-də Bələdiyyə Məclisinin iclası təyin edilmişdir.

## SİYASİ ZİYAFƏT

Gürcüstan vüzəralarından [nazirlərindən] şəhərimizdə müsafir bulunan Maliyyə naziri Juruli həzrətlərinin şərəfinə olmaq üzrə martın 8-i axşamı “Metropol” mehmanxanasının zalında Hökumətimiz tərəfindən böyük bir ziyafət verildi. Ziyafətə dəvət edilmişlər bunlar idi: Gürcüstan Maliyyə naziri Juruli həzrətləri, başda Fətəli xan Xoyski həzrətləri olmaq üzrə ümum nazirlərimiz, Parlaman sədri Həsən bəy Ağayev həzrətləri ilə bərabər Divani-rəyasət əzaları [üzvləri], Parlaman fraksiyalarının rəisləri, Balkana getmək üzrə şəhərimizə varid olmuş [gəlmiş] olan İran səfiri Mirzə Əliəkbər xan Bəhmən həzrətləri ilə bərabər Bakı İran konsulu Səidülvüzəra həzrətləri, Dağıstan Hökumətinin Bakı səfiri Kantemirov həzrətləri, Gürcü Milli Komitəsi ilə bərabər Erməni Milli Komitəsi əzaları, qoşun böyüklərimizdən bir xeyli böyük rütbəli zabitanımız, Bakı ziyalı qismindən bir neçələri və mətbuat tərəfindən rus[ca] və türk[cə] “Azərbaycan” qəzetələrinin müdirləri. Məclis mehmandarlıq vəzifəsini icra edən Xariciyyə nazirimiz Ədil xan Ziyadxanov həzrətləri tərəfindən gözəl bir nitq iradı [söylənməsi] ilə açılıb, məclisin yuxarısında zalın divarını təzyin etməkdə [bəzəməkdə] olan Azərbaycan milli bayrağı hazirun [iştirakçılar] tərəfindən ayağa qalxmaq mərasimi ilə salamlandı.

Bədəhu [sonra] Fətəli xan həzrətləri nitqə başlayıb Gürcüstan Hökumətilə bizim aramızda olan səmimi dostluqdan danışarkən sözünü Juruli həzrətlərinin şəhərimizə vüruduna ətf ilə [şəhərinə gəlməsinə sözü gətirərək] Gürcüstan nazirinin sağlığına badənuş oldular [qədəh qaldırdılar]. Əhli-məclis nazir həzrətlərini sürəkli alqışlarla salamlayıb şərəfi münasibətinə olaraq qədəh qalxızdılar.

Bədəhu, Dağıstan, Ermənistan və İran dövlətləri şərəfinə idareyi-əqdah edilib [qədəh qaldırılıb], nümayəndələri tərəfindən cavabi nitqlər söyləndi və əhli-məclis tərəfindən səmimiyyətlə alqışlandı.

Bundan sonra Fətəli xan həzrətləri idareyi-məclis[i] Poçta-Teleqraf və Məsai nazirimiz olan Aslan bəy Səfikürdski həzrətlərinə həvalə ilə mümaileyhi [adı çəkilən şəxsi] “tamada” seçdi. Aslan bəy nitq söyləmək istəyən natiqləri hərəsinin haqqında lətifəvari sözlərlə əhli-məclisə təqdim və təarüf [tanış] edib özü də münasibi-hal [vəziyyətə uyğun] nitqlər söyləyirdi. Natiqlərin nitqi ələlümum Azərbaycan dövlətinin şərəfinə və ümum Qafqaz, ittihad, ittifaq, sülh və sazişə aid olub məclisə böyük bir səmimiyyət hissi verirdi.

Ziyafətin axırında Ədil xan Ziyadxanov həzrətləri xatimə olaraq təkrar pürmənə [mənalı] bir nitq irad edib, əzcümlə buna işarət etdilər ki, bu axşam yeni təqvim hesabı ilə Novruz bayramı hülul edir [daxil olur]. Bu ziyafət bu axşama təsadüf etməklə iki bayramın axşamı oldu ki, onun biri də burada yığılan millətlər nümayəndələrinin bir-birinə qarşı ibraz etməkdə olduqları mehribançılıq və səmimiyyətdir ki, bunun nəticəsi Qafqaz dövlətlərini bir-biri ilə ittifaq və sazişlə istiqlalları yolunda çalışmağa vadar etməklə ümum qafqazlılar üçün həqiqətdə də siyasi bir bayram axşamı olmaq sifətini haiz olacaqdır [daşıyacaqdır].

Filhəqiqə [doğrudan da], bu ziyafət rəsmilikdən artıq səmimi bir rəng almaqla bir tərəfdən Azərbaycan Hökumətinin şan və şərəfini artırmaq və digər tərəfdən dəxi ümum Qafqaz dövlət və millətləri arasında ittifaq və sazişə bir yol açacaq qədər böyük bir əhəmiyyəti haiz olub, ümum əhli-məclisi məmnun və məsrur [şad] buraxdı.

Ziyafət saat 6-da başlanıb, saat 10-a qədər davam etdi.

**Arvad diş həkimləri**
**Z.A.Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9-2-yə və axşam 4-7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi**
**İ.S.Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad həkimi**
**Y.A.Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəqbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Diş həkimi**
**S.M.Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Bakı Şəhər**
**İstiqraz Cəmiyyəti**

Cəmiyyətin nizamnaməsinin 65-inci maddəsinə görə, bununla elan edir ki, cəmiyyətə üç illik nümayəndə intixab edilməkdən [seçilməkdən] ötrü cəmiyyətin müstəqrizləri [borcluları] iclasa dəvət olunur. 1-ci razryad [dərəcə] 11 aprel; 2-ci 12 aprel; 3-cü 13 aprel. Həmin 1919-cu ildə, saat 5-də cəmiyyətin idarəsinin binasında - Voront-sovski küçə, Eyvazovun evində, nömrə 18.

Qeyd: Cəmiyyətin nizamnaməsinin 68-inci maddəsinə görə iclasa gələnlərin miqdarına baxmayaraq, qanuni hesab olunur.

*T-50*

**Elan**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, martın 13-ündə saat 12-də “Xozyaystvennı rasparyaditelni” [Təsərrüfat-İdarəetmə] şöbəsinin dəftərxanasında şəhər evlərinin – hansı ki, biri Balaxanski və Budaqovski küçələrin küncündə nömrə 110 və ikincisi Balaxanski şosedə nömrə 169 – icarəyə (arendaya) vermək barəsində torq [hərrac] təyin olunur. Bəyannaməni yuxarıda zikr olunan şöbənin dəftərxanasında oxumaq olar.

*T-53*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Düz yol***

“…Könüllü ordusunun ölkəmizdən getməsinə…”: qəzetdə “ölkəmizdən” sözü təhrif edilmişdir.

***Azərbaycan Məclisi-Məbusanında***

“…əhalinin qaramalını və ərzaq şeylərini…”: qəzetdə “şeylərini” yerinə “işlərini” getmişdir.

***Sülh ətrafında***

“…zeyldəki gəmilərin silahlarını…”: sıradakı gəmi adlarından bəziləri qəzetdə təhrif edilmişdir.

“monitor”: ağır artilleriya silahları ilə təchiz edilmiş zirehli hərbi gəmi.

***Vükəla Şurasında***

“…Muxax dairəsi… Muxax füqəra əhalisi”: qəzetdə “Muxax” yerinə “Muxasi” getmişdir.

***Nəzarətlərdə***

“Orada isə məmləkətin mal gətirilməsini və çıxarılmasını havi məlumat tərtib verilirdi.”: qəzetdə “havi” yerinə səhvən “maddi” getmişdir.

***İnqilab dövründə İdilboyu türk-tatarları***

“17-ci ilin mayında üç[üncü] syezdin…”: 1917-ci ilin 1-11 may tarixlərində Moskvada Şəmsi Əsədullayevin evində keçirilən Ümumrusiya Müsəlmanları Qurultayı nəzərdə tutulur. Qurultayda Qafqaz, Krım, Türküstan, Sibir, Buxara və Xivədən 800 nəfərdən artıq nümayəndə iştirak etmişdi.

“bütün Rusiya müsəlman əsgərlərinin ikinci syezdləri”: Ümumrusiya Müsəlmanlarının İkinci Hərbi Qurultayı nəzərdə tutulur. Bu qurultay 1918-ci ilin 8 yanvar-20 fevral (21 yanvar-3 mart) tarixlərində fasilələrlə Kazanda keçirilmişdi.

“Alaş-Orda”: Qazaxların 1917-ci ilin axırlarından 1919-cu ilin yayına qədər mövcud olan milli muxtariyyətləri nəzərdə tutulur. Alaş-Orda Hökumətinin (Müvəqqəti Xalq Şurasının) sədri Əlixan Bökeyxanov idi.

“Direktoriya”: Ufa Direktoriyası yaxud Omsk Direktoriyası adlanan Ümumrusiya Müvəqqəti Hökuməti nəzərdə tutulur. Direktoriya 1918-ci ilin sentyabr-noyabr aylarında Rusiyada ali hakimiyyət orqanı olmuşdur.

“Orenburq və Ural atlı-kazak hökumətləri…”: Uralda 1917-1920-ci illərdə mövcud olmuş federativ qurumlar – Orenburq Kazak Dairəsi və Ural Kazak Dairəsi nəzərdə tutulur.

***İttihad lazımdır***

“İnnəməl-müminunə ixvətun…”: “Quran”ın Hucurat surəsinin 10-cu ayəsindən bir parça; mənası: “Həqiqətən, möminlər qardaşdırlar…”

“Yəqin edin ki, ölüm sizləri dərk edəcəkdir [haqlayacaqdır]…”: burada “Quran”ın Nisa surəsinin 78-ci ayəsinə işarə vurulur.

***General Tomson və Fəhlə Konfransı***

“…öz hökumətimizdən tələb ediriz ki…”: qəzetdə “…o hökumətimizdən tələb ediriz ki…” getmişdir.

***Bakı xəbərləri***

“Müsəlman tələbə və talibatı nəzəri-diqqətlərinə”: bu xəbərdəki “talibat” [qız tələbələr] sözləri qəzetdə səhvən “tələbat” kimi getmişdir.

# Azərbaycan və Çin klassik əsərlərinin tərcüməsi və nəşri ilə bağlı görüş




**İyunun 21-də Azərbaycan nümayəndə heyətinin Çin tərəfi ilə Pekin Dil və Mədəniyyət Universitetində toplantısı keçirilib. Görüş zamanı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Mətbuat və Yayım Administrasiyası arasında 2022-ci ildə imzalanmış anlaşma memorandumuna əsasən hər iki ölkənin klassik əsərlərinin tərcüməsi və nəşri ilə bağlı hazırkı vəziyyət və görüləcək işlər müzakirə olunub.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Milli Mətbuat və Yayım Administrasiyasının birinci dərəcəli müfəttişi, Mərkəzi Komitənin Təbliğat Şöbəsinin İdxal və İxrac Bürosunun direktor müavini Cao Hayyun nümayəndə heyətini salamlayıb və Çin-Azərbaycan mədəni əməkdaşlığının davamı olaraq tərcümə layihəsinin önəmini vurğulayıb. Bildirib ki, layihə iki xalqın mədəni irsinin öyrənilməsi və təbliğinə öz töhfəsini verəcək.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin rəsmi nümayəndə heyəti Pekin Beynəlxalq Kitab Sərgisi çərçivəsində Azərbaycanın iştirakının təşkili ilə bağlı göstərilən dəstəyə, eyni zamanda Azərbaycanın mədəni irsinə olan diqqətə görə təşəkkürünü ifadə edib. Çin tərəfinə tərcümə layihəsinin hazırkı vəziyyəti ilə bağlı məlumat verilib, həmçinin Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində iki xalqın mədəni əməkdaşlığının genişləndirilməsi imkanları müzakirə edilib. Çin tərəfi 10-cu Bakı Beynəlxalq Kitab Sərgisində bir neçə Çin nəşriyyatının iştirak edəcəyini bildirib.

Görüş Bakı Beynəlxalq Kitab Sərgisinin tanıtım çarxının nümayişi ilə yekunlaşıb.

# Dənizkənarı Bulvarda "Azərbaycanın milli parklarının tanıtımı" adlı tədbir keçirilib

**İyunun 22-də Dənizkənarı Milli Parkda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, Dənizkənarı Bulvar İdarəsinin dəstəyi ilə "Azərbaycanın milli parklarının tanıtımı" adlı tədbir keçirilib.**










AZƏRTAC xəbər verir ki, "Biomüxtəliflik - təbiətin harmoniyası" devizi altında keçirilən tədbirdə vətəndaşlar milli parkların tanıtımını əks etdirən stendləri gəzərək ölkəmizdəki milli parklarla virtual tanışlıq imkanı əldə ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova tədbir haqqında məlumat verərək bildirib ki, burada milli parklara aid videoçarxlar nümayiş etdirilir, milli parklarda fəaliyyət göstərən ekoturizm marşrutları, xüsusi mühafizə olunan təbiət ərazilərinin flora və faunasına aid tanışlıq guşələri yer alır. Həmçinin ziyarətçilərə milli parklarda asudə vaxtlarını necə maraqlı keçirə biləcəkləri haqqında məlumat verilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Arzu Babayeva bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd ölkə ərazisində yerləşən milli parkların təbliği, insanlara bu gözəl guşələr haqqında ətraflı məlumat verməkdir: "Bu tədbir ekoloji maarifləndirmə baxımından olduqca əhəmiyyətlidir. Tədbirə gələn ziyarətçilər milli parkların faunası, florası, onların ekosistemləri ilə yaxından tanış olurlar.

Bilirsiniz ki, milli parklar nəsli kəsilməkdə olan fauna və flora növlərinin mühafizəsi məqsədi daşıyır. Bu tədbir eyni zamanda gənclərdə təbiətə sevgi hissləri formalaşdıracaq".

Abşeron Milli Parkının direktoru Etibar İbrahimov milli parkların xarici turistlər üçün ideal istirahət məkanı ola biləcəyinə diqqət çəkib: "Abşeron Milli Parkı məsafə olaraq Bakıya çox yaxındır. Eyni zamanda burada bir çox ekoturizm potensialı var.

Abşeron Milli Parkı Azərbaycanın və Avropa qitəsinin materikdəki ən ucqar şərq nöqtəsində yerləşir. Müqayisə üçün onu da deyim ki, Avropanın materikdə olan ən ucqar qərb nöqtəsi isə Portuqaliya ərazisində yerləşən Roka burnudur. Ümumiyyətlə, Abşeron Milli Parkı xarici turistlər üçün ideal məkandır. Parkın yerləşdiyi coğrafi ərazi 3 tərəfdən dənizin əhatəsindədir. Hazırda ziyarətçilər üçün parkda paraşüt uçuşları, velosiped və skuterlərlə gəzinti kimi fəaliyyətlər mövcuddur.

Qeyd edim ki, yaxın 15 gün ərzində Abşeron Milli Parkının ərazisində elektrik mühərrikli qayıqlarla dəniz gəzintisi də etmək mümkün olacaq".

Göygöl Milli Parkının direktoru Fuad Quliyev isə gənclərə tövsiyə edib ki, onlar öz asudə vaxtlarını Azərbaycanın görməli təbiət ərazilərində keçirsinlər: "Ölkəmizin gözəl guşələrindən biri də Göygöl Milli Parkıdır. Bura zəngin bitki örtüyünə malikdir. Hazırda Milli Parkda 423-dən çox bitki növü var və həmin bitkilərin 100-dən çoxu dərman bitkiləridir. Gələcəkdə Göygöl Milli Parkında yetişən dərman bitkilərinin sayının artırılması, eyni zamanda onlardan istiqamətli şəkildə istifadə edilməsi mümkündür".

Tədbir iştirakçılarından Ramin Abbasov belə tədbirlərin ictimai yerlərdə keçirilməsinin zəruri olduğunu deyib: "Milli parklar barədə ətraflı məlumat əldə etmək həm mənim, həm də övladlarım üçün olduqca maraqlıdır. Xüsusilə uşaqlar ölkəmizin təbiət əraziləri haqqında geniş biliklər əldə edə bilirlər. Artıq bizim ailə üçün növbəti üz tutacağımız Milli Parkla bağlı fikir tam formalaşıb".

Eyni zamanda tədbirdə interaktiv zona yaradılıb. Burada həvəskar rəssamlar və könüllülər milli parklara aid rəsmlər çəkib, iştirakçılar arasında ekoviktorina, "Ekosfera" sosial-ekoloji mərkəz tərəfindən müxtəlif interaktiv oyunlar təşkil olunub. Qaliblər ekoçanta, ətraf mühitin mühafizəsinə aid kitab və milli parklara giriş bileti ilə mükafatlandırılıb.

UEFA EURO2024 GERMANY



# Avro-2024







## "Ruhumuzu ortaya qoyduq"

**Ukrayna millisinin baş məşqçisi Sergey Rebrov "Avro-2024"ün qrup mərhələsinin 2-ci turunda Slovakiya yığmasına 2:1 hesabı ilə qalib gəldikləri oyun haqda danışıb.**

Mütəxəssis qazandıqları qələbə haqqında bunları deyib: "Oyunçular üçün çox şadam. Buraxılan qola çox yaxşı reaksiya verdik. Fasilə zamanı pressinq mövqeyimizi dəyişdik. Ehtiyatdan meydana daxil olan futbolçular bizə kömək etdilər. Ən əsası, ruhumuzu ortaya qoyduq. Həqiqətən də nəticəni dəyişməyə çalışdıq. Qələbəyə layiq idik. Rumıniyaya qarşı çox zəif oynamışdıq, amma bu oyunda futbolçularımız fərqli xarakter nümayiş etdirdilər. Bütün diqqətimizi növbəti oyuna yönəltməliyik. Lakin bu, komanda və ölkə üçün çox vacib qələbə idi".

## Yamalı gözləyən təhlükə

**İspaniya yığması Lamin Yamalın yaşı ilə bağlı problemlərlə üzləşə bilər. Almaniya mediasının yazdığı xəbərə əsasən, ölkə qanunlarına görə, yaşı 18-ə çatmayan şəxslər saat 20:00-dan sonra əmək fəaliyyəti ilə məşğul ola bilməzlər.**



Düzdür, idmançılar üçün saat 23:00-dək güzəşt nəzərdə tutulub. Amma həmin andan sonra müsahibə vermək, bərpa prosesi keçmək, duş qəbul etmək qadağan olunub. İtaliya ilə oyunun saat 21:00-da start götürdüyünü nəzərə alsaq, artıq ispanlar hər hansı cəza ilə üzləşə bilərlər. Yamalın diskvalifikasiyası gözlənilməsə də, İspaniya millisinin 30 min avro məbləğində cəzlandırılması gözlənilir.

Qeyd edək ki, Lamin Yamalın 17 yaşı tamam olmayıb və o, Avropa çempionatının ən gənc futbolçusudur.

## Ümid son tura qaldı

### Gürcüstan millisi ilk xalını qazandı



**Çexiya "Avro-2024"ə vəsiqəni seçmə mərhələdən qazanıb. Yaroslav Şilqavının yetirmələri Albaniya, Polşa, Moldova və Farer adaları ilə eyni qrupda mübarizə aparıb.**

Əsas rəqiblərindən biri Polşanı startda məğlub edən çexiyalılar tsikli heç də yaxşı keçirməyib. Səfərdə cəmi bir qələbəsi olan komanda taleyini son tura saxlayıb.

Moldova ilə evdəki görüşdə qalib gəlməli olan çexlər 3:0 hesablı darmadağınla Almaniya biletini əldə edib. Amma 15 xalla qrup ikincisi olan yığmanın baş məşqçisi tsikl bitən kimi istefa verib. Bu ilin yanvarında İvan Qaşek milliyə qayıdıb. O, 15 ildən sonra komandanın sükanı arxasına keçib.

Çexiya millisi Avropa çempionatlarının final mərhələlərinin daimi iştirakçısıdır.

Çexoslovakiya bölündükdən sonra yarışdan kənar qalmayan "Xalq komandası" ən böyük uğurunu ilk cəhddə qazanıb. "Avro-1996"da Çexiya finalda Berti Foqtsun Almaniyasına uduzub - 1:2. 8 il sonra yarımfinala qədər irəliləyən Çexiyanı gələcək çempion Yunanıstan dayandırıb - 0:1. Hər iki turnirdə Çexiya həlledici topu əlavə vaxtda buraxıb.

Gürcüstan millisi tarixində ilk dəfə böyük turnirin final mərhələsində oynayır. İndiyədək dünya və Avropa çempionatlarında bunu bacarmayan yığmanın debütü ümumilikdə 15-ci cəhddən reallaşıb. 7 dəfə dünya, 8 dəfə qitə çempionatının seçmə mərhələsinə qatılan qonşularımız Millətlər Liqasının pley-offa vəsiqə verdiyi vaxtdan ümidlənib. "Avro-2020"də pley-off finalında büdrəyən yığma ikinci cəhdində istəyinə çatıb. Bu dəfə pley-offun hər iki matçı qələbə ilə nəticələnib. Avropa çempionatlarının seçmə mərhələləri isə, adətən, son iki yerdən birində yekunlaşıb.

Almaniyada keçirilən futbol üzrə Avropa çempionatının F qrupunda II tura Gürcüstan - Çexiya oyunu ilə start verilib. Matçı almaniyalı referi Daniel Zibert idarə edirdi.

Oyunun ilk dəqiqələrindən aydın oldu ki, gürcülər təcrübəli rəqibdən çəkinmirlər. Bərabər mübarizə şəraitində keçən ilk taymın 23-cü dəqiqəsində çexlərin hücumçusu Adam Qlojek fərqlənsə də, VAR sistemində yoxlanışdan sonra əllə oyuna görə qol ləğv edildi. Bundan daha da ruhlanan Gürcüstan seçməsi 45+4-cü dəqiqədə hesabı açdı - Jorj Mikautadze penaltini dəqiq yerinə yetirdi. Matçın ilk hissəsi bu hesabla başa çatdı.



İkinci hissədə Çexiya millisi təzyiqi bir az da artırdı və ardıcıl hücumlar, nəhayət, bəhrəsini verdi - Patrik Şik 59-cu dəqiqədə tarazlığı bərpa etdi - 1:1.

Qalan dəqiqələrdə hər iki komandanın real qol fürsətləri olsa da, heç bir tərəf fəqlənə bilmədi və hərəyə 1 xal qazanaraq pley-off şanslarını qoruyublar.

Xatırladaq ki, Gürcüstan seçməsi ilk matçda Türkiyəyə (1:3), Çexiya isə Portuqaliyaya (1:2) uduzub.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Günün təqvimi

**23 iyun, 3-cü tur**

**A qrupu: 23:00. İsveçrə - Almaniya**

**A qrupu: 23:00. Şotlandiya - Macarıstan**

**24 iyun, 3-cü tur**

**B qrupu: 23:00. Albaniya - İspaniya**

**B qrupu: 23:00. Xorvatiya - İtaliya**

## Ötən günün nəticələri

**F qrupu**

**Gürcüstan - Çexiya 1:1**

**Türkiyə - Portuqaliya 0:3**

## Kuman etiraz edir



**Niderland millisinin baş məşqçisi Ronald Kuman Fransa ilə heç-heçə etdikləri matçdan danışıb.**

O, nəticənin məyusedici olduğunu söyləyib: "Nəticə bir az məyusedicidir, amma bütövlükdə oyuna baxsaq, bəzi məqamlarda topa nəzarəti itirdik. Xətlərimiz arasında çox boşluq var idi. Biz ikinci hissədə daha yaxşı çıxış edə bilərdik".

Baş məşqçi qeyd edib ki, Fransa kimi komandaya qarşı oynamaq həmişə çətin olub: "Biz öz futbolumuzu oynamaq və cəsarətli olmaq istəyirik. Amma son oyundakı kimi topu itirə bilmərik. Daha sürətli reaksiya verməli və öndə daha çox şans yaratmalıyıq. Biz hələ də böyüməyə ehtiyacı olan bir komandayıq".

# Paytaxtda növbəti iməcilik keçirilib





**Paytaxtın sanitar təmizlik səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) tərəfindən iyunun 22-də növbəti genişmiqyaslı daxili ümumşəhər iməciliyi keçirilib.**

BŞİH-in Mətbuat xidmətindən bildiriblər ki, Bakı Şəhər İcra Hakimiyyəti kommunal təsərrüfat xidmətlərinin texnikası səhər saatlarından əsas küçə və prospektlərin bitki və canlılara ziyansız yuyucu maddələrlə yuyulmasını aparıb. İməcilik zamanı həm də məhəlladaxili və ara yollar da yuyulub. Xidmətin əməkdaşları tərəfindən prospekt və küçələrin, səki kənarlarının, bordürlərin və buradakı işıq dirəklərinin, yol kənarındakı məhəccərlərin, park və istirahət yerlərində oturacaqların yuyulması həyata keçirilib, həyət və yaşayış məhəllələrində təmizlik işləri görülüb.



Bakı Şəhər İcra Hakimiyyətinin çağırışına qoşulan ictimai-iaşə, ticarət və digər obyektlərin əməkdaşları da iməcilikdə yaxından iştirak edərək öz obyektlərinin vitrinlərini təmizləyib, ətrafında səliqə-sahman yaradıblar. Eyni zamanda müəssisə, idarə və təşkilatların kollektivləri, şəhər sakinləri də bu iməcilikdə fəal şəkildə iştirak ediblər, sakinlər yaşadıqları mənzillərin pəncərələrini, binaların həyətini təmizləyiblər.

Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyi əməkdaşları tərəfindən əsas magistral yol və prospektlərin kənarlarındakı ağacların üzərinə toplanan toz və torpaq yuyulub, onların dibi yumşaldılıb, ağaclara və yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib və təbii gübrələr verilib. Bundan əlavə, şəhər sakinləri və paytaxtımızın qonaqlarının zövqünü oxşayacaq rəngbərəng güllər əkilir, müxtəlif rəngli güllərdən kompozisiyalar yaradılır, yaşıllıq zolaqları və parklarda qazon örtüyünün yenilənməsi aparılır.

Paytaxtın sanitar təmizliyinin lazımi səviyyədə saxlanılması və yaşıllıqların qorunması üçün tələb olunan bütün tədbirlər davam etdiriləcək.

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

2024-cü il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Yadplanetlilər bizimlə niyə əlaqə saxlamırlar?

## Təbii ki, mövcuddurlarsa

**Kainatda Yerdən başqa sivilizasiya varmı? Yadplanetlilər mövcuddurmu? Onlar planetimizə səyahət edirlərmi? Bu suallar yüz illərdir insanların müzakirə mövzusudur. Elm adamları təxminən 2 trilyon qalaktikanın daxil olduğu kainatda Yerdən başqa planetlərdə də həyatın olduğunu ehtimal etsələr də, bəşəriyyət hələ yadplanetlilərin varlığına dair dəqiq sübuta malik deyil. Bu, maraqlı bir sual doğurur: Əgər kainatda həqiqətən bizdən başqa insanlar varsa, niyə onları görmürük, eşitmirik?**






### Yerdən kənar həyatın olması mümkündürmü?

Alimlər yadplanetlilərin bizimlə əlaqə saxlamamasının səbəbini bir sıra nəzəriyyələrlə izah edirlər. Kainatın yaşının 13,8 milyard il olduğunu nəzərə alsaq deyə bilərik ki, əgər bir neçə sivilizasiya yaransaydı, onların yüksək dərəcədə inkişafı üçün kifayət qədər vaxtları olardı. Kainatın yaşının çoxluğunu və saysız-hesabsız ulduzların varlığı fonunda Yerdən kənar həyatın olması mümkündür. Bu mülahizəni 1950-ci ildə irəli sürən fizik Enriko Fermi belə bir sual vermişdi: "Əgər Süd yolu daxilində yüksək sayda Yerdən kənar sivilizasiya mövcuddursa, niyə yadplanetlilərə aid kosmos vasitələri və ya sondalar kimi dəlillərə rast gəlmirik?" Daha sonralar bu suala Maykl H.Hart 1975-ci il tarixli bir məqaləsi ilə cavab vermişdi. Bu səbəbdən nəzəriyyə "Fermi-Hart" paradoksu olaraq adlandırılıb. Mövzuyla əlaqəli bir başqa sual da Böyük Sükut olaraq bilinir: "Kosmosa səyahət çətin olsa belə əgər Yer planeti xaricində həyat mümkündürsə, ən azından bu sivilizasiyalara aid radiosiqnalları eşitmək mümkün deyilmi?!"

Paradoksun əsas izahı belədir: Kainatın böyüklüyü və yaşı texnoloji baxımdan inkişaf etmiş vəziyyətdə olan bir çox sivilizasiyanın mövcud olmasını tələb edir. Ancaq bu, təsdiqedici hər hansı bir dəlilin olmamasına görə hələlik fərziyyədir. Fermi paradoksu iki şəkildə soruşula bilər: "Niyə yadplanetlilərə, ya da onlar tərəfindən yaradılmış obyektlərə fiziki olaraq rast gəlmirik?" və ya "Niyə üstün həyatın işarələrini görmürük?"

Bu sualları cavablandırmağa çalışan bəzi elm adamları düşünürlər ki, kifayət qədər inkişaf etmiş bir sivilizasiya müşahidə edilə bilən kainatın olduqca böyük bir hissəsindən görünə bilər. Bu cür sivilizasiyalar çox nadir olsalar belə indiyə qədər kəşf edilməli idilər. Ancaq indiyə qədər onların izinə rast gəlinməyib.

### "Qaranlıq meşə" və "Böyük süzgəc" nəzəriyyələri

Digər bir nəzəriyyə "Qaranlıq meşə"dir ("Dark Forest Theory"). O, Çin yazıçısı Liu Cixin "Üç bədən problemi" adlı elmi-fantastik trilogiyasında təklif edilən bir konsepsiyadır. Bu nəzəriyyəyə görə, kosmosa səyahət edən yadplanetlilərin kainatdakı digər sivilizasiyalardan gizlin qalmaları onların strateji maraqlarından irəli gəlir.

Fantastik konsepsiya olub, heç bir elmi təsdiqi olmayan "Qaranlıq meşə" nəzəriyyəsinə əsasən, sivilizasiyalar görünməz qalmaq üçün səy göstərirlər. Yadplanetlilər siqnallarını maskalayır, təmasdan qaçır və mövcudluqları haqqında məlumatın yayılmasını məhdudlaşdırırlar. Ancaq onu da nəzərə almaq lazımdır ki, sivilizasiyalar keçmişdə yarana bilər. Lakin bu, onların hələ də mövcud olduğu demək deyil.

"Böyük süzgəc" nəzəriyyəsinə görə isə yadplanetlilərin bu və ya digər səbəbdən səssiz olduğunu güman etməkdənsə, onları artıq gözdən qaçırtdığımızı qəbul etməliyik. Tədqiqatçılar iddia edirlər ki, bu nəhəng sivilizasiyalar səbirlə gözdən uzaqda gözləyə də bilirlər. Bəs niyə yadplanetlilər vaxtlarını bu şəkildə sərf edirlər? Mütəxəssislər bildirirlər ki, kompüterlər soyuduqca daha çox enerjiyə qənaət edir. Kvant zərrəciklərinin qəribə davranışından istifadə edən kvant kompüterləri daha da soyuq olmalıdır. Bunun üçün mütləq sıfıra yaxın temperatur tələb edilir. Yadplanetlilər kütləvi soyutma sistemləri yaratmaq üçün çoxlu resurs xərcləməkdənsə, bəlkə də kainatın soyumasını gözləməyi seçiblər.

### Peruda tapılan mumiyalar

Bir neçə il öncə Peruda tapılan iki insanabənzər mumiya ilə bağlı aparılan ilk araşdırmalarda onların mənşəyi ilə bağlı dəqiq nəticə əldə edilməmişdi. Mumiyaların yadplanetlilərə aid olduğu iddialarını rədd edən elm adamları hər iki mumiyanın insan və heyvan hissələrinin birləşdirilərək yaradıldığını açıqlamışdılar. Peru Ədli Tibb İnstitutunun mütəxəssisi Flavio Estrada "Bu iki mumiya yad canlılar deyil. Hər ikisi oyuncaq heyvan sümükləri ilə sintetik yapışdırıcılar birləşdirilərək yaradılıb" deyərək onların yadplanetli olması iddiasını "tamamilə uydurma" adlandırmışdı.

İndi isə mumiyalarla bağlı yeni tədqiqat nəticələri ortaya çıxıb. Yeni analiz nəticələri mumiyaların DNT-sinin 30 faizinin naməlum növə aid olduğunu göstərir. Tədqiqatçılar mumiyaların insan olmadığını təsdiqləsələr də, onları yadplanetli elan etməkdən çəkiniblər. 1000 ildən çox yaşı olduğunu iddia edilən mumiyalar üçbarmaqlı əllərə sahib tək bir skeletdən ibarətdirlər. Onların yüngül, lakin möhkəm sümükləri var. Dişləri olmasa da, mumiyalar Yer üzündə ən nadir elementlərdən olan kadmium və osmiumdan hazırlanmış implantlara sahibdirlər. Ən əsası isə tədqiqatçılar tapıntının insan təbiətinə aid olmayan real varlıq olduğunu bildirirlər.

Planetimizin ən böyük sirlərindən biri olaraq xarakterizə edilən yadplanetlilərlə bağlı hər kəs müxtəlif fikirlərə sahib olsa da, reallıq odur ki, bu kainat yalnız bir sivilizasiyanın varlığı üçün olduqca böyükdür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# QHGT-nin milli bölmələri Şamaxıda toplaşıblar

**Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) təşkil etdiyi QHGT İqlim Fəaliyyəti Forumu çərçivəsində Şamaxıda QHGT-nin milli bölmələrinin iştirakı ilə mədəniyyətlərarası mübadilə tədbiri keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə 17 ölkədən, o cümlədən Belarus, Kamboca, Ekvador, İndoneziya, Mali, Malayziya, Mozambik, Nigeriya, Tanzaniya, Özbəkistan, Uqanda, Zambiya, Zimbabve, Malavi, Mavriki, Qambiya və Nigeriyanın milli bölmələrinin rəhbərləri təmsil etdikləri ölkələrə aid süvenirlər, şirniyyatlar, kitablar, hədiyyələr və ölkələrinə xas olan əşyalar sərgiləyiblər.

Sərginin təşkilində məqsəd bu ölkələrin mədəniyyətlərini nümayiş etdirmək, ölkələrə xas müxtəlif ornamentləri və əşyaları digər ölkə nümayəndələri ilə bölüşmək, mədəni mübadilə, xüsusilə mədəniyyətlərarası dialoqun inkişafına töhfə verməkdir.

Qeyd edək ki, Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə yaradılıb. 2022-ci ilin iyulunda 60 dövlətin gənc nümayəndələrinin iştirak etdiyi Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin təşkilatçılığı ilə ilk dəfə keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti zamanı şəbəkənin təşkilata çevrilməsinə dair yekun sənəd olan Şuşa Akkordu (Şuşa razılaşması) qəbul edilib.

Hazırda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının Üzv Dövlətləri üzrə 59 Milli Bölmə nəzdində fəaliyyət göstərən yüzlərlə fəal üzvü Qoşulmama Hərəkatına üzv ölkələr arasında beynəlxalq dialoqa təkan verir.

# Bu gün hava necə olacaq?

**Azərbaycanda iyunun 23-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 28-33° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan aşağı - 758 millimetr civə sütunu, nisbi rütubət gecə 55-65, gündüz 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Axşama doğru əksər rayonlarda yağıntı tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 31-36° isti, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacağı bildirilir.

# Bakıda "Yerli şirkətlərin tanıtım sərgisi" açılacaq

**Sabah "Bakı-Ekspo" Mərkəzində "Yerli şirkətlərin tanıtım sərgisi"nə start veriləcək.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) xəbər verir ki, bu il 5-ci dəfə keçiriləcək sərgidə qida, İKT, təhsil, inşaat, sənaye, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox yerli şirkət öz məhsul və xidmətlərini nümayiş etdirəcək.

Sərginin əsas məqsədi Azərbaycan şirkətlərinin fəaliyyətini geniş kütləyə tanıtmaq, onlar üçün yeni bazarlar açmaq və şirkətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir. Ziyarətçilər sərgidə müxtəlif sektorlarda fəaliyyət göstərən şirkətlərin yeni məhsul və xidmətləri ilə də yaxından tanış ola biləcəklər.

İyunun 26-dək davam edəcək sərgi KOBİA və "Marsol Group"un birgə təşkilatçılığı ilə keçiriləcək. Sahibkarlığın İnkişafı Fondu, Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, İş adamları Cəmiyyətinin Milli Assosiasiyası və digər dövlət və özəl təşkilatlar sərginin tərəfdaşları sırasındadır.



## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin böyük məsləhətçisi Emil İsmayılova anası

**TAMİLƏ İSMAYILOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclis Aparatının və İşlər İdarəsinin kollektivləri MDB-nin Parlamentlərarası Assambleyasında Milli Məclisin daimi nümayəndəsi - Baş katibin müavini Aydın Cəfərova qardaşı

**ARİF CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1979-cu il 10a sinfinin məzunları sinif yoldaşları Sadiq Allahverdiyevə anası

**SƏKİNƏ ZÜLFÜQAR QIZI HƏMZƏYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev və Elman Məmmədov Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru professor Hüseyn Qaraşova atası

**TAPDIQ QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş Prokurorluğun rəhbərliyi və kollektivi Balakən rayon prokuroru Camal Bağırova atası

**FİRUDİN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov və universitetin professor-müəllim heyəti Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru professor Hüseyn Qaraşova atası

**TAPDIQ QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4457
Sifariş 1384

Qiyməti 60 qəpik